RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 282 (9449) 24 DEKABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# XALQINI SEVƏN və XALQIN SEVDİYİ



İlham Əliyev 20 illik prezidentliyi dövründə müəllifi olduğu "Azərbaycanın sürətli və davamlı inkişafı" konsepsiyasını uğurla yerinə yetirdi.

Azərbaycan dayanmadan inkişaf etdi, qarşısındakı bütün hədəflərə çatdı:

* Tarixinin ən qüdrətli məqamına yüksəldi;

* Beynəlxalq nüfuzu artdı, Cənubi Qafqazın ən güclü dövləti oldu;

* Böyük İpək yolunu uğurla işə saldı, beynəlxalq logistika mərkəzi statusunu qazandı;

* İdman dövləti, beynəlxalq idman yarışlarının ən yüksək təşkilatçısı kimi tanındı;

* Dünyanın sanballı dövlətlərindən birinə, söz sahibinə çevrildi.

Prezident İlham Əliyevin Azərbaycana iyirmi illik rəhbərliyinin ən yüksək zirvəsi və nəticəsi isə 44 günlük Zəfər müharibəsindəki qələbə sayıla bilər!

Bu möhtəşəm qələbəni bütün dünya qəbul və etiraf etdi!

Xalqın uzun illər böyük həsrət və səbirsizliklə gözlədiyi gün gəlib çatdı!

Artıq Şərqi Zəngəzur və Qarabağ sürətlə tikilib qurulur, keçmiş məcburi köçkünlər böyük sevinc və fərəhlə doğma el-obaya qayıdırlar.

Bir neçə rəqəmə nəzər salaq:

Son 20 ildə:

* Ümumi daxili məhsil 4 dəfədən çox artıb!

* Xarici borc 10 faizdən aşağı salınıb!

* Yoxsulluq səviyyəsi 50 faizdən 5,5 faizə endirilib!

* Hazırda Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından maksimum səmərəli istifadə olunur!

* Artıq 170 meqavat gücündə hidroelektrik stansiyaları istifadəyə verilib, ilin sonuna bu rəqəm 270 meqavata çatdırılacaqdır.

* Külək Azərbaycanda, xüsusən Xəzərdə sərvətə çevrilib, elektrik enerjisi istehsalında "fəal iştirak" edir!

* Tezliklə Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanın "yaşıl enerjisi"ni Avropaya çatdıracaqdır!

İşğaldan azad edilən torpaqlar təkcə yaşayış məskənlərinə deyil, həm də istehsal sahələrinə çevrilir!

→ 5

## "Azərbaycanın və şəxsən Sizin ölkəmizə göstərdiyiniz dəstəyə görə dərin minnətdarlığımı bildirirəm"

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında inkişaf edən dostluq və əməkdaşlıq münasibətləri mövcuddur. Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı hörmətə və etimada əsaslanan tərəfdaşlıq daha da möhkəmlənəcəkdir. Ehtiyac duyduğumuz vaxtlarda Azərbaycanın və şəxsən Sizin ölkəmizə göstərdiyiniz dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Mən bunu ölkələrimizin dostluğunun əyani təsdiqi kimi dəyərləndirirəm. Əməkdaşlığımızın gələcəkdə daha da dərinləşəcəyinə inanıram. Sizə uğurlar və ölkənizə davamlı inkişaf, firavanlıq arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

## "Dövlət xadimi kimi müdrikliyiniz və zəngin həyat təcrübəniz Sizə respublikada və onun hüdudlarından kənarda böyük hörmət qazandırıb"

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün Azərbaycan Respublikası siyasi, iqtisadi, sosial, humanitar və digər sahələrdə böyük uğurlar qazanmağa davam edir. Dövlət xadimi kimi müdrikliyiniz və zəngin həyat təcrübəniz Sizə respublikada və onun hüdudlarından kənarda böyük hörmət qazandırıb.

Sizin Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin təmin edilməsində mühüm amil olan Rusiya-Azərbaycan müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm. Əminəm ki, ölkələrimizə dost olan xalqların maraqları naminə, o cümlədən Qərbin müasir neokolonializm siyasəti ilə mübarizə çərçivəsində dialoqun ardıcıl surətdə inkişafının ciddi perspektivləri var.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini***



## Birinci vitse-prezident Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Prezident İlham Əliyevin doğum günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

*"24.12.2023. Doğum gününüz mübarək, cənab Prezident! Sizə möhkəm cansağlığı, sevinc və nur, uğur və qələbələrlə dolu uzun ömür arzulayıram! Tanrı Sizə güc və səbir versin! Biz Sizinlə fəxr edir və Sizi çox sevirik! Uca Allah Sizi və Azərbaycan xalqını qorusun!".*

## CƏNAB İLHAM ƏLİYEVƏ

Təcrübəli və məsuliyyətli dövlət xadimi kimi, Siz haqlı olaraq həmvətənləriniz arasında və beynəlxalq arenada yüksək nüfuza maliksiniz.

***Maqomedsalam MAQOMEDOV,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

---

Zati-alinizin müdrik siyasəti nəticəsində qardaş Azərbaycanın bu il bütün əraziləri üzərində tam hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycanın deyil, həm də türk dünyasının böyük uğurudur.

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

---

Sizin səmərəli fəaliyyətiniz nəticəsində bütün dünya Azərbaycanla bağlı həqiqətlər, ölkənizin və xalqınızın qazandığı nailiyyətlər haqqında məlumatlıdır.

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim***

---

Peşəkar siyasi xadim və Vətəninə sadiq insan kimi Siz öz həmvətənləriniz arasında və ölkənizdən xaricdə yüksək nüfuza maliksiniz.

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

---

bp şirkəti olaraq biz Azərbaycanda dünyamiqyaslı enerji layihələrinin əməliyyatçısı olmaqdan qürur duyuruq. Bu strateji enerji layihələrinin gerçəkləşməsi Sizin rəhbərliyiniz və daimi dəstəyiniz sayəsində mümkün olmuşdur.

***Qəri COUNZ,***
***bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

---

Siz müdrik və uzaqgörən dövlət xadimi kimi öz vətəninizdə və xaricdə böyük hörmət qazanmısınız. Sizin rəhbərliyinizlə Azərbaycanın dayanıqlı inkişaf yolu ilə irəliləməsi respublikanın vətəndaşlarının qəlbində minnətdarlıq hissləri doğurur.

***Dmitri KOZAK,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

→ 2

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Təcrübəli və məsuliyyətli dövlət xadimi kimi, Siz haqlı olaraq həmvətənləriniz arasında və beynəlxalq arenada yüksək nüfuza maliksiniz.

Sizin adınız Rusiya və Azərbaycan xalqlarının rifahı naminə strateji tərəfdaşlıq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi ilə ayrılmaz surətdə bağlıdır.

Sizə möhkəm cansağlığı və yeni uğurlar, Azərbaycan Respublikasının bütün vətəndaşlarına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Maqomedsalam MAQOMEDOV,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz müdrik və uzaqgörən dövlət xadimi kimi öz vətəninizdə və xaricdə böyük hörmət qazanmısınız. Sizin rəhbərliyinizlə Azərbaycanın dayanıqlı inkişaf yolu ilə irəliləməsi respublikanın vətəndaşlarının qəlbində minnətdarlıq hissləri doğurur.

Sizin ölkələrimiz və xalqlarımız arasında dostluq və müttəfiqlik münasibətlərinin inkişafına şəxsi töhfənizi xüsusi qiymətləndiririk. Hesab edirəm ki, bu münasibətlərin gələcəkdə möhkəmləndirilməsi potensialı genişdir.

Fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn Yeni 2024-cü il münasibətilə təbrik edirəm.

Sizə möhkəm cansağlığı, enerji, uğurlar və növbədənkənar prezident seçkilərində ümumxalq dəstəyi, bizə yaxın olan Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Dmitri KOZAK,***
***Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin müdrik siyasəti nəticəsində qardaş Azərbaycanın bu il bütün əraziləri üzərində tam hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycanın deyil, həm də türk dünyasının böyük uğurudur.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimə ünvanladığınız təbrik məktubu hamımızı sevindirdi və Türk xalqları arasında mədəni inteqrasiyanın inkişafı istiqamətində gələcək fəaliyyətimizin geniş vüsət alması üçün bizi daha da ruhlandırdı.

Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar ilboyu Azərbaycanda və digər üzv ölkələrimizdə keçirdiyimiz tədbirlərin uğurla başa çatdırılmasında Sizin TÜRKSOY-a dəstəyinizi daim hiss etdiyimizi xüsusi vurğulamaq istəyirəm.

Möhtərəm Prezident, TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Zati-alinizə dərin təşəkkürümü bildirir, bu əlamətdar gündə Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Türk Mədəniyyəti və İrsi Fondunun yeni prezidenti olaraq salamlayır və doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, qardaş Azərbaycan xalqının rifahı naminə gördüyünüz işlərdə yeni-yeni uğurlar diləyirəm.

Müdrik və uzaqgörən siyasətiniz nəticəsində Azərbaycan regionda və dünyada getdikcə daha mühüm rol oynayır. Ölkənin iqtisadi və sosial inkişafına, onun xarici siyasi maraqlarının müdafiəsinə yönəlmiş fəaliyyətinizdə Sizə tükənməz enerji arzu edirəm.

Bu xoş fürsətdən istifadə edərək, mənə etimad göstərib Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunmağıma verdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin şəxsi təşəbbüsünüz əsasında yaradılmış təşkilatın rəhbəri vəzifəsinə layiq görülməyim mənim üçün böyük şərəf və qürurdur. Sizi əmin etmək istərdim ki, türk dünyasının daha da gücləndirilməsi, onun zəngin mədəni irsinin qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Eyni zamanda Zati-alinizin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı böyük Zəfər, eləcə də Azərbaycanın və türk dünyasının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin memarı, bütün varlığı ilə Vətəninə bağlı olmuş dünyamiqyaslı siyasətçi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Sizin sevinciniz bütün türk xalqlarının sevincidir.

*Dərin hörmətlə,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Sizi Yeni il münasibətilə də təbrik edirəm. Qoy gələn il Azərbaycan və bütün türk dünyası üçün qələbələr ili olsun!

Sizin səmərəli fəaliyyətiniz nəticəsində bütün dünya Azərbaycanla bağlı həqiqətlər, ölkənizin və xalqınızın qazandığı nailiyyətlər haqqında məlumatlıdır.

Nəticələri ölkəniz və bütövlükdə region üçün taleyüklü olacaq növbədənkənar prezident seçkilərində Sizə uğurlar diləyirəm.

*Dərin hörmətlə Sizin,*

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq yazıçısı, görkəmli şair və ictimai xadim***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, qaqauz xalqı adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə Sizə təbriklərimi çatdırım.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq, Azərbaycan Respublikasının tərəqqisi naminə bütün planlarınızın uğurla həyata keçməsini arzulayıram.

Sizin zəngin siyasi təcrübəniz, enerjiniz və peşəkarlığınız, eləcə də ən çətin məsələlərdə düzgün qərar vermək bacarığınız sayəsində Azərbaycan bu gün böyük iqtisadi nailiyyətlər qazanıb və inkişaf etmiş beynəlxalq subyektlərdən biridir.

Eyni zamanda icazə verin, Qaqauz sakinlərinə göstərilən diqqətə, eləcə də Qaqauz Muxtariyyəti ilə əməkdaşlığın inkişafına verdiyiniz böyük töhfəyə görə Sizə dərin minnətdarlığımı bildirim. Qaqauz regionunun təşəbbüslərinə Sizin diqqətiniz etimadlı qarşılıqlı münasibətlərin sübutudur.

Möhtərəm cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının tərəqqisi və inkişafı naminə ali dövləti fəaliyyətinizdə Sizə müvəffəqiyyətlər arzulayıram.

Ən xoş arzularla və gələcəkdə səmərəli əməkdaşlıq ümidi ilə,

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Qoy Sizə xas olan möhkəm iradə, təcrübə, liderlik keyfiyyətləri, həmkarlarınızın hörməti, həmyerliləriniz arasında nüfuzunuz gələcəkdə də Azərbaycanın iqtisadi və sosial inkişafına xidmət etsin!



Rostov vilayəti əməkdaşlığı, respublikanızla və onun regionları ilə yaranmış dostluq münasibətlərini yüksək qiymətləndirir.

Sizə cansağlığı, əmin-amanlıq və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vasili QOLUBEV,***
***Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizə cansağlığı, firavanlıq, Azərbaycanın inkişafı ilə bağlı planlarınızın uğurla gerçəkləşməsini, bütün Azərbaycan xalqının rifahı naminə səmərəli fəaliyyətinizdə yeni və böyük nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Aleksey MİLLER,***
***Rusiyanın "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Peşəkar siyasi xadim və Vətəninə sadiq insan kimi Siz öz həmvətənləriniz arasında və ölkənizdən xaricdə yüksək nüfuza maliksiniz.

Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi və sosial sahələrdə təqdirəlayiq uğurlara nail olub və gələcəyə əminliklə baxır.

Ölkənizə tərəqqi, şəxsən Sizə isə möhkəm cansağlığı və ailə səadəti arzu edirəm.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin doğum gününüz münasibətilə Sizi təbrik edim.

Bu əlamətdar gündə Sizə, ailənizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı bildirirəm.

Sizin gördüyünüz işlər, qazandığınız nailiyyətlər bütün dünyada milyonlarla azərbaycanlıya ilham verir. Azərbaycan Sizin rəhbərliyinizlə böyük uğurlar qazanıb. Amma bu il ən böyük nailiyyət Azərbaycanın suverenliyini tam bərpa etməsi oldu.

Azərbaycanın dünya arenasında nüfuzu böyük dərəcədə artıb. Bu, hər şeydən əvvəl, Sizin xidmətinizdir. Yuxarıda qeyd edilən uğurların kulminasiya nöqtəsi isə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsinə dair qərar oldu.

Möhtərəm İlham Heydər oğlu, hadisələrin baş verməsi mərhələlərinə nəzər salsaq, dahi Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi, Sizin uzaqgörənliyiniz, parlaq diplomat, böyük strateq istedadınız heyranlıq doğurur.

Sizə, gözəl ailənizə cansağlığı, xoşbəxtlik, tərəqqi, hər zaman xoş əhvali-ruhiyyə arzulayıram.

*Hörmətlə daim Sizin,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik etməkdən, ali dövləti fəaliyyətinizdə Sizə uğurlar diləməkdən şərəf duyuruq.

Sizin İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin gənclərinin həmrəyliyi və inkişafı ilə bağlı qəti mövqeyinizin ifadəsi olaraq, 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Baş Assambleyasının təsis iclasının keçirilməsinə, onun İƏT-in üzv qurumu olaraq beynəlxalq təsisat kimi formalaşmasına və inkişafına, eləcə də İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinə Bakıda evsahibliyi edilməsinə Azərbaycan hökumətinin davamlı dəstəyi regionun digər liderləri üçün parlaq nümunədir. Forumun beynəlxalq təşkilat kimi təsis edilməsini Azərbaycan Respublikasının İƏT-ə verdiyi mühüm töhfə kimi qeyd etməyiniz bizi daim qürurlandırır. İƏT Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyətinə göstərdiyiniz etimadla və dəstəklə fəxr edir, bu etimadı doğrultmaq üçün səylərimizi əsirgəməməyə çalışırıq.

Sizin müdrik siyasətinizin nəticəsi olaraq Azərbaycanın bu il bütün əraziləri üzərində tam hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycan tarixində deyil, islam ölkələri tarixində də son iki yüz ildə işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində əldə edilmiş ilk və böyük uğurdur. Biz müsəlman ölkələri gəncləri adından bu Qələbəni böyük sevinc və fərəh hissi ilə qarşıladıq.

Şuşa şəhərinin gələn il İslam dünyasının həm mədəniyyət, həm də gənclər paytaxtı seçilməsi müsəlman dünyasında Sizin nüfuzunuzun bariz göstəricisidir. Biz inanırıq ki, gələn il Azərbaycan, xüsusilə Şuşa şəhəri müsəlman gənclərinin həmrəylik mərkəzi olacaqdır.

2024-cü ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzu edir və Sizin inamlı qələbənizə inanırıq.

Möhtərəm Prezident, Sizə və ailənizə möhkəm cansağlığı, müvəffəqiyyətlər və firavanlıq arzulayırıq.

Sizə olan ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

*Hörmətlə,*

***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya üzrə Regional Mərkəzinin İdarə Heyəti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə "VTB Bank"ın İdarə Heyəti, kollektivi adından və şəxsən öz adımdan səmimi təbriklərimi qəbul edin.

Bu il Sizin respublikaya fədakar xidmətinizin 20 ili tamam oldu.

Bu vaxt ərzində Azərbaycanda xarici siyasət, iqtisadiyyat, sosial sahə və dövlət quruculuğunda şəksiz uğurlar əldə olunub. Ölkə Sizin rəhbərliyinizlə beynəlxalq arenada nüfuzunu xeyli möhkəmləndirib, regional lider mövqeyini gücləndirib, Avrasiya məkanında, o cümlədən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi kimi yeni beynəlxalq nəqliyyat marşrutlarının formalaşması prosesində əhəmiyyətli aktora çevrilib.

Rusiyada Azərbaycan Respublikası, Azərbaycan xalqı ilə möhkəm əməkdaşlıq münasibətlərini və müttəfiqlik qarşılıqlı fəaliyyətini, məhsuldar ikitərəfli əlaqələri yüksək qiymətləndirirlər. "VTB" qrupu mürəkkəb çağırışlar şəraitində dinamik inkişaf edən işgüzar əlaqələrə, konstruktiv dialoqa böyük əhəmiyyət verir.

Hörmətli İlham Heydər oğlu, doğum gününüzdə və respublika üçün bu əlamətdar ildə Azərbaycana Sizin rəhbərliyinizlə yeni-yeni nailiyyətlər, Sizə isə qarşıdakı prezident seçkilərində müvəffəqiyyətlər, tükənməz güc ehtiyatı, yaxınlarınızla birlikdə cansağlığı, firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Andrey KOSTİN,***
***Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti - İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik diləyirəm.

bp şirkəti olaraq biz Azərbaycanda dünyamiqyaslı enerji layihələrinin əməliyyatçısı olmaqdan qürur duyuruq. Bu strateji enerji layihələrinin gerçəkləşməsi Sizin rəhbərliyiniz və daimi dəstəyiniz sayəsində mümkün olmuşdur.

Biz Azərbaycan hökuməti və SOCAR ilə səmərəli əməkdaşlığımızdan məmnunluq duyuruq və bu strateji tərəfdaşlığın uzun illər davam edəcəyinə əminik.

Bu xoş fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə də təbrik edirəm. Yeni ildə Sizə, yaxınlarınıza və Azərbaycan xalqına firavanlıq, sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***Qəri COUNZ,***
***bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim, Sizə möhkəm cansağlığı və doğma Azərbaycanın rifahı naminə yeni nailiyyətlər arzulayım.

Bu gün biz - Sizin həmvətənləriniz, dostlarınız indiki mürəkkəb tarixi dövrdə Azərbaycan xalqının öz Prezidenti və Ali Baş Komandanı başda olmaqla suveren maraqlarını necə inamla və ardıcıl surətdə qoruduğunu, iqtisadi və siyasi nailiyyətlərini artırdığını, müdafiə qabiliyyətini və beynəlxalq mövqelərini möhkəmləndirdiyini, doğma Qarabağın hər qarış torpağının qorunmasında qətiyyətli olmasını bütün dünyaya nümayiş etdirdiyini, quruculuq fəaliyyəti ilə ölkənin daha sürətli inkişafı və firavanlaşması üçün möhkəm zəmin yaratdığını böyük qürurla izləyirik.

Üç il bundan əvvəl Sizin komandanlığınız altında şanlı ordumuz doğma Qarabağımızı və onun beşiyi olan Şuşanı işğaldan azad etdi. Sizin dövlət xadimi, sərkərdə, görkəmli siyasətçi və diplomat kimi böyük istedadınız Ağdam, Laçın və Kəlbəcəri qan tökmədən geri almağa, bir qədər sonra isə ildırım sürəti ilə həyata keçirilən antiterror tədbirləri nəticəsində ölkənin ərazi bütövlüyünün tam bərpa olunmasına imkan yaratdı.

Cəmi üç il keçib, amma bu müddət ərzində çox böyük işlər görülüb. Bu gün əsl qurucu dövlət xadimi kimi Siz bu şəhərləri dirçəldirsiniz. Bu, xalq üçün əsl xoşbəxtlikdir, Liderin zəfəridir!

Bugünkü dünyada Sizin kimi ölkəsinə bu qədər müdrikcəsinə rəhbərlik edən, öz xalqının və dünya ictimaiyyətinin böyük etimadını qazana bilən dövlət başçısı tapmaq qeyri-mümkündür.

Çox hörmətli İlham Heydər oğlu, Azərbaycanda qarşıdan gələn prezident seçkiləri ərəfəsində doğma Vətənindən kənarda yaşayan milyonlarla həmvətənimiz Sizin fəaliyyətinizi yekdilliklə dəstəklədiyini bəyan edir, Azərbaycanın tərəqqisini və rifahını yalnız və yalnız Sizin fəaliyyətinizlə bağlayır. Uca Yaradan Sizə bu yolda güc-qüvvət və səbir versin!

Qarşıdan gələn il Sizə və bütün Azərbaycan xalqına əmin-amanlıq, daha böyük uğur və xoşbəxtlik gətirsin! Sizə və yaxınlarınıza səadət və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Natiq AĞAMİROV,***
***Rusiya Notariuslar Assosiasiyasının sədri, Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti, professor***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik etməyi və ən xoş arzularımızı çatdırmağı özümüzə böyük şərəf hesab edirik.

Zati-alinizin Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı ilə bağlı arzu və vəsiyyətlərini həyata keçirmək istiqamətində reallaşdırdığınız humanist və sülhsevər siyasət nəticəsində doğma Azərbaycanımızın durmadan inkişafı, dünya ölkələri arasında layiqli yer tutması, suverenliyinin tam bərpa olunması bizi olduqca fərəhləndirir, Vətənimizdən kənarda azərbaycançılıq naminə yeni-yeni nailiyyətlər qazanmağa səfərbər edir.

Müstəqil Azərbaycanımızın dövlət quruculuğu sahəsindəki səylərinizi və siyasi, iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsinə, inkişaf etdirilməsinə göstərdiyiniz diqqət və qayğını yüksək qiymətləndiririk.

Bu xoş fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, Azərbaycan diasporunun fəaliyyətinə göstərdiyiniz dəstəyə görə dərin təşəkkürümüzü bildiririk. Bu əlamətdar gündə zati-alinizə və bütün ailə üzvlərinizə, doğma xalqımıza möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Ən dərin hörmət və ehtiramla,*

***Arif Quliyev,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, Ukraynanın Əməkdar təhsil işçisi, "Odessa Hüquq Akademiyası" Milli Universitetinin, Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 465 **QƏRAR** Bakı şəhəri, 21 dekabr 2023-cü il

## “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 949-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 949-VIQD nömrəli Qanununun tətbiqi və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 2267 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 267; 2001, № 1, maddə 70, № 7, maddə 512; 2003, № 8, maddə 460; 2005, № 9, maddə 855, № 11, maddə 1061; 2007, № 10, maddə 1013; 2008, № 2, maddə 116; 2010, № 8, maddə 764; 2011, № 8, maddə 781, № 9, maddə 852; 2012, № 9, maddə 922; 2013, № 3, maddə 344; 2014, № 8, maddə 1011, № 10, maddə 1301; 2017, № 6, maddə 1218; 2018, № 9, maddə 1918, № 10, maddələr 2146, 2147, № 11, maddə 2442; 2019, № 1, maddə 154, № 4, maddə 788; 2021, № 10, maddə 1199; 2022, № 4, maddə 385) ilə təsdiq edilmiş "Yol hərəkətinin təhlükəsizliyi göstəricilərinin siyahısı, uçot və hesabat Qaydası"nın 4.9-cu bəndində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci cümlədə "sığorta idarələrinin" sözləri "sığortaçıların" sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına münasibətdə standart sığorta müqaviləsi üzrə, eləcə də ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin icbari fərdi qəza sığortasına münasibətdə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 34-4.1.4-cü maddəsi ilə müəyyən edilmiş məlumatlar Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həmin Qanunda nəzərdə tutulmuş informasiya sistemindən əldə edilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 28 fevral tarixli 27 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 123; 2005, № 11, maddə 1061; 2006, № 9, maddə 822; 2008, № 2, maddələr 116, 130, № 5, maddə 430; 2010, № 3, maddə 264; 2011, № 5, maddə 449; 2013, № 6, maddə 723; 2015, № 7, maddə 901; 2018, № 12 (II kitab), maddə 2737; 2019, № 3, maddə 512; 2021, № 10, maddə 1199; 2022, № 9, maddə 1098; 2023, № 5, maddə 723) ilə təsdiq edilmiş "İstehsalatda baş verən bədbəxt hadisələrin təhqiqi və uçota alınması Qaydaları"na aşağıdakı məzmunda 3.5-1-ci bənd əlavə edilsin:

"3.5-1. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortaya münasibətdə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 34-4.1.4-cü maddəsi ilə müəyyən edilmiş məlumatlar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin Qanunda nəzərdə tutulmuş informasiya sistemindən əldə edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 466 **QƏRAR** Bakı şəhəri, 22 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 936-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 18 iyun tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 542; 2006, № 11, maddə 1003; 2009, № 1, maddə 22; 2013, № 6, maddə 761; 2015, № 12, maddə 1594; 2016, № 3, maddə 613, № 6, maddə 1227, № 8, maddə 1449; 2019, № 4, maddə 755; 2020, № 5, maddə 654; 2022, № 2, maddə 185; 2023, № 7, maddə 1087) ilə təsdiq edilmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 5.11-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Mərkəzi Bankı" sözləri ilə əvəz edilsin.

2. 5.16-cı bəndin ikinci cümləsində "təkrarən yerləşdirilməli" sözləri "özgəninkiləşdirilməli" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 467 **QƏRAR** Bakı şəhəri, 22 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikası Mülki Məcəlləsinin qəbul edilməsindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında” 2000-ci il 23 dekabr tarixli 224 nömrəli və “İpoteka kağızının dövlət qeydiyyatı Qaydaları”nın təsdiq edilməsi haqqında” 2006-cı il 13 fevral tarixli 44 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 936-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1."Azərbaycan Respublikası Mülki Məcəlləsinin qəbul edilməsindən irəli gələn bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 dekabr tarixli 224 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2000, № 12, maddə 875) aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda səhmdar cəmiyyətin nizamnamə kapitalının minimum miqdarı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyənləşdirilir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 fevral tarixli 44 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 192, № 5, maddə 461; 2008, № 1, maddə 39; 2009, № 1, maddə 22; 2016, № 3, maddə 614, № 8, maddə 1449, № 10, maddə 1717; 2017, № 12 (II kitab), maddə 2546; 2019, № 3, maddə 557) ilə təsdiq edilmiş "İpoteka kağızının dövlət qeydiyyatı Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2-ci bənddə "Maliyyə Bazarlarına Nəzarət Palatası (bundan sonra - Maliyyə Bazarlarına Nəzarət Palatası)" sözləri "Mərkəzi Bankı (bundan sonra - Mərkəzi Bank)" sözləri ilə əvəz edilsin.

2.2. 2.1-ci bənddə, 2.2-ci bəndin üçüncü cümləsində, 2.3-cü, 3.3-cü, 3.4-cü, 4.1-ci, 4.2-ci, 5.1-ci və 5.2-ci bəndlərdə ismin müvafiq hallarında "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri ismin müvafiq hallarında "Mərkəzi Bank" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə dekabrın 23-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2023-cü il 19 dekabr tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin mətni, forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələ müzakirə olunub. Məlumat üçün qeyd etmək lazımdır ki, bildirişdə seçicinin adı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, eləcə də səsvermə qaydaları ətraflı şəkildə izah edilir. Komissiya qanunvericiliyin tələblərinə uyğun olaraq, səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 6 524 203 (altı milyon beş yüz iyirmi dörd min iki yüz üç) bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verib.



İclasda qarşıdan gələn seçkilərdə dairə və məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanması qaydası və sayı məsələsinə də baxılıb. Protokolların Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyənləşdirilmiş nümunələrin forma və mətninə uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət və hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında olmaqla, dairə və məntəqə seçki komissiyaları üçün onların sayına uyğun hazırlanması qərara alınıb. Qərara əsasən, səsvermənin nəticələrinə dair protokollar, habelə aşağı seçki komissiyalarının hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan protokollar Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində mətbəə üsulu ilə hazırlanmalıdır.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

### QƏRAR № 11/39

## Mərkəzi Seçki Komissiyasının 2023-cü il 19 dekabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 19 dekabr tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*23.12.2023*

### QƏRAR № 11/41

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokollarının hazırlanma qaydası və sayı barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 100.1-100.6-cı maddələrinin tələblərinə görə, səsvermə protokollarının hazırlanması qaydası, mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 45 gün qalmış təsdiq edilməli və həmin protokollar səsvermə gününə ən geci 30 gün qalmış müvafiq qaydada hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü tarixli 6/43 və 6/44 saylı Qərarları ilə təsdiq edilmiş müvafiq İzahlarla Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar səsvermənin nəticələrinə dair məntəqə və dairə seçki komissiyalarının yekun protokolları nümunələrinin forma və mətni müəyyən olunmuşdur.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermənin nəticələrinə dair müvafiq seçki komissiyalarının protokolları Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən olunmuş nümunələrin forma və mətninə, habelə seçkilər keçiriləcək seçki dairələrinin və seçki məntəqələrinin sayına uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət olmaqla hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında, habelə həmin komissiyaların hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 100-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən olunmuş nümunələrin forma və mətninə uyğun olaraq, bir-bir ardıcıl nömrələnməklə və seriyaları göstərilməklə, 3 nüsxədən ibarət, hər bir nüsxəsi müxtəlif rəngdə karbonlaşdırılmış kağızdan buklet formasında olmaqla, dairə və məntəqə seçki komissiyaları üçün onların sayına uyğun olaraq, habelə həmin komissiyaların hər biri üçün 30 ədəd nömrələnməmiş və karbonlaşdırılmamış kağızdan səsvermənin nəticələrinə dair müvafiq seçki komissiyalarının protokolları Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində mətbəə üsulu ilə hazırlansın.

2. Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə və Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsinə həvalə edilsin.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*23.12.2023*

### QƏRAR № 11/40

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin forması, sayı və hazırlanması qaydası haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 104.1-ci maddəsinə əsasən, məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2013-cü il 5 iyun tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli və müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Göstərilənlərlə əlaqədar olaraq seçicinin soyadı, adı, atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildirişin forması respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınmaqla, həmin saydan təqribən 3% artıq olmaqla mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə və yuxarıda göstərilən Qaydaların 2.1-ci bəndinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin forması təsdiq edilsin.

2. Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 6 524 203 (altı milyon beç yüz iyirmi dörd min iki yüz üç) ədəd müəyyən edilərək mətbəə üsulu ilə hazırlansın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*23.12.2023*

### QƏRAR № 11/42

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Vüsal Bakir oğlu Əsədli 37 saylı Qaradağ, Cəlal Aftandil oğlu Əliyev 73 saylı Masallı - Cəlilabad seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*23.12.2023*



# Qələbəmizin memarı, suverenliyimizin qarantı

**Bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ad günüdür. Uzun illərdir aktiv siyasətlə məşğul olan dövlət başçısı Azərbaycanın təhlükəsizliyinin, müstəqilliyinin və inkişafının qarantıdır.**

2003-cü il oktyabrın 1-də Ümummilli Lider Heydər Əliyev xalqımıza müraciət edərək qarşıdan gələn prezident seçkilərində onun siyasi varisi, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırdı. Ulu Öndər cənab İlham Əliyevin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olduğunu qeyd edərək, dövlətimizin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəyini bəyan etdi. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciətində bildirmişdi.

Xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Ulu Öndərin layiqli varisi İlham Əliyevi dəstəkləyərək prezident seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Bütün bunlara görə idi ki, 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində İlham Əliyev inamlı qələbə qazandı.

Prezident İlham Əliyevin fəaliyyətində xüsusilə mühüm yer tutan nailiyyətlər arasında daha qürurvericisi işğal altındakı torpaqlarımızın azad olunması və son antiterror tədbirləri nəticəsində erməni separatçılarının tam tərk-silah edilməsi, Qarabağda erməni separatçılığına son qoyulması, Xankəndi, Əsgəran, Ağdərə, Xocavənd şəhərlərinin azad edilməsi və əli Azərbaycan xalqının qanına batmış terrorçuların həbs olunaraq Bakıya gətirilməsidir. Mübaliğəsiz demək olar ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız müzəffər xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni geostrateji reallıqlar yarandı. Bununla da Prezident İlham Əliyev Ümummilli Liderin xalqa müraciətində qeyd etdiyi taleyüklü məsələni başa çatdırdı.

Tarixə nəzər salsaq görərik ki, ötən son 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində nə qədər ardıcıl, əhəmiyyətli işlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız cəmi 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı.

Müharibədə məğlub olmuş Ermənistan 10 noyabr tarixində kapitulyasiya aktına imza atmaqla özünün təslimolma sənədini imzaladı. Məhz həmin sənəddə Ağdam, Laçın və Kəlbəcər rayonlarından işğalçı qoşunların dərhal və qeyd-şərtsiz çıxarılması şərt olaraq qoyuldu. Nəticədə bir güllə belə atılmadan bu rayonlarımız işğaldan azad olundu.

2020-ci ilin 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın bütün şərtlərinə əməl etməyən Ermənistan Azərbaycan torpaqlarında yaratmış olduğu qondarma rejimi ləğv etməyərək, "boz zona"nın qalması üçün bütün imkanlarını səfərbər etdi. Ermənistanın növbəti dəfə razılaşdırılmış şərtlərə riayət etməməsi isə 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə yekunlaşdı və qondarma rejim birdəfəlik ləğv olundu.

Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir bacarığını - sərkərdəlik məharətini üzə çıxardı. Ali Baş Komandan əməliyyatlara şəxsən nəzarət edir, döyüşən orduya tapşırıqları birbaşa özü verirdi.

Tarixi Qələbəmizi şərtləndirən ən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu. 44 gün davam edən Zəfər yürüşümüz zamanı dövlətimizin başçısı xarici media vasitələrinə 30-a yaxın müsahibə verərək əsl həqiqətləri dünyaya çatdırdı.

Dövlətimizin başçısı bu müsahibələrlə həm də Ermənistanın təcavüzü, törətdiyi cinayətlər barədə beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Döyüşü hərbi peşəkarlıqla idarə edən məharətli sərkərdə, beynəlxalq ictimaiyyətə reallıqları çatdıran peşəkar diplomatın bütün sahələrdə idarəetməni uğurla həyata keçirməsi qələbəmizi şərtləndirən başlıca amil oldu.

Bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir. İstər iqtisadi, istər siyasi, istərsə də uğurlu idarəçilik modelinin tətbiqində Azərbaycan fenomeni dünyada öz sözünü deməkdədir. Azərbaycan dünyada transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, həmçinin etibarlı tərəfdaş kimi tanınır.

Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar investisiya qoyulub. Bu prosesin sürətlə davam etməsi və həyata keçirilən meqalayihələrin əsas istiqaməti də məhz qeyri-neft sektorunun inkişafı ilə bağlıdır. Ölkəmiz üçün əsas prioritetlərdən biri iqtisadiyyatın böyüməsi, yoxsulluğun azaldılmasıdır.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub kimi beynəlxalq logistik məkana çevrilib və dövlətimizin bu sahədəki rolu olduqca mühümdür. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu ölkəmizin tarixi uğurlarıdır.

İlham Əliyev Azərbaycanı dünyanın idman ölkəsinə çevirmişdir. Onun 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə bu sahədə genişmiqyaslı işlərə start verildi. İdmanın inkişafını diqqətdə saxlayan dövlət başçısının siyasəti nəticəsində bu sahədəki nailiyyətlərimiz gündən-günə artdı. İdmanda atılan ən mühüm addım isə beynəlxalq yarışların və olimpiadaların ölkəmizdə keçirilməsi idi. 2015-ci ildə I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi isə ölkəmizi dünyanın mərkəzinə gətirdi.

Daha sonra IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin və dünyanın diqqətini bir daha rəsmi Bakıya yönəltdi. "Formula-1" və digər çempionatlar və yarışlar isə bir daha bizi dünyada idman ölkəsi olaraq tanıtdı. Bu gün Azərbaycanın bütün sahələrdə olduğu kimi, idmanda da olan uğurlarında məhz cənab Prezidentin imzası var.

Dekabrın 21-də Xankəndi şəhərində futbol üzrə Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən futbol matçını Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də izləməsi dövlət başçısının idmana verdiyi önəmin təcəssümüdür. Bu oyun 30 ildə erməni separatizminin mərkəzi olmuş Xankəndi şəhərinin stadionunda cəmi 4 il əvvəl "Qarabağ Ermənistandır və nöqtə" deyənlərə Azərbaycanın verdiyi ən təsirli mesaj idi. Xankəndi stadionu vaxtilə özündə separatçı rejimin simvollarını daşıyıb. Lakin indi həmin simvollar rejimlə birlikdə tarixin zibilxanasına atılıb. Stadion iki aya kimi qısa müddət ərzində təmir olunaraq istifadəyə verilib.

Xankəndidəki futbol matçından əvvəl çıxışında dövlət başçısının Ağdam şəhərində yerləşən "İmarət" stadionunun da yenidən inşa olunacağını bildirməsi ölkəmizin bütün idman ictimaiyyətini sevindirdi.

Hər il olduğu kimi, bu il də dövlət başçısı idmançılarla, idman xadimləri ilə görüşüb onları fəxri adlarla, fəxri diplomlarla təltif edərək, təqaüd və mənzillərlə təmin etdi. Bu dəfə idmançılarla görüş Xankəndidə keçirildi. Bu yüksək diqqət və qayğı idman ictimaiyyətinin üzərinə həm də böyük məsuliyyət qoydu.

Prezident İlham Əliyevin gündəliyində xüsusilə mühüm yer tutan məsələlərdən biri də gənclər siyasətidir. Dövlət başçısının diqqət və qayğısı sayəsində Azərbaycan gəncliyinin inkişafı üçün dövlət proqramları, gənclərin inkişaf strategiyası, eləcə də xaricdə təhsillə bağlı müxtəlif dövlət proqramları uğurla icra edilir. Bu siyasət nəticəsində ölkəmizdə gənclərlə iş sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə edilib, gənclərin ictimai həyatda rolu önəmli dərəcədə artıb.

Gənclər sahəsində aparılan genişmiqyaslı fəaliyyətdən biri də dövlət başçısı tərəfindən Gənclər Fondunun təsis edilməsidir. Eləcə də "Gənclər siyasəti haqqında", "Könüllü fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" təsdiq edilmişdir. Hər il 10 nəfər gəncə dövlət başçısı tərəfindən fərdi təqaüd verilir. Gənclərin ictimai həyatda iştirakını təmin etmək məqsədilə gənclər mərkəzləri, gənclər evləri, olimpiya idman mərkəzləri fəaliyyət göstərir. Gənclər üçün təsis olunmuş Prezident mükafatı hər il müxtəlif sahələrdə fərqlənən gənclərə təqdim olunur ki, bu da öz növbəsində gənclər üçün xüsusi stimul təşkil edir.

Gənclər də öz növbəsində dövlətin onlar üçün yaratdığı imkanlardan səmərəli istifadə edirlər. Azərbaycan gəncliyi istər Vətən müharibəsində, istərsə də ondan sonrakı dövrdə üzərinə düşən tarixi vəzifələrin öhdəsindən layiqincə gəlmişdir.

Gənclər Azərbaycan həqiqətlərinin, torpaqlarımızın azad edilməsi və suverenliyimizin bərpası ilə bağlı mövqeyimizin dünyaya çatdırılmasında da əhəmiyyətli rol oynayırlar. Bu, beynəlxalq səviyyədə Azərbaycanın yumşaq gücünün formalaşması baxımından zəruridir.

Gənclərimizin son illərdə idman sahəsində və beynəlxalq yarışlarda qazandığı uğurlar da göz qarşısındadır. Bu uğurların da təməli dövlətin gənclər siyasəti ilə bağlıdır. Prezident İlham Əliyev haqlı olaraq vurğulayır ki, gənclərin fiziki tərbiyəsi və sağlamlığı dövlətimizin əsas prioritetlərindəndir.

Bu gün dünyada söz sahiblərindən birinə çevrilən ölkəmiz həm də təşkil etdiyi beynəlxalq tədbirlərin möhtəşəmliyi ilə diqqət çəkir. Belə tədbirlərdən növbətisi gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 olacaq. Beynəlxalq təşkilatlarda olduqca aktiv iştirak edən və dünyada beynəlxalq təşəbbüslərin lideri olaraq tanınan Azərbaycanın belə bir tədbirə evsahibliyi etməsi ölkəmizin artan nüfuzunun göstəricisidir.

Qoşulmama Hərəkatı kimi 120-dən artıq ölkəni özündə birləşdirən bir təşkilata Azərbaycanın uğurla rəhbərlik etməsi, məhz təşkilata üzv dövlətlərin birgə qərarı ilə sədrliyinin 1 il uzadılması ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzu dünyaya göstərir. Azərbaycanın Qoşulmama Hərəkatına uğurla rəhbərlik etdiyi 4 il Hərəkatın işinə verdiyi xüsusi töhfələrlə əlamətdardır. Dövlət başçısının təşəbbüsü ilə Hərəkatın Parlamentlər Şəbəkəsinin yaradılması isə Hərəkata üzv dövlətlərin qanunverici hakimiyyətini öz çətiri altında birləşdirir.

Bütün bunlar Prezident İlham Əliyevin uğurlu idarəetməsi, xalqımızın dövlət başçısının ətrafında sıx birliyi nəticəsində mümkün olub.

Qələbəmizin memarı, suverenliyimizin qarantı, şəhid ailələrinin və qazilərin, sosial qayğıya ehtiyacı olan şəxslərin ən əzizi, xalqımızın sevimli Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə ad günü münasibətilə uzun ömür, cansağlığı, möhtəşəm və yorulmaz fəaliyyətində uğurlar arzulayırıq!

*Adil ƏLİYEV,*
*Milli Məclis Sədrinin müavini*

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib

**Dekabrın 23-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.**





Müşfiqabad qəsəbəsinin ərazisində keçirilən aksiyada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, YAP Mərkəzi Aparatının əməkdaşları, Gənclər Birliyinin üzvləri, partiyanın Bakı, Sumqayıt və Abşeron təşkilatlarının, həmçinin ETSN-in nümayəndələri və ekokönüllülər iştirak ediblər.

Aksiya çərçivəsində 700 ədəd eldar şamı və zeytun ağacı əkilib. Eyni zamanda ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

Bu nəcib təşəbbüs ölkəmizdə həyata keçirilən yaşıllaşdırma siyasətinə daha bir töhfədir.

Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ulu Öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllıqların və parkların salınmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xüsusi diqqət yetirib. Hazırda bu proses daha geniş vüsət alıb. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ətraf mühitin mühafizəsi və sağlam ekoloji mühitin yaradılmasını dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirib və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Yeni Azərbaycan Partiyasının nümayəndələri də bu prosesə layiqli töhfələr verirlər.




# *Tahir BUDAQOV:* "Ağacəkmə aksiyaları ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərir"

**"Prezident İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar ölkə ərazisində və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilir, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri, mütərəqqi ümumbəşəri dəyərlərin təşviqinə verdiyi töhfələr minnətdarlıqla yad edilir, onun ideyalarının Azərbaycanın gələcək inkişafı üçün əhəmiyyəti xüsusi vurğulanır. Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyəti də bu ilin əvvəlində "Heydər Əliyev İli" ilə bağlı Tədbirlər Planını təsdiq edib".**



Bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov "Heydər Əliyev İli" çərçivəsində keçirilən ağacəkmə aksiyası zamanı jurnalistlərə açıqlamasında deyib.

Tahir Budaqov bildirib ki, YAP İdarə Heyətinin təsdiqlədiyi Tədbirlər Planında müxtəlif tədbirlər nəzərdə tutulur: "Onlardan biri də Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsidir. Bu aksiyalara yaz aylarında start verilib və payız-qış mövsümündə də davam etdirilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, "Heydər Əliyev İli" çərçivəsində bu il ölkəmizin ərazisində ümumilikdə 3 milyondan çox ağac əkilib. Bu, ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcək, insanların həyat keyfiyyətinin yaxşılaşmasına öz töhfəsini verəcək".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan dünyada mövqelərini ildən-ilə möhkəmləndirir: "Aparıcı dövlət kimi Azərbaycan nəinki regionda, həm də qlobal miqyasda öz yerini təsdiq edib. Bu baxımdan, COP29 tədbirinin (BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası) məhz Azərbaycanda keçirilməsi ilə bağlı qərar tarixi əhəmiyyət kəsb etməklə ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsinə xidmət edir. Bu tədbir çərçivəsində dünyanın yüzlərlə dövlət və hökumət başçısı, bütövlükdə bu sahə ilə məşğul olan minlərlə insan Azərbaycana gələcək. Düşünürəm ki, COP29 ərəfəsində bu kimi ağacəkmə aksiyaları Azərbaycanın ekoloji sağlamlığa yetirdiyi diqqətin, iqlim dəyişikliyinin yaratdığı fəsadların yumşaldılmasına xidmət edən önəmli töhfəsinin bir nümunəsidir".



# XALQINI SEVƏN və XALQIN SEVDİYİ



**Sevgi dillə ifadə olunur!**

**Amma əməldə görünür, konkret işlə sübuta yetirilir.**

Yalnız sözdən ibarət olan sevginin ömrü uzun çəkməz!

*Sevdiyin üçün mümkün olanı etmək, istəklərini gerçəkləşdirmək, arzularını reallığa çevirmək, dediklərini konkret işinlə təsdiq etmək zəruridir.*

*Belədə kimsədə həmin sevginin həqiqiliyinə və səmimiliyinə zərrə qədər də şübhə qalmaz.*

Sevgi təkcə iki gənc arasında olmur!

Bir ülvi duyğu olmaqla Vətənə, doğmalara, dostlara, xalqına üzağlığı və başucalığı gətirən insanlara da sevgi və hörmət bəslənir.

**Ən böyük sevgi isə ümumxalq sevgisidir!**

**Bu tükənməz və ali sevgi isə hər kəsə qismət olmur!**

*Xalq isə adətən onu sevənləri, ona təmənnasız xidmət edənləri, arzu və istəklərini yerinə yetirənləri sevir.*

Xalqın sevgisini qazananlar onun qəlbində özlərinə əbədi yuva qururlar.

Belələrinin sayı az olsa da, heç zaman onlar unudulmur, adları tarixin şanlı səhifələrinə qızıl hərflərlə həkk edilir.

**Azərbaycanı bir dövlət kimi məhvolmadan xilas edən Ulu Öndər Heydər Əliyev və işğal altındakı torpaqları geri qaytararaq ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olan Müzəffər Ali Baş Komandan İlham Əliyev tükənməz xalq məhəbbəti qazanmış görkəmli tarixi şəxsiyyətlər sırasında özlərinə əbədi layiqli yer tutmuş rəhbərlərdəndirlər.**

❖ ❖ ❖

**Azərbaycan xalqı heç zaman qorxaq olmayıb!**

**Heç zaman döyüşdən geri duraraq düşmən qabağından qaçmayıb!**

*I Qarabağ müharibəsində də igid oğullarımız döyüşdü, bacardığı qədər el-obasını düşməndən müdafiə etdi.*

Özü də təkcə Qarabağda yaşayanlar vuruşmadılar, respublikanın hər bir guşəsindən gələn oğullar rayonlardakı könüllü özünümüdafiə batalyonlarına yazılaraq yerli əhali ilə çiyin-çiyinə dayandılar!

**Azərbaycan xalqı torpaqlarının müdafiəsi uğrunda 20 min övladını şəhid verdi!**

**Sona qədər çarpışdı, döyüşdü...**

Lakin xalqın bu istiqamətdəki mübarizəsinə dövlət dəstəyi lazımi səviyyədə göstərilmirdi!

*Moskva Ə.Vəzirov və A.Mütəllibov kimi itaətkarları Azərbaycan rəhbərliyinə gətirməklə, əslində, dolayısı yolla erməni separatizminə dəstək verirdi.*

*Meydandan iqtidara gələn AXC-Müsavat cütlüyü isə naşılıqları və şəxsi maraqlarını öndə tutmaları səbəbindən xəyanətə yuvarlandılar.*

**Nə vaxtında ordu quruldu, nə xalqın mübarizəsinə hərbi-təşkilati dəstək verildi, nə düzgün daxili və xarici siyasət aparıldı, nə də SSRİ məkanında və dünyada gedən proseslərdən baş çıxararaq vaxtında zəruri addımlar atıldı.**

**Nəticədə 20 min şəhid verən dövlət ərazisinin 20 faizini də itirdi.**

*Ağılsız siyasət, bacarıqsız rəhbərlik nəticəsində güclü xalq zəif düşmənə uduzdu.*

* Yalnız Heydər Əliyevin qayıdışından sonra bu naşılıqlara və xəyanət əməllərinə son qoyuldu.

* Yalnız Heydər Əliyevin sayəsində ölkədə baş alıb gedən qanunsuzluqlar, xaos və anarxiya aradan qaldırıldı.

* Yalnız Heydər Əliyevin uzaqgörənliyi və qətiyyətli addımları Azərbaycanı məhvolmadan xilas etdi, bir dövlət kimi qəddini düzəltməyə, ayağa durmağa imkan yaratdı.

**Təəssüf ki, ömür vəfa etmədi:**

**Ulu Öndərimiz özündən sonra ölkəni daim irəliyə aparacaq siyasi kurs müəyyənləşdirdi, layiqli siyasi varisini hazırlayıb Azərbaycan xalqına məşhur vəsiyyətini edərək əbədiyyətə qovuşdu.**

*Təməl möhkəm olsa da, onun üzərində möhtəşəm bina ucaltmağın bütün ağırlıqları o dövrdə cavan olan yeni Prezidentin çiyinlərinə düşdü.*

*Xoşbəxtlikdən bu qüdrətli çiyinlər bütün ağırlıqlara tab gətirdi, xalqın inam və etibarı ləyaqətlə doğruldu.*

**İlham Əliyev də Ulu Öndər Heydər Əliyev kimi dövləti hərtərəfli inkişaf etdirməyi, cari məsələləri qarşıda duran və həllini gözləyən problemlərlə üzvi şəkildə əlaqələndirməyi, regionda və dünyada gedən proseslərin dərininə varmağı və onlardan Azərbaycanın xeyrinə istifadə etməyi məharətlə bacardı:**

* Həm xalqın ən zəruri ehtiyacları ödənildi, həm də gələcək inkişafın təməli yaradıldı.

* Həm ölkə daxilində sürətli quruculuq işləri görüldü, həm də düzgün xarici siyasət yürüdüldü, ölkənin beynəlxalq nüfuzu yüksəldildi.

* Həm sülh danışıqları aparıldı, həm də ordu quruculuğu daim diqqət mərkəzində saxlanıldı.

**Hədəf iki oldu: həm iqtisadi cəhətdən güclü dövlət yaradaraq xalqın rifahını yüksəltmək, həm də işğal altındakı torpaqları azad etməkdən ötrü dayanmadan hazırlaşmaq!**

* Hər ikisi külli miqdarda vəsait tələb edirdi;

* Hər ikisi bir-birindən vacib və təxirəsalınmaz məsələlər sayılırdı;

* Hər ikisi gündəlik gərgin fəaliyyət, hesablanmış addımlar atılmasını, xalqın səfərbərliyə alınaraq qüvvələrin vahid məqsədə yönəldilməsini zərurətə çevirirdi.

**Yeni tipli rəhbər olaraq Prezident İlham Əliyev bütün bunları bacardı, ən yüksək səviyyədə icra etdi!**

**Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!**

❖ ❖ ❖

İlham Əliyev dövlət başçısı seçilənədək Dövlət Neft Şirkətində birinci vitse-prezident və Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində işləyirdi.

Hər sahənin də özünəməxsus vəzifələri və problemləri vardı.

Həmin dövrdə ən vacib məsələlərdən biri Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması və götürülən gəlirlərdən dövlətin ən zəruri ehtiyaclarının ödənilməsi idi.

*Əvvəlki iqtidarlar uzun müddət neft danışıqları aparsalar da, əlverişli neft müqavilələri bağlaya bilməmişdilər.*

**Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan neft danışıqlarına cənab İlham Əliyev cəlb olundu.**

**Çətin gedən, hərdən qırılmaq təhlükəsi ilə üzləşən danışıqlarda İlham Əliyev bütün diplomatik bacarığını nümayiş etdirdi.**

Tezliklə sonradan "Əsrin müqaviləsi" adını alan və Azərbaycanın bütün maraqlarını təmin edən neft kontraktı imzalandı.

Bu bağlaşmadan götürülən gəlirlər Azərbaycan iqtisadiyyatı üçün lokomotiv rolunu oyandı, yüksəliş üçün etibarlı təmələ çevrildi.

*Cənab İlham Əliyev dövlət başçısı seçildikdən sonra da bu sahəyə böyük diqqət yetirdi, beləliklə, çoxsaylı neft və təbii qaz müqavilələri imzalandı, gələn gəlirlər xalqın güzəranının yüksəldilməsinə, dövlətin iqtisadi qüdrətinin artırılmasına, ordu quruculuğuna, habelə bir sıra möhtəşəm layihələrin reallaşdırılmasına yönəldildi.*

❖ ❖ ❖

**İlham Əliyev Milli Olimpiya Komitəsinə rəhbərliyinin ilk dövrlərindən idmana yalnız fiziki cəhətdən güclü olmaq vasitəsi kimi baxmadığını bəyan etmişdi.**

İdmanın həm də gənclərin pis vərdişlərdən çəkindirilməsinə, vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsinə, Azərbaycanın dünyada müsbət imicinin formalaşdırılmasına xidmət etməli olduğunu da söyləyirdi.

*İlham Əliyevin Milli Olimpiya Komitəsinə bu gün də davam edən rəhbərliyi dövründə bütün bu vəzifələr layiqincə yerinə yetirildi:*

* Azərbaycan dünyaya həm də idman dövləti kimi tanıdıldı.

* I Avropa Oyunları ən yüksək səviyyədə keçirilərək digərləri üçün nümunəyə çevrildi.

* Azərbaycan gəncləri dünya, Avropa və beynəlxalq yarışlarda yüksək yer tutaraq Dövlət bayrağını qürurla ucaltmağı və himnimizi səsləndirməyi bacardılar.

* Vətənin vətənpərvər idmançıları düşmən ölkədəki rəqiblərini əvvəlcə idman arenalarında, sonra isə hərb meydanında məğlub edərək üstünlüklərini dönə-dönə sübuta yetirdilər.

* Azərbaycan həm də dünyada beynəlxalq idman yarışlarının keçirilməsini mükəmməl təşkil edən ölkə kimi tanındı.

Görülən işlər sayəsində ölkəmizdə idmanın hərtərəfli inkişafına hər cür şərait yaradılmış, qırxdan çox olimpiya idman kompleksi tikilərək gənclərin ixtiyarına verilmişdir.

*İdmançılarımız bu gün də bütün ranqlı yarışlardakı qələbələri ilə xalqımıza sevinc bəxş edirlər.*

❖ ❖ ❖

**İnsanların ilkin arzusu, ən çox istədikləri nədir?**

Demək olar ki, dünyanın hər yerində eynidir: normal yaşaması üçün ev, daimi iş, yaxşı qidalanmaq, geyinmək və gəzmək üçün vəsait, övladlarına təhsil vermək, xəstələnəndə müalicə almaq imkanı.

Fərdi istək və arzular müxtəlif ola bilər, yaşayışın isə ilkin şərtlərinin mövcudluğu zəruridir.

**Cənab İlham Əliyev Azərbaycana rəhbərliyə başlayanda hər bir azərbaycanlının bu təbii istəyindən başqa bir arzusu da vardı:**

**Torpaqların işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, qaçqın və məcburi köçkünlərin doğma el-obalarına qaytarılması.**

*Hər iki məqsədə çatmaq üçün bir yol vardı:*

** Ölkədə sabitliyi qoruyub saxlamaq;*

** İqtisadi inkişafı təmin etmək;*

** Qaçqın və məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq;*

** Milli birliyə nail olmaq;*

** Müstəqil daxili və xarici siyasət yürütmək;*

** Güclü ordu yaratmaq;*

** Beynəlxalq aləmdə fəal iş aparmaq;*

** Azərbaycanın dostlarının sayını artırmaq;*

** Demokratik, qüdrətli, müasir dövlət qurmaq!*

Bir-biri ilə bağlı olan çox çətin, mürəkkəb və xeyli zaman tələb edən məsələlər idi.

**İlham Əliyev problemlərin üzərinə getməyi, məqsədə çatmaq üçün yorulmadan, dayanmadan qətiyyətli mübarizə aparmağı sevən nadir siyasətçilərdəndir.**

Prezidentliyinin ilk günlərindən xalqa verdiyi vədlər ilk baxışdan sadə görünsə də, böyük qüvvə, vəsait və gərgin iş tələb edirdi:

Dövlət müstəqilliyini qoruyub saxlamaq, işğal altındakı torpaqları nəyin bahasına olursa-olsun azad etmək, məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq, günün bütün saatlarında ən ucqar yerlərdə belə elektrik enerjisinin mövcudluğunu təmin etmək, işsizliyi azaltmaq, yoxsulluq səviyyəsini aşağı endirmək...

Sözlə sadalananda hamının ürəyindən olan, vacib, gərəkli məsələlərtəki səslənir...

Deyilənləri əmələ çevirmək isə böyük vəsait, uzaqgörən siyasət, məqsədyönlü fəaliyyət, tükənməz enerji və işgüzarlıq tələb edirdi.

❖ ❖ ❖

Bu gün bəlkə də qəribə səslənir: elektrik enerjisinin fasilələrlə verilməsi, yaşayış məntəqələrinin qaranlığa qərq olması...

Amma həmin dövrdə Azərbaycan Rusiyadan təbii qaz da alırdı və hərdən bu amildən təzyiq vasitəsi kimi də istifadə edilirdi...

Enerjinin fasilələrlə verilməsi təkcə məişətdə çətinliklər yaratmırdı.

Artezian quyuları, suvuran nasoslar dayandığından suvarma işləri ləngiyir, kənd təsərrüfatında məhsuldarlıq aşağı düşür, müəyyən itkilər yaranırdı.

**İlham Əliyev imkan və vəsaitləri düzgün bölüşdürməyi, ilk növbədə və paralel şəkildə görüləcək işləri dəqiq müəyyənləşdirməyi, vaxtdan dolğun və səmərəli istifadəni bacardı.**

* Yol inftastrukturu təzələndi;

* Köhnə elektrik stansiyaları təmir olunaraq yeniləndi;

* Qaz istehsalı artırıldı;

* Məcburi köçkünlər üçün müasir, hər cür şəraiti olan yaşayış kompleksləri salındı;

* Yeni iş yerləri yaradıldı;

* Sahibkarlığın inkişafı üçün tədbirlər görüldü.

*Regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən və uğurla yerinə yetirilən dörd dövlət proqramı bu vəzifələrin ardıcıl və sistemli şəkildə icrasına şərait yaratdı.*

**"Azərbaycan 2020: İnkişafa doğru" konsepsiyası da uğurla yerinə yetirildi.**

**Beləliklə, həm müstəqil Azərbaycan sürətlə inkişaf edərək möhkəmləndi, həm də az bir müddətdə xalqın sosial rifahında nəzərəçarpacaq dönüş və yüksəliş baş verdi.**

❖ ❖ ❖

**İlham Əliyevin ən böyük uğurlarından biri neft kapitalını insan kapitalına çevirməsidir.**

Azərbaycanda gənclər siyasəti, gənclərə qayğı daim dövlət başçısının diqqətində olub.

*Əlbəttə, dövlətin varı təkcə onun təbii sərvətləri sayılmır.*

*Savadlı, ağıllı, müasir biliklərə yiyələnmiş, gərəkli ixtisaslara sahiblənmiş gənc mütəxəssislər də ölkəyə böyük fayda gətirən, onun gələcəyini təmin edən amillər sırasındadır.*

Bəli, Tanrı Azərbaycana neft-qaz sərvəti verib.

Gərəkli mütəxəssisləri, bilikli, vətənpərvər gəncləri isə özümüz yetişdirməliyik.

**Bu niyyətin uğurla gerçəkləşdirilməsi üçün dövlət başçısı cənab İlham Əliyev "neft kapitalını insan kapitalına çevirək" təşəbbüsünü irəli sürdü.**

Bu niyyətin gerçəkləşdirilməsi üçün hər il dövlət büdcəsindən kifayət qədər vəsait ayrılmasını təmin etdi.

Layihə əsasında hər il bilikli və istedadlı gənclər müəyyənləşdirilib seçilərək dünyanın ən tanınmış ali məktəblərində təhsil almaları maliyyələşdirilir.

Artıq bu üsulla xeyli sayda gərəkli ixtisaslar üzrə gənc kadrlar hazırlanmışdır.

**Bu həm də Ulu Öndər Heydər Əliyevin sovet dövründə mərkəzin hesabına Azərbaycan üçün nadir ixtisaslar üzrə kadr hazırlığının özünəməxsus şəkildə davamıdır.**

❖ ❖ ❖

**İnsana qayğı, milli-mənəvi dəyərlərə hörmət, tarixi abidələrin bərpası və qorunması Prezident İlham Əliyevin daxili siyasətinin tərkib hissəsidir.**

**Bu işdə Heydər Əliyev Fondu, onun prezidenti Mehriban xanım Əliyeva dövlətimizin və Prezidentimizin ən yaxın köməkçisidir.**

Məhz Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti sayəsində uşaq evləri və internat məktəblərinin təmiri və təchizatı, ailələr üçün böyük problemə çevrilən hemofiliya və talassemiya xəstəliklərinin müalicəsi məqsədilə yeni tibb müəssisələrinin yaradılması, müvafiq cihaz və avadanlıqlarla təmini, qocalar evinin əsaslı şəkildə yenidən qurulması, işğal bölgələrindəki tarixi, dini və mədəni abidələrin bərpası sahəsində misilsiz işlər görülmüşdür.

Hərbi əməliyyatlar zamanı yaralananların müalicəsi, əlillərin müasir protezlərlə təmini, reabilitasiyaya ehtiyacı olanların qardaş Türkiyəyə müalicəyə göndərilməsi, şəhid ailələrinə xüsusi diqqət və ehtiram, şəhid övladlarının, habelə valideyn himayəsindən məhrum gənclərin təhsil haqlarından azad edilməsi də dövlət qayğısının tərkib hissəsidir.

❖ ❖ ❖

**İlham Əliyev 20 illik prezidentliyi dövründə müəllifi olduğu "Azərbaycanın sürətli və davamlı inkişafı" konsepsiyasını uğurla yerinə yetirdi.**

Azərbaycan dayanmadan inkişaf etdi, qarşısındakı bütün hədəflərə çatdı:

* Tarixinin ən qüdrətli məqamına yüksəldi;

* Beynəlxalq nüfuzu artdı, Cənubi Qafqazın ən güclü dövləti oldu;

* Böyük İpək yolunu uğurla işə saldı, beynəlxalq logistika mərkəzi statusunu qazandı;

* İdman dövləti, beynəlxalq idman yarışlarının ən yüksək təşkilatçısı kimi tanındı;

* Dünyanın sanballı dövlətlərindən birinə, söz sahibinə çevrildi.

**Prezident İlham Əliyevin Azərbaycana 20 illik rəhbərliyinin ən yüksək zirvəsi və nəticəsi isə 44 günlük Zəfər müharibəsindəki qələbədir!**

Bu möhtəşəm qələbəni bütün dünya qəbul və etiraf etdi!

Xalqın uzun illər böyük həsrət və səbirsizliklə gözlədiyi gün gəlib çatdı!

Artıq Şərqi Zəngəzur və Qarabağ sürətlə tikilib qurulur, keçmiş məcburi köçkünlər böyük sevinc və fərəhlə doğma el-obaya qayıdırlar.

Bir neçə rəqəmə nəzər salaq:

Son 20 ildə:

* Ümumi daxili məhsul 4 dəfədən çox artıb!

* Xarici borc 10 faizdən aşağı salınıb!

* Yoxsulluq səviyyəsi 5,5 faizə endirilib!

* Hazırda Qarabağda və Şərqi Zəngəzurda hidroenerji potensialından maksimum səmərəli istifadə olunur!

* Artıq 170 meqavat gücündə hidroelektrik stansiyaları istifadəyə verilib, ilin sonuna bu rəqəm 270 meqavata çatdırılacaq!

* Külək Azərbaycanda, xüsusən Xəzərdə sərvətə çevrilib, elektrik enerjisi istehsalında "fəal iştirak" edir!

* Tezliklə Qara dənizin dibi ilə çəkiləcək xətt Azərbaycanın "yaşıl enerjisi"ni Avropaya çatdıracaq!

**İşğaldan azad edilən torpaqlar təkcə yaşayış məskənlərinə deyil, həm də istehsal sahələrinə çevrilir!**

❖ ❖ ❖

İlham Əliyev prezidentliyə başlayanda leksikonumuzda ən çox rast gələnən sözlər "məcburi köçkün", "işğal əraziləri", "təmas xətti", "düşmən tapdağında qalan torpaqlar", "sülh danışıqları" və digər ifadələr idi.

Zəfər müharibəsi bu sözləri arxaik ifadələrə çevirdi!

**İndi isə dünyada yaşayan hər bir azərbaycanlıda sonsuz qürur və iftixar hissi doğuran yeni ifadələr üstünlük təşkil edir: Müzəffər Ali Baş Komandan, qalib xalq, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonu, Füzuli Beynəlxalq Hava Limanı, "yeni köç qayıtdı", "keçmiş məcburi köçkünlərə yeni evlərin açarları təqdim olundu" və s. kimi ürəkaçan ifadələr tez-tez təkrar olunur.**

Artıq bütün dünya Xankəndi adını söyləməyi öyrəndi!

İlk dəfə cənab İlham Əliyev Şuşanı mədəniyyət mərkəzi elan etdi!

Dalbadal neçə ildir ki, Şuşa müxtəlif qurumlar tərəfindən dünyanın mədəniyyət paytaxtı elan edilərək burada ən möhtəşəm tədbirlər keçirilir.

*19-20 sentyabr 2023-cü ildə lokal antiterror tədbirləri uğurla başa çatdıqdan sonra isə bölgənin havası da tam təmizləndi.*

*İndi hamı Qarabağda saf və azadlıq ətirli hava ilə doyunca, ciyərdolusu nəfəs alır!*

❖ ❖ ❖

*Qarabağ problemi Azərbaycan xalqı üçün ümummilli problem idi.*

*Torpaqların erməni işğalından azad edilməsi hər bir azərbaycanlı üçün şərəf məsələsi idi!*

*Bunu yaşından, cinsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlı arzu edirdi!*

**Qarabağ məsələsi həm də milli qeyrət, milli nüfuz məsələsi idi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə torpaqlarımızı işğaldan azad etməklə, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Konstitusiya əsaslarını bərpa etməklə hər bir azərbaycanlının ən müqəddəs arzusunu yerinə yetirdi!**

* İlham Əliyev təkcə Azərbaycan deyil, dünya tarixinə də separatizmə hünər və qətiyyətlə son qoyan dövlət başçısı kimi düşdü!

* İlham Əliyev separatizmdən yaxa qurtarmağın yolunu göstərdi, modelini qurmuş oldu!

* İlham Əliyev bu savaşda təkcə vassal Ermənistana yox, onun havadarlarına, arxasında dayananlara, hər hansı formada müdafiəsinə kömək edənlərə də qalib gəldi!

**Müharibə hərb meydanında bitsə də, siyasi və diplomatik müstəvidə davam edir.**

**İlham Əliyev bu gün siyasət meydanında da bütün rəqiblərinin, bədxahlarımızın öhdəsindən məharətlə gəlir!**

*Bunu bütün dünya görür, bilir!*

**Bu qələbəsi sayəsində İlham Əliyev dünyanın ən hörmətli və nüfuzlu dövlət başçılarından biridir!**

**Bu qələbəsi ilə İlham Əliyev dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının sevgi və qürur ünvanıdır!**

Xalqımızın indiyədək görünməmiş milli birliyinə nail olan İlham Əliyev hər bir Azərbaycan vətəndaşının dərin hörmət və məhəbbətini qazanıb!

Onun "Qarabağ Azərbaycandır!" çağırışı ümummilli ideyaya, birləşdirici motivə çevrilib.

*Xalq bu gün də sevimli rəhbərinin, dünyaşöhrətli liderinin yanındadır.*

*Onunla birlikdə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirərək doğma el-obaya qayıdışa dəstək verir!*

**İlham Əliyev Qarabağı və Şərqi Zəngəzuru azad edərək hər birimizin arzusunu reallaşdırmaqla öz xalqına olan sonsuz sevgisini də ifadə etdi!**

**Azərbaycan xalqı da ona hörmət, şərəf, nüfuz gətirən, qalib millətə çevirən rəhbərini sonsuz məhəbbətlə sevdiyini gündəlik əməli işində göstərir!**

QARABAĞ AZƏRBAYCANDIR!

**Bəxtiyar SADIQOV**

"İlham Əliyevlə davam edən inkişafla Azərbaycan bölgədə cazibə mərkəzinə çevrilib... Azərbaycanın əmin-amanlığı, rifahı və gələcək nəsillər üçün çəkdiyi dəyərli zəhmət bütün türk dünyası tərəfindən böyük maraq və sevinc hissi ilə izlənir və örnək kimi qəbul edilir".

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Prezidenti***

"Onun həyatının əsas məqsədi öz ölkəsini, Azərbaycan xalqını xoşbəxt görməkdir".

***Vladimir PUTİN,***
***Rusiya Prezidenti***

"İlham Əliyev Avropada çox məşhurlaşıb. Bilmirəm o, nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim".

***Aleksandar VUÇİÇ,***
***Serbiya Prezidenti***

"İlham Əliyev Avropada ən çox arzuolunan şəxsdir".

***Stevo PENDAROVSKİ,***
***Şimali Makedoniyanın Prezidenti***

"Bu gün Qərb liderləri Azərbaycan Prezidenti ilə şəkil çəkdirmək üçün Bakıya can atırlar".

***Peter SİYARTO,***
***Macarıstanın XİN rəhbəri***

# Dünyanın örnək aldığı QLOBAL LİDER



**Dünya liderlərinin, tanınmış ictimai-siyasi xadimlərin bu cür dəyərli fikirlərinin sayını dəfələrlə artırmaq olar. Səslənən bütün səmimi fikirlərdə Azərbaycan Prezidentinin şəxsi keyfiyyətləri, prinsipial mövqeyi və qlobal liderliyini şərtləndirən xarakterik məqamlar şərh edilir. Bütün bunlar cənab İlham Əliyevin şəxsiyyətinə və fəaliyyətinə ölkə hüdudlarından kənarda da necə böyük dəyər verildiyini təsdiqləyən reallıqdır.**

## Sözü imzası qədər keçərli, etibarlı tərəfdaş

Etiraf edək ki, Prezident İlham Əliyevdə olan bu və digər yüksək keyfiyyətlər heç də hər siyasətçiyə qismət olmur. Azərbaycan dövlətinin bu mənada da bəxti gətirib ki, İlham Əliyev kimi sözü imzası qədər keçərli siyasətçi onun lideridir.

Cənab İlham Əliyev haqqında səslənən çox yüksək fikirlər, obyektiv etiraflar Azərbaycan Prezidentinin həm də qlobal miqyaslı lider olduğunu təsdiqləyir. Reallıq budur ki, bir vaxtlar Azərbaycan haqqında arzuolunmaz fikirlər səsləndirən, ölkəmizə qarşı aparılan çirkin kampaniyaların tərkib hissəsi olan, müxtəlif təzyiq üsullarına əl atan bəzi Qərb dövlətləri və onların liderləri də indi cənab İlham Əliyevə böyük etimad göstərirlər. Onunla şəkil çəkdirmək üçün növbəyə dururlar.

Məhz cənab İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmizin 2012-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir.

Qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan deyir ki, möhtərəm İlham Əliyevin Azərbaycanın əmin-amanlığı, rifahı və gələcək nəsillər üçün çəkdiyi dəyərli zəhmət bütün türk dünyası tərəfindən böyük maraq və sevinc hissi ilə izlənir və örnək kimi qəbul edilir. Həqiqətən də, Azərbaycan Prezidenti tam müstəqil siyasəti, qətiyyətli qərarları, etibarlı tərəfdaşlığı ilə bu gün türk dünyasının, türkdilli dövlətlərin daha sıx birləşməsi, vahid mərkəzə çevrilməsi üçün çox dəyərli töhfələr verir.

Prezident İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Bununla yanaşı, cənab İlham Əliyevin müəllifi və təşəbbüskarı olduğu enerji layihələri Azərbaycanı Avropanın ən etibarlı enerji təminatçısına çevirib.

Həqiqətən də, cənab İlham Əliyevlə davam edən inkişaf Azərbaycanı bölgədə cazibə mərkəzinə çevirib. Ölkəmizin nüfuzu getdikcə artır, eyni zamanda Azərbaycana olan etimad gündən-günə yüksəlir. BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatına uğurlu sədrlik bu etimadı daha da artırıb. Məhz bunun nəticəsidir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib. Bu, Qoşulmama Hərəkatına sədrliyimizdən və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur.

Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan Cənubi Qafqazdakı hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

Bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

## 20 ilin misilsiz uğurları

Bütün bu uğurlar son 30 ildə əldə edilib. Əgər Ulu Öndər Heydər Əliyev xilaskar lider kimi ölkəmizi məhv olmaq, müstəqilliyini itirmək təhlükəsindən qurtararaq yeni inkişaf mərhələsinə çıxardısa, cənab İlham Əliyev dünyaşöhrətli liderin müəyyənləşdirdiyi yüksəliş konsepsiyasını uğurla icra edərək tarixinin ən qüdrətli Azərbaycanını yaratdı. 2003-cü ildə Ulu Öndərin xalqa müraciətindən sonra cənab İlham Əliyevə verilən etimad mandatı Azərbaycanın tarixində ən böyük zəfərlərin qazanılmasını şərtləndirdi.

31 oktyabr 2003-cü il tarixdə əlini "Qurani-Kərim"ə basaraq and içən cənab İlham Əliyevin 20 ildə gerçəkləşdirmədiyi vədi qalmadı. Əlbəttə ki, yeni əsrin yeni liderinin qazandığı uğurlar təkcə gerçəkləşdirilən vədlərdən ibarət deyildir. Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan bu dövrdə Azərbaycan misilsiz inkişaf yolu keçdi. Bu uğurlara nəzər salsaq, görərik ki, Azərbaycanın 20 ildə əldə etdiyi nailiyyətləri bəzi dövlətlər 100 illik tarixlərində qazanmayıblar.

Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı ortagəlirli ölkələr qrupuna daxil olub, 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard dollara çatıb, ÜDM-in real həcmi 4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə yüksəlib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata qalxıb. Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard dollara yüksəlib. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb.

Strateji valyuta ehtiyatları 1,4 milyard ABŞ dollarından 66,1 milyard dollara yüksəlib. 20 ildə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. Dövlət proqramları əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyarddan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Ötən müddət ərzində 60-dan çox yeni elektrik stansiyası istismara verilib, regionlarda qazlaşdırmanın səviyyəsi 94 faizi ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9 faizdən 73 faizə çatıb. Ötən müddət ərzində böyük qismi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 450-dən çox uşaq bağçası, 760-a yaxın tibb müəssisəsi, 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi inşa edilib.

Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 12 milyard manatdan artıq vəsait ayrılıb. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalar son 20 il ərzində 35,8 dəfə artıb.

## Qlobal layihələr, tarixi rekordlar, kosmos ailəsinin üzvü

Azərbaycan həyata keçirdiyi beynəlxalq enerji layihələri ilə Avropanın enerji təminatında açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunur. Bu, ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi layihələrlə Azərbaycan Avropanın enerji xəritəsini tamamilə dəyişib. Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb.

2018-ci ildə fəaliyyətə başlayan "Cənub qaz dəhlizi"nin əsas məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi zamanı hasil edilən təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdədir.

5 il öncə fəaliyyətə başlayan "Cənub qaz dəhlizi" dekabrın 10-da açılış mərasimi olan Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun və digər bu kimi layihələrin icrası üçün real imkanlar yaradır. Bu gün Azərbaycan dövləti Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Rumıniyaya qaz ixrac edir. Həmçinin ölkəmiz Macarıstan və Serbiya ilə müqavilələr imzalayıb. Bununla yanaşı, Albaniya da Azərbaycaın qazının paylanılmasına dair planlara daxildir. Hazırda Azərbaycan təbii qazını 9 ölkəyə ixrac edir.

2021-ci ildə Azərbaycan Avropa məkanına 8 milyard kubmetrdən bir qədər çox, 2022-ci ildə 11,4 milyard kubmetr qaz ixrac edib. 2023-cü ildə bu həcmin 12 milyard kubmetrdən çox olacağı gözlənilir. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir. Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmağı nəzərdə tutur.

Azərbaycanın hədəfi bərpaolunan enerji növləri ilə bağlıdır və 10 qiqavat bərpaolunan enerji növlərinin yaradılması ilə bağlı ölkəmiz investorlarla sazişlər və anlaşma memorandumları imzalayıb.

Bu il regionun ən böyük - 230 meqavat gücündə olan və xarici investorlar tərəfindən tam maliyyələşdirilmiş günəş-elektrik stansiyasının açılışı olub. Növbəti 5-6 ildə Azərbaycan 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal etməyi planlaşdırır. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcək. Bununla yanaşı, Avropa istehlakçıları da "yaşıl enerji" ilə təmin ediləcəklər.

Ölkənin iqtisadi qüdrəti və yeni texnologiyaların təşviqi sahəsində əldə olunan uğurlar nəticəsində Azərbaycan 2013-cü ildə ilk süni peykini orbitə çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilib. 2013-cü ildə "Azerspace-1" telekommunikasiya, 2014-cü ildə "Azersky" Yerin məsafədən müşahidəsi, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb.

Bütün bu möhtəşəm uğurlar məhz cənab İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasının bəhrəsidir.

## Şərəfli missiya, Zəfərə aparan yol, suverenliyin tam təminatı

Azərbaycanı dünyanın qüdrətli dövlətlərindən birinə çevirən Prezident İlham Əliyev 2003-cü ildə xalqına verdiyi ən son vədi - işğal altında olan torpaqları düşmən tapdağından azad edərək adını tariximizə həm də Müzəffər Sərkərdə kimi yazdırdı. Ulu Öndər Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri cənab İlham Əliyev başa çatdırdı və Azərbaycanın tam suverenliyini təmin edən zəfərlərlə dünyaya gücünü, qüdrətini göstərdi.

Əlbəttə ki, xalqımızın ən böyük problemi keçmiş Dağlıq Qarabağ münaqişəsi idi. Bu problemin sülh yolu ilə həlli məsələsi Prezident İlham Əliyevin yürütdüyü siyasətin prioriteti idi. Bütün beynəlxalq konfranslarda Azərbaycan həqiqətlərini dünyaya bəyan edən qətiyyətli Prezidentimiz Ermənistanın işğalçı dövlət kimi tanınmasına müvəffəq oldu. Bununla bağlı qətnamələr, qərarlar qəbul edildi. Amma həmin sənədlər uzun illər kağız üzərində qaldı, icrası təmin edilmədi. İşğalçı Ermənistan isə bu cəzasızlıq mühitindən lazımınca yararlanır və hətta elə zənn edirdi ki, Azərbaycan mövcud vəziyyətlə həmişəlik barışıb. Lakin zaman yetişdi və möhtərəm Prezidentimiz bütün sözlərinə sadiq lider kimi 2003-cü ildə xalqa verdiyi vədini də gerçəkləşdirdi. 2020-ci ildə düşmənin işğalçılıq siyasətinə son qoyan Zəfər yürüşümüz dünyaya səs saldı.

Heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca "nəyi nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidentinin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmadı, sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı oldu və 2023-cü il sentyabrın 20-də öz məntiqi sonluğuna çatdı. Bütün təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək Xankəndidə Azərbaycanın Dövlət Bayrağının asılacağı günü yaxınlaşdırdı.

2023-cü il sentyabrın 19-20-də cəmi 23 saat ərzində keçmiş qondarma rejimin silahlı dəstələrinin antiterror tədbirləri ilə zərərsizləşdirilməsi, Qarabağdakı cinayətkar rejimin özünü buraxması, oktyabrın 15-də isə Xankəndidə, Xocavənd şəhərində, Xocalıda, Ağdərədə Azərbaycan bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibə və 8 Noyabr - Zəfər Gününə bərabər növbəti parlaq Qələbə oldu. 2023-cü ilin sentyabrında əldə olunan Qələbə siyasi və mənəvi əhəmiyyətinə görə Zəfər Gününə bərabər və onu tamamlayan tarixi hadisə kimi yaddaşlara yazıldı.

Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibədən sonrakı 3 il ərzində tarixi əhəmiyyət kəsb edən bir proses reallaşdırdı və üzərinə götürdüyü missiyanı başa çatdırdı. Bununla da cənab İlham Əliyev 200 illik erməni xülyasının üzərindən birdəfəlik xətt çəkdi.

## Ən sadiq silahdaş, Böyük qayıdışın təntənəsi

Bu bir həqiqətdir ki, son 20 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, qazanılan böyük Zəfərin, uğurlu daxili və xarici siyasətin ən böyük dəstəkçisi Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Məhz əldə olunan uğurlarda ölkənin birinci xanımının əvəzsiz xidmətləri var. Mehriban xanım Əliyevanın dövlət başçısının ən sadiq silahdaşı kimi göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir.

Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın gördüyü işləri təhlil etsək, əminliklə deyə bilərik ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Vətən müharibəsi dövründə ölkənin birinci xanımının atdığı addımlar isə hər kəsi qürurlandırdı. Mehriban Əliyeva həmin dövrdə şəhid analarına mənəvi dəstək verdi, dərdlərinə şərik oldu, şəhid ailələrini ailəsi bildi. Qarabağ müharibəsində əlil olan oğullara "qardaş" dedi, övladlarının yoxluğuna inanmayan, gözü yolda qalan anaları bağrına basdı, onlara "ana" dedi, qarşılarında baş əydi.

Həm Vətən müharibəsi, həm də ondan sonrakı tarixi mərhələlərdə Mehriban Əliyeva Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı olaraq Ermənistanın insanlıq əleyhinə olan hərbi cinayətləri ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyətə müraciətlər etdi.

Bu gün işğaldan azad edilən torpaqlarımızda aparılan tikinti-quruculuq işlərinə onun rəhbərlik etdiyi, Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu mühüm töhfələr verir. Üç ildir ki, minlərlə abidəyə yeni nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırır. Qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ və Şərqi Zəngəzur torpaqlarında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

Xalqımız, dövlətimiz bütün dövrlərdə Böyük Zəfərin təminatçıları, torpaqlarımızın azadlığını qanları bahasına təmin edən şəhidlərimizin xatirəsini hər zaman uca tutub ehtiramla yad edir, onların ailələrinə xüsusi qayğı göstərir. Cəmiyyətimizdə şəhidlərin yeri ən ali məqamdadır. Həm dövlətimiz, həm də cəmiyyətimiz onlara layiq olduqları qiyməti verir. İstər şəhid ailələri, istərsə də qazilər və veteranlar hərtərəfli dövlət qayğıları ilə əhatə olunublar.

Bütün bunlar bir daha təsdiq edir ki, dünyada Azərbaycan dövləti qədər şəhidlərinə ali dəyər verən, onların ailələrinə hərtərəfli kömək göstərən ölkə yoxdur. Bu istiqamətdə dövlətimiz bir nümunədir.

Bir sözlə, tarixi Zəfər və Böyük qayıdış hərəkatı Prezident İlham Əliyev erasının zirvəsidir. Bununla belə Şanlı Zəfərimizdən sonra yaranan yeni reallıqlar və görülən işlər onu deməyə əsas verir ki, qarşıda Azərbaycanı daha möhtəşəm zəfərlər gözləyir. Azərbaycanın sözün əsl mənasında tam suverenliyini təmin edən möhtərəm Prezidentimiz xalqına verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirib. Qədirbilən xalqımız hər zaman öz Prezidentinə inanıb, güvənib və bütün dövrlərdə dövlət başçısına öz dəstəyini nümayiş etdirib. Bu cür qarşılıqlı inam şəraitində qətiyyətli Liderimiz hələ uzun illər Azərbaycanı daha yüksək zirvələrə və böyük qələbələrə aparacaq.

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Tariximizin qızıl dövrü




Böyük şəxsiyyətlərin, həyatını vətəninin və xalqının xoşbəxtliyi, işıqlı gələcəyi üçün mübarizələrə sərf edən hər bir insanın doğum günü unudulmaz tarixdir. Çünki həmin gün sonrakı illəri mənalandıran, insanlığı ucaldan, xalqa, dövlətə qələbələr, xoş günlər bəxş edəcək bir səhifədir və bu səhifələr yeni nizamda, yeni ruhda yazıldıqca ömrə səadət, nəslə şan-şöhrət, xalqa, dövlətə şərafət bəxş edir.

Ulu Öndərimiz Heydər Əliyev xatırladırdı: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər". Bu ifadələrin müəllifinin özünün həyatı, fəaliyyəti məhz bu baxımdan nümunədir və o, xalqının varlığını, tarixini, dilini, dinini, milli-mənəvi dəyərlərini yaşatmaq, dünyaya sübut etmək, çatdırmaq üçün həyatını əsirgəmədi. Buna görə də Ümummilli Liderimizin doğum günü nəinki xalqımız, dünyanın sülhsevər dövlətləri, türk dünyası tərəfindən ehtiramla qeyd edilir. Çünki Ulu Tanrı Heydər Əliyevi Azərbaycana xilaskar bir varlıq, uzaqgörən rəhbər, sədaqətli vətəndaş, mehriban insan kimi bəxş etməsəydi və belə müqəddəs bir ailədə İlham Əliyev kimi bir insan dünyaya gəlməsəydi, böyüyüb boya-başa çatıb ölkə Prezidenti, Ali Baş Komandan səviyyəsinə yüksəlməsəydi, Azərbaycanın bu günündən, həm də gələcəyindən danışmaq mümkün deyildi.

Heydər Əliyev kimi, İlham Əliyevin də anadan olduğu gün xalqımızın şərəfli tarixidir. Bu tarix mənalı, dəyərli olduğu qədər də çətinliklərlə, ağrı-acılarla doludur.

Bu tarixin iki səhifəsinə nəzər salaq: Cənab İlham Əliyev 50 yaşını Ağcabədidə - Laçın köçkünlərinin məskunlaşdığı qəsəbədə qeyd etdi. İnsanlara yeni evlər verdi, onların təkliflərini, arzularını dinlədi, dərdlərini bölüşdü. Hiss olunurdu ki, Prezidentimiz narahatdır, bir gözü gülsə də, bir gözündən də kədər, qüssə duyulurdu. Çünki torpaqlarımız işğal altında idi, düşmən Laçında at oynadırdı, meydan oxuyurdu. Ölkə rəhbəri isə Laçından uzaqlarda onun sakinlərinə təskinlik verir, Laçının mütləq geri qayıdacağını vəd edir, gənclərin, qocaların ruhunu dindirir, dərdlərinə məlhəm qoyurdu. Dövlət başçısı ad gününü laçınlılarla bir yerdə keçirməkdən, onları dinləməkdən məmnun olduğunu bildirməklə bərabər, görüş zamanı öz sözü, inamı ilə köçkün ailələrinin qəlbində bir ümid çırağı yandırırdı. Laçın rayonunun tanınmış ağsaqqalı Cənnət kişi həmin anları dəfələrlə xatırlayaraq söyləyirdi: "Cənab Prezidentin doğum günündə mənə qonaq olması, vəziyyətimdən hal-əhval tutması, inamlı kəlmələri, torpaqlarımızın mütləq qaytarılacağı haqqında ümidverici sözləri heç vaxt unudulan deyil və həmin an mən özümü doğma Laçında, od-ocağımda hiss etdim. İlham Əliyev çox qətiyyətli idi, özünə güvənirdi və xalqına arxalandığını söyləyirdi. O vaxt mən qəti şəkildə inandım ki, Laçın mütləq düşməndən azad ediləcək və biz öz ata-baba torpaqlarımıza qayıdacayıq". Cənnət kişiyə Laçına getmək qismət olmasa da, onun nəvələri, oğlu, qızı o torpağın nəfəsini duyur, yurdlarını ziyarət edir, ağsaqqallarının ruhunu sevindirirlər.

Ölkə rəhbəri o vaxt elə belə vəd verməmişdi. O, özünün dediyi kimi, nəyi nə vaxt, necə edəcəyini yaxşı bilirdi və öz gücünə, qüdrətinə, düşünülmüş planlarının yerinə yetiriləcəyinə inanırdı. Cənab İlham Əliyev 60 yaşını doğma Şuşamızda - düşmən tərəfindən dağıdılan və uzun illər yağıların əzablarına qatlaşan, igid əsgər və zabitlərimizin unudulmaz qəhrəmanlığı sayəsində azad edilən tarixi torpağımızda, möhtəşəm qalamızda qeyd etdi.

Prezidentimiz həmin gün dünyanın ən xoşbəxt insanı, dövlət rəhbəri, Ali Baş Komandanı təsiri bağışlayırdı və bu, qürurverici idi. Çünki dövlət başçısı ən müqəddəs bir vəzifəni, borcu yerinə yetirmişdi O, on milyondan çox əhalisi olan Azərbaycana yeni bir həyat, vətəndaşlara qürur, şan-şöhrət, bəxtiyarlıq bəxş etmişdi.

İlham Əliyev öz hünəri, cəsarəti, uzaqgörənliyi ilə düşməni, faşistlərə havadarlıq edənləri mat qoymuş, türk dünyasına misilsiz qəhrəmanlıq nümayiş etdirmişdi. O, atasının - Ümummilli Liderimizin vəsiyyətinə əməl etmiş, xalqı qarşısında ən müqəddəs vəzifəni yerinə yetirmişdi.

Prezidentin builki ad günü əlamətdar dövrə təsadüf edir. 2023-cü il İlham Əliyev və bütün Azərbaycan xalqı, türk dünyası üçün əziz və müqəddəs olan bir insanın, dahi şəxsiyyətin - Heydər Əliyevin yüzilliyi - "Heydər Əliyev İli"dir. Bu il cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başlamasının 20 illiyidir. Torpaqlarımızdan erməni separatçılarının ayağının kəsilməsi, suverenliyimizin tam bərpa olunması, Xankəndidə, Xocavənddə, Ağdərədə, Xocalıda bayrağımızın ucaldılması ilidir. Bu il Zəfərimizin zirvəsi, qələbəmizin parlaq təntənəsi ilidir.

Azərbaycan xalqı öz Prezidentinin uzaqgörən siyasəti, qətiyyəti sayəsində nəinki döyüş meydanında, eləcə də beynəlxalq aləmdə, dünya ölkələri ilə əməkdaşlığın möhkəmlənməsində, iqtisadiyyatın inkişafında, sosial rifahın yaxşılaşdırılmasında, sülhün, əmin-amanlığın möhkəmləndirilməsində, ölkədə ictimai-siyasi sabitliyin yaradılmasında, vətəndaş həmrəyliyinin təmin edilməsində böyük uğurlara imza atıb. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 20 ildə Azərbaycan iqtisadiyyatı 4 dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfədən, valyuta ehtiyatımız 37 dəfədən çox artıb. Sosial sahədə çox mühüm dövlət proqramları, əhəmiyyətli layihələr həyata keçirilib. İşsizlik 55 faizdən 5 faizə enib. Minimum pensiyalar 14, orta aylıq pensiyalar 18, yaşa görə orta aylıq pensiyalar 19, əlilliyə görə orta aylıq pensiyalar 14, ailə başçısını itirməyə görə orta aylıq pensiyalar 19 dəfə artıb. 4 milyondan çox vətəndaşı əhatə edən sosial islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin məbləği 7 milyard manata yaxındır. Ölkədə 3250-dən çox məktəb, 800-ə yaxın səhiyyə müəssisəsi, çoxsaylı idman-olimpiya mərkəzləri, ictimai və yaşayış binaları, mədəniyyət ocaqları tikilib istifadəyə verilib. 21 min kilometr yol çəkilib. Regionların sosial-iqtisadi inkişafına dair 4 dövlət proqramı uğurla həyata keçirilib. İşğaldan azad olunmuş ərazilərin bərpasına 12 milyard vəsait sərf edilib və bu ərazilərdə möhtəşəm tikinti, bərpa, təmir, abadlıq işləri uğurla davam etdirilir.

Azərbaycan beynəlxalq aləmdə söz sahibinə çevrilib. Prezident bir çox beynəlxalq təşkilata rəhbərlik edir. Avropanın enerji təhlükəsizliyinə töhfələr verən, nəqliyyat infrastrukturunu ildən-ilə genişləndirən, alternativ enerji ehtiyatları yaradan ölkəmiz dünya ölkələri arasında önəmli yer tutması ilə seçilir.

Azərbaycan xalqına isə hörmətli Prezidentimizə, mətanətli Ali Baş Komandanımıza cansağlığı, fəaliyyətində uğurlar, daha böyük qələbələr arzulamaq qalır. Əminik ki, xalqımız, türk dünyası, sülhsevər bəşəriyyət, dünyanı azad, insanları xoşbəxt, gələcəyimizi işıqlı görmək istəyən hər bir kəs bizim təbriklərimizə qoşulmaq arzusundadır və ürəkdən gələn bir səslə demək istəyir: Cənab İlham Əliyev, ad gününüz mübarək! Allah Sizi qorusun!

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Etibarlı gələcəyimizin və güclü dövlətçiliyimizin təminatı olan siyasi kurs

Tarixinin ən güclü Azərbaycanı, torpaqlarını döyüş yolu ilə işğaldan azad edən dövlət, regionda və dünyada söz sahibi… Olduqca qürurvericidir ki, bu gün vətənimiz haqqında söz açanda, keçdiyimiz inkişaf yollarına nəzər salanda ilk növbədə məhz belə ifadələrdən istifadə edirik. Ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan elə bir inkişaf səviyyəsinə yüksəlib, elə bir qüdrətli dövlətə çevrilib ki, elə möhtəşəm uğurlara imza atıb ki, buna görə ölkəmizə yalnız həsəd aparmaq olar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını ucaltmasını hər birimiz böyük fəxrlə, qürurla izlədik. Həmin vaxt çıxışında cənab Prezident demişdi: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Geridə qoyduğumuz 20 ildə xalqımız Prezident İlham Əliyevdən yalnız və yalnız dövlətə və xalqa xidmətin ən möhtəşəm nümunələrini görüb. Hər bir azərbaycanlı cənab İlham Əliyevin qətiyyətli, cəsarətli və müstəqil siyasətinə, respublikamızı inkişaf etdirmək siyasətinə şahidlik edib. Və bu siyasət hər addımda ilk növbədə ölkəmizin milli maraqlarının təmin edilməsinə, Azərbaycan vətəndaşlarının mənafelərinin qorunmasına, onların rifahına və təhlükəsizliyinə xidmət edib. Bu siyasətin nəticəsi kimi böyük inkişaf yolu keçən, iqtisadiyyatını 4 dəfə böyüdən Azərbaycan həm makroiqtisadi göstəricilərinə, həm də qlobal nüfuzuna görə regionun aparıcı, söz sahibi olan dövlətidir. Prezident İlham Əliyev müdrikliyi, siyasi diplomatiyası ilə həyata vəsiqə alan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, o cümlədən "Cənub qaz dəhlizi" ölkəmizin beynəlxalq münasibətlərdəki mövqelərini gücləndirib, qlobal nüfuzunu artırıb.

Bütün bunları dəyərləndirən Azərbaycan xalqı hər zaman öz rəhbərinin ətrafında sıx səfərbər olub. Bütün seçkilərdə seçicilərin mütləq hissəsi cənab İlham Əliyevə etimad göstərib, Heydər Əliyev ideyalarının davam etdirilməsinə səs verib.

Torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsi dövlətimizin yeganə və ağrılı problemi idi. Hələ 20 il əvvəl ilk dəfə Azərbaycan Prezidenti kimi and içərkən cənab İlham Əliyev bəyan etmişdi ki, bizim səbrimiz də tükənməz deyildir və Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir.

Ötən 20 illik tariximizə nəzər salanda, bu dövrün proseslərini təhlil edəndə bir daha görürük ki, Prezident İlham Əliyev bu məqsədə çatmaq üçün nə qədər gərgin iş aparıb. Bu yolda cənab Prezident dünya erməniliyinin təzyiq və təhdidlərini qətiyyətlə dəf edib, torpaqlarımızda ikinci erməni dövləti yaratmaq kimi məkrli cəhdlərin qarşısını fədakarcasına alıb. Danışıqlar prosesində Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarına zidd olan bütün təklif və təşəbbüslərin qarşısını elə yerindəcə alıb.

Cənab Prezident bu illər ərzində ad günü zamanı adətən məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşüb, sosial obyektlərin açılışında iştirak edib. Belə görüşlərdə Prezidentin verdiyi mesajlar hər birimizin torpaqlarımızın işğaldan azad olunacağı ilə bağlı inamını daha da gücləndirirdi. Həm də cənab İlham Əliyev açıq şəkildə bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan güc yolu ilə ərazilərini işğaldan azad edəcək. Bunun üçün həyata keçirilən hərbi islahatlarla Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüş hazırlığı ən modern səviyyəyə çatdırıldı.

Beləliklə, Prezident İlham Əliyev nə demişdisə, necə demişdisə, elə də etdi. Dövlətimizin başçısı 2020-ci ildə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaqla böyük bir tarixi və şərəfli missiyanı yerinə yetirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev sərkərdə qətiyyəti ilə dövlətçilik tariximizin şərəf salnaməsini yaratdı.

Bu ilin sentyabr ayında Qarabağda erməni separatçılarının darmadağın edilməsi isə İlham Əliyev qətiyyətinin təntənəsinə çevrildi. Bu savaşda İlham Əliyev yalnız Ermənistanı məğlub etmədi. Müzəffər Ali Baş Komandanımız dünya erməniliyinə də qalib gəldi, ikili standartlardan çıxış edib erməni təəssübünü çəkən Fransanı məğlub etdi.

Bu gün cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə işğaldan azad edilmiş torpaqlarımız bərpa edilir, dövlətimiz bu ərazilərə yenidən həyat bəxş edir. İndiyədək 4 min nəfərdən artıq soydaşımızın doğma torpaqlarına dönüşü, bütün rayon mərkəzlərinin, onlarca kəndin bərpa edilməsi, yolların çəkilməsi, hava limanlarının, məktəblərin, uşaq bağçalarının, xəstəxanaların, elektrik yarımstansiyalarının, su-elektrik stansiyalarının inşası göstərir ki, Böyük qayıdış sürətlə reallaşır.

Prezident İlham Əliyev Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də himayədarıdır. Qürur hissi ilə deməliyəm ki, ötən 20 ildə Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində Azərbaycan Qızıl Aypara Cəmiyyəti böyük inkişaf yolu keçərək regionun ən güclü milli cəmiyyətlərindən birinə çevrilib. Bu illər ərzində əlamətdar tarixlərdə Prezident İlham Əliyevin cəmiyyətimizə təbriklər ünvanlaması fəaliyyətimizə verilən ali qiymətdir.

Qarşıdan növbədənkənar prezident seçkiləri gəlir. Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin dekabrın 15-də keçirilən genişləndirilmiş iclasında ölkə Prezidenti İlham Əliyevin bu seçkilərdə namizədliyi partiya tərəfindən irəli sürülüb. Bu qərar yalnız YAP üzvlərinin deyil, həm də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sıralarında birləşən 350 mindən artıq üzvümüzün, on minlərlə könüllümüzün istəklərinin təcəssümüdür. Onların hamısının yekdil mövqeyi belədir ki, Azərbaycan əldə etdiyi bu möhtəşəm uğurları davam etdirməli, möhkəmləndirməlidir. İlham Əliyevin rəhbərliyi Azərbaycanın inkişafı, güclü dövlət olması, milli maraqlarımızın təmin edilməsi, sabitlik, əmin-amanlıq deməkdir. İlham Əliyevin prezidentliyi və Heydər Əliyev ideyaları etibarlı gələcəyimiz deməkdir. Ona görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin dekabrın 21-də keçirilən növbədənkənar XXVI Baş Məclisinin iştirakçıları gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində ölkə Prezidenti, cəmiyyətimizin fəxri üzvü İlham Əliyevin namizədliyinin dəstəklənməsi ilə bağlı bəyanat qəbul ediblər. Bəyanatda deyildiyi kimi, biz bu dəfə də prezidentliyə namizəd, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü olan İlham Əliyevi müdafiə edirik, onunla bir yerdə olduğumuzu elan edirik. Azərbaycan ayparaçıları 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərində hər bir vətəndaşı fəal iştirak etməyə və məhz İlham Əliyevə səs verməyə çağırırlar.

Qarşıdan gələn prezident seçkiləri daşıdığı mənəvi dəyər baxımından indiyə qədər Azərbaycanda keçirilmiş bütün seçkilərdən fərqlənir. Ona görə ki, bu, 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycanın bütün ərazilərində keçirilən ilk seçki kimi tarixə düşəcək. Bu mənada Azərbaycan seçiciləri müstəqillik tarixində ilk dəfə olaraq seçkilərə qalib xalqın təmsilçiləri kimi qatılacaqlar.

Bütün bunlar qarşıdan gələn növbədənkənar prezident seçkilərinin nəticələrini müəyyənləşdirən mühüm amillərdir. Xalqımız hər zaman olduğu kimi, bu dəfə də müdrik seçimini edəcək, cənab İlham Əliyevin ətrafında səfərbər olaraq, inkişafa, rifaha və güclü dövlətçiliyə səs verəcək.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin çoxminli kollektivi olaraq cənab Prezidenti ad günü münasibətilə təbrik edirik və qarşıdan gələn növbədənkənar seçkilərdə də öz səsimizi Müzəffər Ali Baş Komandana verəcəyik. Azərbaycanı qələbədən-qələbəyə aparan milli lider İlham Əliyev bu seçkilərin də qalibi olmağa hamıdan çox layiqdir, bu, onun tam haqqıdır.

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Azərbaycan İlham Əliyevin liderliyi ilə şərəfli dövrünü yaşayır

Müxtəlif mənbələrdə və ictimai müzakirələrdə şəxsiyyətin tarixdəki rolu mövzusuna tez-tez rast gəlirik. Eyni zamanda tarixi qaynaqlardan və ya müxtəlif ölkələrdən nurlu şəxsiyyətlərə dair nümunələr gətirilir. Azərbaycan xalqı müstəsna şanslıdır ki, bizim öz nümunəmiz, daha doğrusu, tarixin parlaq şəxsiyyətlər yaratdığını göstərən nümunələr var.

Şəxsiyyət nə qədər parlaq və qeyri-adi fitri istedadlı olsa, tarixdə bir o qədər dərin iz buraxır. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev və onun siyasi varisi İlham Əliyev belə tarixi şəxsiyyətlərdirlər. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ötən 20 il ərzində ölkəmiz davamlı olaraq inkişaf edib, güclənib, regionda güc mərkəzinə çevrilib. Qazanılan uğurlar, torpaqlarımızın işğaldan azad olunması isə regionda yeni vəziyyət yaradıb. Bu amil Azərbaycanın beynəlxalq aləmdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirir. Əminliklə demək olar ki, Ümummilli Lider Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli dövrünü yaşayır.

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin yüksək səviyyədə qorunmasına xidmət etdi. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınıb. Prezident İlham Əliyev beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bildiyi üçün islamofob dairələrin və antiazərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozdu.

Cənab Prezidentin 20 illik fəaliyyəti dövründə bütün sahələrdə olduğu kimi, beynəlxalq müstəvidə də uğurlu siyasət həyata keçirilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və suveren aktoruna çevrilib. Həyata keçirilən praqmatik xarici siyasət strategiyası ölkəmizə beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən milli dövlət kimi etibarlı strateji tərəfdaş imici qazandırıb.

Ümumiyyətlə, ötən 20 il ərzində xarici siyasət sahəsində möhtəşəm nailiyyətlərə imza atıldı. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, dünyada beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bundan əlavə, neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verdi. Artıq bu layihələr reallığa çevrilib. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan dövlətə çevrildi.

Torpaqlarımız işğaldan azad olunub, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edilib. Dövlətimizin şanlı Qələbəsini şərtləndirən bir sıra mühüm amillər var. Belə ki, son 20 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşmış, vacib beynəlxalq sənədlər qəbul olunmuşdu. Təbii ki, bu məsələdə dövlətimizin başçısının bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini, Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin tarixi faktlara və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırması mühüm rol oynayıb. Eyni zamanda 44 günlük müharibə günlərində dünyanın nüfuzlu KİV-lərinə müsahibələr verən Prezident İlham Əliyev həm işğalçı Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməllərini bütün dünyaya bir daha çatdırdı.

Azərbaycan dövlətinin başçısı informasiya müharibəsində ön planda olub, bəzən ən çətin suallara əsaslandırılmış və qəti şəkildə necə cavab verməyi öz nümunəsi ilə nümayiş etdirdi. 44 günlük müharibə zamanı Prezident İlham Əliyevin nüfuzlu dünya mətbuatına müsahibələr verərək həm təcavüzkar Ermənistanın, həm də bu ölkənin xarici havadarlarının əməlləri ilə bağlı həqiqətləri üzə çıxardığını xatırlamaq kifayətdir.

Digər vacib bir məqam isə ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar hesabına Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması üçün ötən 20 ildə atılan davamlı addımlarla bağlıdır. 20 il ərzində Azərbaycan münaqişənin həlli istiqamətində siyasi müstəvidə fəallıq göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi, hərbi gücünün artırılması istiqamətində də məqsədyönlü iş aparıb. Həyata keçirilən islahatlar respublikamızı güclü iqtisadi dayaqlara malik ölkəyə çevirib.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə layiqli cavab verməsi ilə başlanan 44 günlük Vətən müharibəsində ölkəmizin tarixi qələbəsi torpaqlarımızın azad olunması uğrunda çoxillik fəaliyyətin qanunauyğun nəticəsi oldu. Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində bu il sentyabrın 19-20-də Azərbaycanın Qarabağ bölgəsində 23 saatlıq lokal antiterror əməliyyatı isə suverenliyin, ölkəmizin konstitusiya quruluşunun tam bərpasını təmin etdi, respublika ərazisində separatizmə birdəfəlik son qoyuldu. Bəzi xarici ölkələr, beynəlxalq təşkilatlar, siyasi dairələr iddia edirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Lakin Prezident İlham Əliyev "dəmir yumruq" əməliyyatı ilə sübut etdi ki, münaqişənin hərbi həlli var. Nəticədə ölkəmiz BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı dörd qətnaməsini özü icra etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə mövqeləri güclənib və bundan sonrakı mərhələdə bu mövqe daha da möhkəmlənəcək.

Şübhəsiz ki, qarşıdakı dövrdə də Prezident İlham Əliyevin liderliyi ilə ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan bütün sahələrdə daha möhtəşəm, əzəmətli nailiyyətlər qazanacaq. Ölkəmiz regionda yeni reallıqlar yaradıb və bu reallıqların praktiki mərhələyə keçməsi üçün əməli addımlar atır. Yeni reallıqlar isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın daha böyük, möhtəşəm nailiyyətlər əldə etməsinə hədəflənib.

Biz Azərbaycanın memarları - dahi övladları Heydər və İlham Əliyevlər olan bir ölkədə yaşamaqdan qürur duyur və əminik ki, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da böyük qələbələr qazanacaq və yeni-yeni zəfərlər əldə edəcək!

**Sevinc FƏTƏLİYEVA,**
***Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini***

# Azərbaycan xalqı zəfər yolunda inamla və ilhamla addımlayır

Bu gün Müzəffər Ali Baş Komandanın, Azərbaycan torpaqlarını işğaldan azad edən, milli qürurunu xalqa qaytaran Liderin ad günüdür. Prezident İlham Əliyev tariximizin Qalib Dövlət salnaməsinin müəllifidir.

Müasir Azərbaycanın qazandığı uğurlar, qələbələr, zəfərlər Prezident İlham Əliyevin ali dövlət xidmətinin tarixi nailiyyətləridir.

Prezident İlham Əliyevin şəxsi nüfuzu ölkəmizin bütün beynəlxalq arenalarda mövqeyini daha da möhkəmləndirib, Azərbaycanın milli maraqlarının müdafiə olunmasını mümkün edib.

Əminliklə söyləmək olar ki, Azərbaycan dövləti heç zaman olmadığı qədər güclüdür. Qazanılmış qələbə həm də ötən dövrdə həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Prezident xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmiz hər sahədə sürətli inkişafa nail olub, insanların rifah halı daha da yaxşılaşıb.

Ali Baş Komandanın qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşına başlayan Azərbaycan Ordusu dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın azadlığı tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi. 2023-cü ildə isə keçirilən lokal antiterror əməliyyatları ilə Azərbaycan ərazisində separatizmin kökü tamamilə kəsildi, suverenliyi tam bərpa edildi.

Prezident İlham Əliyevin hazırda apardığı fəal xarici siyasət və diplomatik səylər Azərbaycanın həm Qərbdə, həm də Şərqdə mövqeyini gücləndirməklə ölkəmizi yeni yaranmaqda olan dünya düzənində fəal aktora çevirib.

Azərbaycan beynəlxalq təşkilatlara, hərəkatlara uğurlu sədrlik etmək modelini formalaşdırıb. Qoşulmama Hərəkatının sədri, BMT TŞ-nin qeyri-daimi üzvü kimi Azərbaycan beynəlxalq məsələlərin həllinə ciddi töhfə verib. Xüsusilə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan təşkilatın nüfuzunun, təsir gücünün artırılmasında birbaşa rol oynayıb. Bakı və digər şəhərlərimiz beynəlxalq tədbirlərin dəyişilməz ünvanı kimi çıxış edir. Dünya birliyi tərəfindən Azərbaycana göstərilən böyük hörmət və etimadın növbəti isbatı isə COP29-un gələn il Azərbaycanda keçirilməsi qərarı oldu. COP29 ölkəmizdə keçiriləcək ən böyük beynəlxalq tədbirdir, 70-80 min xarici qonağın ölkəmizə səfər etməsi gözlənilir, tədbirin keçiriləcəyi 2 həftə ərzində Azərbaycan dünyanın diqqət mərkəzində olacaq.

Ölkəmizin siyasi arenalarda qazandığı qələbələr iqtisadi sahələrdə də əldə olunan uğurlarla vəhdət təşkil edir. Prezident İlham Əliyevin təşəbbüsləri və rəhbərliyi altında Azərbaycanda bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bir sözlə, Qərblə Şərq arasında əsas körpü rolunu oynayan Azərbaycanın beynəlxalq statusunun möhkəmləndiyinin şahidi oluruq. Hazırda müşahidə etdiyimiz siyasi proseslər onu deməyə əsas verir ki, Azərbaycanın beynəlxalq əhəmiyyəti getdikcə daha da güclənəcək.

Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işləri, Ermənistan tərəfindən viran qoyulmuş ərazilərin abadlaşdırılması və aparılan nəhəng prosesin sürəti beynəlxalq ictimaiyyətdə heyranlıq doğurur. Bütün sahələrdə olduğu kimi, bu istiqamətdə də Azərbaycan dünya üçün bir model ortaya qoyur.

Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb. Prezident İlham Əliyev hər zaman bildirir ki, ölkəmizin uğurlarının əsasında məhz sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyev xalqı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparır.

Son 20 ilin makroiqtisadi göstəricilərinə qısa olaraq nəzər salsaq, ÜDM 3,6 dəfə, adambaşına düşən ÜDM 3 dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfə artıb. Bundan əlavə, adambaşına düşən büdcə xərcləri 150 manatdan 3500 manata qalxıb, xarici ticarət dövriyyəsi 10,8 dəfə, ixrac 16,1 dəfə, dövlət valyuta ehtiyatları 47 dəfə artıb. Valyuta ehtiyatlarımız 67 milyard dollar olmaqla xarici dövlət borcunu 10 dəfə üstələyir. Son 20 ildə ölkə iqtisadiyyatına 300 milyard dollar sərmayə qoyulub, onun da 190 milyard dolları qeyri-neft sektoruna yönəldilib.

Təbii sərvətlərin ölkə iqtisadiyyatının dirçəldilməsində və inkişafında rolu əvəzsizdir. Hazırda dayanıqlı iqtisadiyyatın təmin edilməsi üçün qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet xəttini təşkil edir. Son 20 ildə sahibkarlığın inkişafına dövlət dəstəyi proqramları icra olunub, sənaye parkları, sənaye məhəllələri və aqroparklar istifadəyə verilərək ölkədə müxtəlif çeşidli qeyri-neft məhsullarının istehsalının artmasına töhfə verilib. Bu illər ərzində ölkədə 2 milyondan çox iş yeri yaratmaqla işsizlik 50 faizdən 5 faizə, yoxsulluq isə 49 faizdən 5,5 faizə endirilib. Ötən 20 ildə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, pensiya üzrə ödənilən illik vəsait isə 30 dəfə artaraq 6 milyard manata çatdırılıb.

İlham Əliyevin mükəmməl siyasəti nəticəsində Azərbaycan xalqı zəfər yolu ilə inamla addımlayır və bu yolda dövlətimiz saysız-hesabsız zirvələr fəth edəcək. Xalqımızın xoşbəxt gələcəyini öz həyat amalına çevirmiş Liderimizə daha böyük qələbələr arzulayırıq!

**Sevil MİKAYILOVA,**
***Milli Məclisin deputatı***



# İlham Əliyev Azərbaycan xalqının tarixi şansıdır

Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci maddəsinə əsasən, Prezident xalqın vahidliyini təcəssüm etdirir və dövlətçiliyin varisliyini təmin edir. Sovet Azərbaycanında Heydər Əliyevdən sonra, müstəqil Azərbaycanda isə Heydər Əliyevə qədər heç bir rəhbər dövlətçiliyin varisliyini təmin edə, xalqın vahidliyinin təcəssümü ola bilməmişdi. Prezident İlham Əliyevin hakimiyyətə gəlişi ilk növbədə Heydər Əliyevin qurduğu müasir Azərbaycanda dövlətçiliyin varisliyini təmin etdi.

Əslində, Prezident İlham Əliyev barədə 2003-cü ildən etibarən danışmaq insaflı yanaşma deyil. Bakıda sovet rəhbərliyi ilə nüfuz alveri edilərkən cənab İlham Əliyev Moskvada Ulu Öndərlə birlikdə 20 Yanvar hadisələrinə görə sovet rejiminə qarşı açıq etiraz edən iki nəfərdən biri idi. Azərbaycan Xalq Cəbhəsi hərəkatı Qorbaçov yenidənqurmasını dəstəkləyən bir qüvvə kimi rəsmi qeydiyyata alındığı dövrdə İlham Əliyev sovet miqyasında elə əslində cəbhəçilərin ideoloqu olan Qorbaçovun rejiminə təhdid hesab edildiyi üçün işdən çıxarılmışdı. Heydər Əliyev Bakıya qayıtdıqdan sonra məhz onun sayəsində hakimiyyət iyerarxiyasında yer tutmuş bir sıra şəxslər nankorluq edəndə, parlamentdə Ulu Öndərə qarşı çirkab kampaniyası aparılanda, ona danışmağa imkan verilməyəndə, Bakıda təhlükələrlə üz-üzə qalanda, o cümlədən fəaliyyətinin ağır Naxçıvan dövründə Heydər Əliyevin əsas silahdaşı yenə də İlham Əliyev idi. 1993-cü ildən etibarən isə Ümummilli Liderin neft strategiyası və Avropa hüquq məkanına inteqrasiya kursunun realizəsində ağırlıq məhz cənab İlham Əliyevin çiyinlərində oldu. Bu mənada 2003-cü iləqədərki dövlət quruculuğu prosesində Ulu Öndərlə bərabər, onun əsas silahdaşı kimi məhz cənab İlham Əliyevin adı xüsusi qeyd olunmalıdır.

Sonrakı dövrdə möhtərəm Prezidentin davam edən 20 illik fəaliyyəti son 200 ilin gündəliyindən daha zəngin, daha mürəkkəbdir, həm də tariximizin ən uğurlu dövrüdür. Onun şah əsəri isə böyük Zəfərimizdir. Ümumiyyətlə, bəllidir ki, Qarabağ düyünü Ulu Öndərin nisgili idi, hətta özünün 2003-cü il 1 oktyabr tarixli son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi hələ də həll edə bilməmişik". Böyük Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə populist meydan əhvali-ruhiyyəsinə üstünlük verirdi. Əslində isə, Ulu Öndər dediyi kimi, "Bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi" və cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə dövlət idarəçiliyi milli düşüncədə və doğru əldə olmalıdır.

Böyük hərbi-siyasi Zəfərə qədər Prezident İlham Əliyev güclü iqtisadiyyat qurub iqtisadi suverenliyimizi təmin etdi. Məcburi köçkün çadır şəhərciklərini ləğv edərək vətəndaşın layiqli rifahını, rəngli inqilablar simgəsi olan narıncı çadırlara meydan verməyərək müstəqilliyimizin davamlılığını təmin etdi, düşüncələri "palatka" təfəkküründən xilas edib 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Bu Zəfərə qədər İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, çoxəsrlik dövlətçilik ənənəsinin əhəmiyyətini dərk edən vətənpərvər gənclik yetişdirdi. Cənab İlham Əliyev bütün dünyaya, xüsusən yanlış gözləntilərdə olan bəzi qlobal dairələrlə ideoloji savaşdan da zəfərlə çıxaraq sübut etdi ki, Heydər Əliyev kursunun davam etdiyi bir şəraitdə xalqımız torpaqlarının zəbt olunması ilə barışa bilməz və bu siyasi xətt illərlə davam etmiş işğalın Azərbaycan gəncliyinə Qarabağ və Şərqi Zəngəzuru unutdurmasına imkan verməz. Məhz bu qətiyyətli mövqeni rəhbər tutmaqla 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azadlığına qovuşdurmaqla, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Zəfərdən cəmi 8 gün sonra özünün ən böyük silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən irihəcmli quruculuq-bərpa prosesinə start verdi. Möhtərəm Prezidentin özünün də ifadə etdiyi kimi, bütün bu işlər Azərbaycanın öz gücü, öz imkanları hesabına həyata keçirilir. Reallıqları obyektiv qiymətləndirdikdə isə əminliklə deyə bilərik ki, məhz Prezidentimizin qətiyyəti hesabına bu gün Qarabağ və Şərqi Zəngəzura layiqli və təhlükəsiz formada həyat qayıdıb və proses uğurla davam edir.

Digər istiqamətdə, möhtərəm Prezidentin enerji siyasətini Heydər Əliyevin neft strategiyası üzərində inşa edərək yeni mərhələyə ucaltmasının məntiqi nəticəsi olaraq Azərbaycan nefti bəzi ölkələrdə olduğu kimi lənət yox, inkişaf etmək və dünyada təsirli güc kimi tanınmağımız üçün sözün əsl mənasında milli sərvətə çevrildi. Eyni zamanda strateji əhəmiyyətinə görə tarixboyu maraqların toqquşma nöqtəsi olan və faydasından çox zərərini gördüyümüz coğrafiyanı ilk dəfə məhz İlham Əliyev milli kapitala çevirdi və elə geosiyasi konfiqurasiya formalaşdırdı ki, nə qədər ki, Heydər Əliyev siyasi kursunun davamlılığı təmin olunacaq, coğrafiyamız bizim üçün dividend gətirməkdə davam edəcək.

Ümumiyyətlə, etiraf etməliyik ki, Azərbaycan nə ərazi ölçüsü, nə əhali sayına görə xüsusi göstəricilərə malik deyil, əksinə, kiçik ölkə sayılır. Lakin məhz cənab İlham Əliyevin vizyonu sayəsində danılmaz faktdır ki, Azərbaycan müasir geosiyasi situasiyada nəinki bölgəmiz, bütövlükdə qlobal mənada hərbi-siyasi güc mərkəzlərindən birinə çevrilib. Təbii ki, qlobal ziddiyyətlərin gücləndiyi bir şəraitdə rəqabətqabiliyyətli güclü dövlətə çevrilmək sadə məsələ deyil. Xüsusən də siyasi və iqtisadi transformasiyaların sürətlə davam etdiyi bir şəraitdə. Hazırda Azərbaycan Respublikası özünün ənənəvi enerji öhdəliklərinə sadiq qalmaqla neft hasilatından tədricən qaz istehsalına strateji keçidi təmin etmək üzrədir və bu, müasir mərhələdə Azərbaycanın enerji siyasətinin şaxələndirilməsində çox vacib addım hesab olunmalıdır. Məhz möhtərəm Prezidentin uzaqgörənliklə reallaşdırdığı infrastrukturlar, həmçinin onun iradəsi ilə reallaşan layihələr bu gün faktiki olaraq Azərbaycanı Avropa üçün alternativsiz və çox cazibədar enerji təchizatçısına çevirib. Xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda, qütblərarası ziddiyyətlərin dərinləşdiyi bir zamanda Prezidentin vaxtında nə qədər uğurlu gedişlər etdiyini və çoxlarının süni əngəllər yaratmasına baxmayaraq, nə qədər strateji düşüncə sahibi olduğunu bir daha ortaya çıxarır. Bu gün faktiki olaraq ölkəmiz Avropanın, xüsusən Avropa İttifaqına üzv olan bir sıra dövlətlərin enerji təhlükəsizliyində tədricən həlledici rol almaqdadır, o cümlədən Azərbaycanın Balkanlarda və Şərqi Avropada artan rolu bu baxımdan Avropa İttifaqının ayrı-ayrı strukturlarının qeyri-adekvat və ədalətsiz yanaşmaları fonunda Bakının ciddi qələbəsi hesab olunmalıdır. Yalnız elə bu fakt bizə deməyə əsas verir ki, əhali sayı və ərazi ölçüsü baxımından böyük potensialımızın olmamasını məhz dövlət başçısının vizyonu tam şəkildə nəinki kompensasiya edir, üstəlik ərazi və əhali göstəriciləri bizdən qat-qat artıq olan dövlətlər qlobal nüfuz baxımından Azərbaycandan çox geri qalır.

Əlbəttə, Azərbaycanın uğurları, artan iqtisadi imkanları və bundan dolayı güclənən suverenliyi, müstəqil siyasət yürütməsi regionla bağlı qeyri-adekvat maraqları olan neoimperialist güclər tərəfindən müsbət qarşılana bilməzdi. Xüsusən Vətən müharibəsində Azərbaycanın Zəfəri, habelə antiterror tədbirlərində qazanılmış müstəsna qələbə, konstitusiya quruluşumuzun beynəlxalq hüquqla tanınan bütün ərazilərimiz boyu bərqərar olunması regionda qeyri-dost niyyətləri olan gücləri ölkəmizə qarşı səfərbər etdi. Bu prosesdə də ənənəvi destruktiv Qərb strukturları, muzdlu media və korrupsioner siyasətçilər beynəlxalq ictimaiyyət adından ölkəmiz əleyhinə müxtəlif bəhanələr, siyasi hücumlar təşkil etməyə, bəyanatlar verməyə başlayıblar. Özünü beynəlxalq ictimaiyyət adlandıraraq dünya birliyi adından çıxış edənlərə münasibətdə möhtərəm Prezidentin mövqeyi kifayət qədər aydındır: "200-dən çox ölkə var, 20-30 ölkə özünü necə beynəlxalq ictimaiyyət saya bilər?" Bu qətiyyətli mövqe nəticəsində ötən 3 illik dövrə baxsaq, İlham Əliyevin qərəzli hücumların hamısını neytrallaşdırmağa, hətta kifayət qədər önəmli qlobal oyunçuları geri addım atmağa məcbur etməyə nail olduğunu görərik. Möhtərəm Prezidentin sağlam siyasi gedişləri, beynəlxalq hüquqa və ədalətə arxalanması, ən vacibi hüququn gücü və gücün hüququ arasında balansı qorumaqla atdığı addımlar planetar müstəvidə Azərbaycana hörmət və ehtiramın bərqərar olunmasını təmin etdi.

Xüsusən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü və Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyevin uğurlu fəaliyyəti, onun bəşəri miqyasda lider kimi mövqelərinin möhkəmlənməsi Azərbaycanın qələbələrinin sağlam təməllər üzrə inşasını təmin etdi. Dünya ictimaiyyəti gördü ki, həqiqətən, pandemiya ilə mübarizədə qlobal səylərə məhz cənab İlham Əliyev liderlik etdi, eyni zamanda postpandemiya yol xəritəsinin cızılmasında o, həlledici liderlik missiyasını üzərinə götürdü. Digər tərəfdən türk dünyasının birliyi istiqamətində açar rolunu üzərinə götürməklə cənab İlham Əliyev nəinki Azərbaycanın, bütövlükdə türk dünyasının qlobal miqyasda imkanlarını genişləndirmiş oldu.

Bütün bunların nəticəsidir ki, cəmi üç ay öncə, lokal xarakterli antiterror tədbirlərinin ardınca Azərbaycana qarşı səf tutmuş güclər, Azərbaycanın beynəlxalq hüququn normalarında əksini tapan prinsiplərlə uyğun, suveren haqlarını bərpa etməsi faktına qəbullandılar və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsinə dəstək verdilər. Beləliklə, dövlət başçısı sübut etdi ki, beynəlxalq ictimaiyyətin Azərbaycana real baxışının göstəricisi hansısa muzdlu təşkilatın, 3-5 korrupsioner deputatın, yaxud çürümüş neoimperialistlərin bəyanatları yox, 200-ə yaxın ölkənin yekdil rəyi ilə dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un evsahibliyini Azərbaycana həvalə etməsidir. Bu, cənab İlham Əliyevin də ifadə etdiyi kimi, bizə olan ehtiramın ifadəsidir və bu ehtirama möhtərəm Prezidentin qətiyyəti ilə nail olmuşuq.

Bu gün dönüb 20 il geriyə baxanda bir şeyə əmin oluruq, miqyası dövlətimizin miqyasından, gördüyü işlər isə real imkanlarımızdan artıq olan cənab İlham Əliyev bu dövlət və xalq üçün sözün əsl mənasında tarixi şansdır. Millət olaraq şansımız gətirib ki, İlham Əliyev Azərbaycanda doğulub, Azərbaycanda yaşayır və Azərbaycanı idarə edir.

**Bəhruz MƏHƏRRƏMOV,**
***Milli Məclisin deputatı***

# Vətəni bütövləşdirən Lider

Bu gün Azərbaycanın uğurlarından, inkişafından bəhs edəndə ilk növbədə Prezident İlham Əliyevin bu barədə müxtəlif vaxtlarda dediyi fikirlərə diqqət yetirməli oluruq. Hələ 2003-cü ilin prezident seçkilərindən sonra keçirilən andiçmə mərasimində cənab İlham Əliyev qarşıda dayanan vəzifələrlə bağlı danışarkən bildirmişdi: "Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

2003-cü illə bu günümüzü 20 illik bir zaman ayırır. Və bu 20 ilin hər bir mərhələsi, cənab İlham Əliyevin prezidentliyinin hər bir dövrü Azərbaycanın müasir tarixinin mühüm nailiyyətləri ilə əlamətdardır. Prezident İlham Əliyev uzaqgörənliklə, təmkinlə, ardıcıllıqla və həm də sürətlə dövlətimizi elan etdiyi bütün hədəflərə çatdırıb, qarşıya qoyulan milli prioritetlərin hər biri keyfiyyətlə və vaxtında yerinə yetirilib.

Əsas makroiqtisadi rəqəmlərə nəzər salmaqla 20 ilin inkişaf yolunun nə qədər möhtəşəm olduğunu görürük. Məsələn, son 20 il ərzində ümumi daxili məhsul 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə artıb. Orta aylıq əməkhaqqı 77.4 manatdan 839,4 manata yüksəlib, yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib. Strateji valyuta ehtiyatlarımız 20 il əvvəl 1,4 milyard ABŞ dolları idisə, indi 70 milyard dollara yaxınlaşır.

Bunlar sıradan bir iqtisadi rəqəmlər deyil. Bu rəqəmlərin hər biri 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə getdiyimiz inkişaf yolunun uğur hesabatıdır. Bu rəqəmlərin hər birinin arxasında cənab Prezidentin siyasi iradəsi, əzmkarlığı, müdrik iqtisadi kursu və islahatları dayanır.

Prezident İlham Əliyev dünyanın nüfuzlu siyasi liderləri ilə bir cərgədə dayanan dövlət başçısıdır. İlham Əliyev şəxsiyyəti, İlham Əliyev faktoru bütün siyasi dairələrdə ən yüksək ehtiramla qarşılanır. Beynəlxalq münasibətlərdə əhəmiyyətli yeri və çəkisi olan dövlətlərin, mötəbər təşkilatların rəhbərlərinin Prezidentimizə olan xüsusi münasibətində bunu görmək mümkündür. Əlbəttə ki, bu, öz növbəsində Azərbaycanın qlobal siyasi-iqtisadi nüfuzunu şərtləndirən mühüm siyasi faktordur. Azərbaycanın neft-qaz layihələrini qətiyyətlə həyata keçirə bilməsində, respublikamızın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsində və bu gün 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsində İlham Əliyevin qlobal nüfuzu əsas rol oynayıb.

Prezident İlham Əliyev respublikamızın hər bir regionu kimi Naxçıvan Muxtar Respublikasının da sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayıb, bu istiqamətdə lazım olan hər şeyi edib. Naxçıvanın hər bir yüksəliş nümunəsində cənab Prezidentin imzası var. Bu ildən icrasına başlanılan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" və hazırda muxtar respublikada həyata keçirilən islahatlar da təsdiq edir ki, Prezident İlham Əliyevin Naxçıvana diqqət və qayğısı davamlıdır.

Prezident İlham Əliyev qətiyyətli və praqmatik siyasəti, genişmiqyaslı islahatçı fəaliyyəti ilə ötən 20 ildə dövlətimizi öz hədəflərinə inamla çatdırıb. Bu dövrdə qazanılmış nailiyyətlər hər bir vətəndaşın qəlbində milli iftixar və ölkəmizin işıqlı gələcəyinə dərin inam hisslərini daha da gücləndirib. Hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. Bundan irəli gələrək ötən dövrdəki bütün prezident seçkiləri İlham Əliyevə göstərilən ümumxalq etimadı ilə əlamətdar olub. Xalqımız bütün seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirməklə inkişaf proseslərinə, Azərbaycanın qüdrətlənməsinə özünün layiqli qiymətini verib.

Son 3 ildə isə Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə Azərbaycanın dövlətçilik salnaməsinin ən şərəfli səhifələri yazılıb. 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi, bu ilin sentyabrında tarixi yurd yerimiz olan Qarabağda milli suverenliyimizin tam bərqərar edilməsi tək bu günümüzün deyil, bir neçə əsrlik dövlətçilik tariximizin mühüm siyasi-hərbi hadisələridir. Artıq Qarabağda Şuşa və Hadrutla yanaşı, Xankəndidə, Xocavənddə, Ağdərədə, Xocalıda, Əsgəranda Azərbaycan bayrağı dalğalanır. Beləliklə, Prezident İlham Əliyev həm də 30 illik işğala son qoyan, 200 illik erməni separatizmini məhv edən böyük şəxsiyyətdir. İlham Əliyev Vətəni bütövləşdirən Liderdir.

Belə bir şərəfli tarixi yazılan xalqımız hazırda mühüm siyasi hadisə olan prezident seçkilərinə hazırlaşır. Prezident İlham Əliyevin dekabrın 7-də imzaladığı sərəncamla növbədənkənar keçiriləcək bu seçkilər 2024-cü il fevral ayının 7-nə təyin olunub. Dekabrın 8-də Mərkəzi Seçki Komissiyası tərəfindən seçkilərlə bağlı Təqvim Planı təsdiq olunub və hazırda siyasi sferada seçki hazırlıqları davam edir, siyasi partiyalar öz namizədlərini irəli sürürlər. Respublikamızın hakim və aparıcı siyasi partiyası olan, xalqın bütün sosial zümrələrini öz ətrafında birləşdirən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin dekabrın 15-də keçirilmiş genişləndirilmiş iclasında ölkə Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb.

Böyük qürur hissi ilə qeyd etmək istərdim ki, vətəndaşlarımızın kimi prezident görmək istəməsi ilə bağlı cəmiyyətimizdə hakim olan ortaq rəy ondan ibarətdir ki, xalqımızın seçimi cənab İlham Əliyevə etimad üzərində formalaşacaq. Yeni Azərbaycan Partiyasının cənab İlham Əliyevin namizədliyini irəli sürməsindən sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyini dəstəkləmələri bunu təsdiq edir.

Azərbaycan xalqının İlham Əliyevi növbəti dönəmdə də ölkə Prezidenti vəzifəsində görmək arzusunun dərin əsasları var. Bu arzu ötən 20 ilin möhtəşəm uğurlarına, nəticələrinə, torpaqlarımızı işğaldan azad edən siyasətin davam etdirilməsinin vacibliyinə əsaslanır. Azərbaycanın bu günü və gələcəyi İlham Əliyevlə bağlıdır. Bu mənada inkişafın, sabitliyin, təhlükəsizliyin, yüksək sosial rifahın və güclü dövlətçiliyin tərəfdarı olan xalqımız qarşıdan gələn növbədənkənar prezident seçkilərində ən layiqli namizəd olan İlham Əliyevə səs verəcək. İlham Əliyevin prezident olması ölkəmizin inkişafı, 20 il ərzində qazanılmış uğurların davamlı olması və Azərbaycanın daha da qüdrətlənməsi deməkdir.

**Cəbi QULİYEV,**
***Milli Məclisin deputatı***

# 20 ilin zirvəsi

Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən və siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Dövlət başçımızın yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət etdi.

Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət sayəsində Azərbaycanın adı dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada çəkilir. Bu illər ərzində əhalinin rifahı yaxşılaşdırılıb, pensiyalar, əməkhaqları, sosial müavinət artırılıb, siyasi, iqtisadi, mədəni sahələrdə misli görünməmiş nailiyyətlər qazanılıb.

Cənab İlham Əliyevin prezidentliyi dövründə ölkəmiz böyük inkişaf yolu keçib, Azərbaycan dövlətçiliyinin əsasları ciddi şəkildə möhkəmlənib, qüdrəti və iqtisadiyyatı daha da artıb, beynəlxalq müstəvidə mövqeyi xeyli dərəcədə güclənib. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioritetləri olub. Xarici siyasətdə qazanılan uğurlar ölkənin beynəlxalq imicinin və tərəfdaş dövlətlərin sayının artırılmasında mühüm rol oynayıb.

Bu illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasət və nəticəyə hesablanmış diplomatik uğurlar Azərbaycanın BMT, AŞ, ATƏT, NATO və digər nüfuzlu beynəlxalq təşkilatların yüksək tribunasından daha qətiyyətlə çıxış etməsi və bir çox məsələdə beynəlxalq aləmin onun rəyinə hörmətlə yanaşması üçün münbit şərait yaradıb.

Azərbaycan xalqı İlham Əliyevi 2003-cü ildə Prezident seçməklə həm də Heydər Əliyevə, onun siyasi kursuna sadiqliyini nümayiş etdirdi. Bu, xalqımızın Ümummilli Liderə sevgisinin və sonsuz inamının bir daha təsdiqi olmuşdu. Prezident kimi fəaliyyətə başlayan İlham Əliyev də andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirmiş, Heydər Əliyev siyasətinə sadiq qalacağını bir daha bəyan etmişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Prezident İlham Əliyev xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirdi.

İlham Əliyev Azərbaycana Prezident kimi rəhbərlik etdiyi 20 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər görüb. Nəhəng infrastruktur layihələri həyata keçirib. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin edib. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, iri miqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Neft-qaz sahəsində qazandığı uğurları davam etdirən ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə start verib. Bununla da Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub qaz dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış etməyə başlayıb. Xəzərin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici rolunun olduğunu bir daha təsdiqləyir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verib. Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, Azərbaycan neftini birbaşa dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi nəhəng layihələrin icrasına nail olunub.

Ötən dövr Azərbaycanda bütün sahələrin inkişaf etməsi ölkəmizin bölgədə və dünyada mövqelərini gücləndirib. Bu illər ərzində Azərbaycanın siyasi, iqtisadi imkanları genişlənib, 30 illik torpaq həsrətinə son qoyularaq ərazi bütövlüyümüz bərpa edilib.

Prezident İlham Əliyevin hakimiyyətinin 20 ilinin zirvəsində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Tarixə diqqət yetirsək, görərik ki, ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Məhz bu ordu öz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşına başladı və dünyanı heyrətə salan hərbi uğurlara imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın azad olunması tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi. Döyüşlər sadəcə səngərdə və diplomatik masada deyil, informasiya məkanında da qızğın xarakter aldı. İnformasiya məkanında da ən ali vəzifəni öz üzərinə götürən cənab Prezident 26 xarici mediaya müsahibələr verdi, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, səbəbləri, habelə Azərbaycanın mövqeyini əsaslandıran hüquqi, siyasi, mənəvi və digər amilləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Bütün cinahlarda gedən döyüşlərə şəxsən rəhbərlik edən cənab Prezident İlham Əliyev Azərbaycan xalqının milli maraqlarını qətiyyətlə müdafiə edərək tarixi qələbəyə imza atdı. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurmaqla ərazi bütövlüyümüzü tam təmin etmişdiksə, sentyabrın 19-20-də suverenliyimizi tam bərpa etdik. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması, ərazilərimizi tərk etməsi Azərbaycanın növbəti qələbəsinin təntənəsidir.

Bu gün Azərbaycan dünyanı həm də azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işləri ilə heyrətləndirir. İşğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir.

Bu gün Azərbaycan bütün sahələr üzrə dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır. Prezident İlham Əliyev milli ideya ətrafında xalqı birləşdirib. Ölkəmizdə azərbaycançılıq məfkurəsi tam bərqərar olunub. Dövlət idarəçiliyi və respublikamızın müdafiəsi etibarlı əllərdədir. İqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və pandemiyanın yaratdığı çətinliklərə rəğmən dövlət başçısının nümayiş etdirdiyi yüksək peşəkarlıq və xalqa arxalanma siyasəti Azərbaycanda yaşanan ümumxalq birliyinin səbəbidir. Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoydu və bu gün də bu mütərəqqi proses Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir. Son dörd il ərzində siyasi partiyalar tərəfindən imzalanmış 9 birgə bəyanat və 3 müraciət uğurlu siyasi dialoqun və xalq-dövlət birliyinin təzahürüdür. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir.

İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətini xarakterizə edən əsas göstəricilərdən biridir. Dövlət başçısının tapşırığı əsasında üzvlərinin sayından, ölkə ərazisini əhatə vəziyyətindən, siyasi çəkisindən və hər hansı digər amildən asılı olmayaraq, ölkədəki bütün siyasi partiya rəhbərləri ilə davamlı şəkildə keçirilən görüşlər demokratik ənənələrin dərinləşməsinə xidmət edən təcrübədir.

Azərbaycanın müstəqil parlamentarizm tarixində ilk dəfə olaraq 2020-ci ildə müxalif siyasi partiyalar qanunvericilik orqanının rəhbərliyində təmsil olunublar. Milli Məclisin Sədr müavini, komitə sədri və sədr müavinləri vəzifəsinə müxalif siyasi partiyaların nümayəndələri seçiliblər. 10 siyasi partiyanın VI çağırış Milli Məclisdə təmsil olunması bilavasitə ölkədə yaşanan demokratik münasibətlərin təzahürüdür.

**Kamran BAYRAMOV,**
*Milli Məclisin deputatı*



# Azərbaycanı qüdrətli dövlət edən siyasət

Azərbaycanın son 20 illik tarixinin ən möhtəşəm uğurlarla zəngin olması xalqımızın qürur mənbəyidir. Təsadüfi deyil ki, hələ 2003-cü ildə bizim əsas tezislərimizdən biri Heydər Əliyev ideyalarının davamının vacibliyi idisə, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlərin timsalında Ulu Öndərin ideyalarının real həyatda öz təsdiqini tapmasından iftixarla söz açırıq…

20 il dövlətin tarixi baxımından uzun dövr sayılmır. Amma bu dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurların miqyası həm fiziki, həm mənəvi baxımdan 20 ilin orta statistik reallıqlarından olduqca böyükdür. Bu dövrdə Azərbaycan bütün inkişaf göstəricilərinə görə zamanı qabaqlayıb və təsadüfi deyil ki, indi biz tarixin ən qüdrətli Azərbaycanından bəhs edirik. İndi dünyanın hər yerində Azərbaycan deyəndə, güclü, qlobal səviyyədə nüfuz və söz sahibi olan, beynəlxalq münasibətlərdə ədalətsizliyin və hüquq prinsiplərinin tapdalandığı bir şəraitdə öz milli haqqını təmin etməyi bacaran dövlət göz önünə gəlir.

Bu uğurlarımızın hamısının müəllifi İlham Əliyevdir. Eyni zamanda Prezident İlham Əliyevin uğurlu diplomatiyası nəticəsində qlobal səviyyədə ölkəmizin etibarlı strateji tərəfdaş imici formalaşıb. Qürur hissi ilə deməliyik ki, İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı tərənnüm edən təşəbbüsləri beynəlxalq təşkilatların gündəliyinə daxil olunur. Azərbaycan Prezidentinin sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində öz yerini tutub. İlham Əliyev öz siyasi dühası ilə islam dünyasında müsəlman və türk dövlətləri arasında siyasi-iqtisadi inteqrasiyanın, əməkdaşlıq münasibətlərinin daha da dərinləşməsinə böyük töhfələr verir.

2008-ci, 2013-cü və 2018-ci illərdə Azərbaycanda keçirilən prezident seçkilərində xalqımızın müdriklik nümayiş etdirərək İlham Əliyevə etimad göstərməsinin təməlində də ötən 20 ildə nail olduğumuz bu uğurlar və cənab İlham Əliyevin şəxsinə cəmiyyətimizdə olan yüksək ehtiram dayanır.

Prezident İlham Əliyev torpaqlarımızı işğaldan azad edən, erməni separatizminin kökünü kəsən böyük sərkərdə, Müzəffər Ali Baş Komandandır. Vətən müharibəsindəki Zəfərin məntiqi davamı olaraq bu gün Prezident İlham Əliyev quruculuq əzmi ilə Qarabağ və Şərqi Zəngəzuru bərpa edir, azad edilmiş torpaqlarımızı sürətlə dirçəldir. Xalq olaraq, dövlət olaraq bizi başıuca, alnıaçıq edən cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir.

2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ərəfəsində cəmiyyətimizi İlham Əliyev siyasi kursu ətrafında həmrəy edən də məhz bu uğurlardır.

Yeni Azərbaycan Partiyasının İdarə Heyəti dekabrın 15-də keçirdiyi genişləndirilmiş iclasında partiyamızın Sədri möhtərəm İlham Əliyevin namizədliyini irəli sürüb. Ötən günlər ərzində Azərbaycan cəmiyyətinin seçkilərlə bağlı reaksiyası göstərir ki, YAP-ın cənab İlham Əliyevi növbədənkənar prezident seçkilərində namizəd irəli sürməsi yalnız partiyamızın 720 mindən artıq üzvü deyil, bütün xalqımız tərəfindən böyük razılıqla qarşılanır, təqdir edilir. Bu baxımdan YAP-ın qərarı belə bir həqiqəti ortaya qoyur ki, cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi bütün Azərbaycan xalqının arzuları ilə üst-üstə düşür.

Böyük fəxarət hissi ilə deməliyik ki, qarşıdan gələn prezident seçkiləri müstəqillik tariximizdə Azərbaycan ərazilərinin tam azadlığı şəraitində keçiriləcək ilk seçki olacaq. İndi həm torpaqlarımız işğaldan azad edilib, həm də Qarabağda erməni separatizminə son qoyulub. Bu baxımdan prezident seçkiləri hər birimiz və bütövlükdə dövlətimiz üçün böyük mənəvi-siyasi əhəmiyyət daşıyır. Haqlı olaraq bu seçkini Zəfər seçkisi də adlandırırıq.

Ötən 20 ildə qazanılmış tarixi nailiyyətlər fonunda xalqımızın qarşıdan gələn seçkilərlə bağlı seçimini proqnozlaşdırmaq çətin deyil. Xalq ona inkişaf və yüksək sosial rifah gətirən, torpaqlarımızı işğaldan azad edən, Azərbaycanı qüdrətli dövlətə çevirən və gələcək inkişafının təminatçısı olan siyasətin davamına səs verəcək.

Ad günü münasibətilə Prezident İlham Əliyevi bütün seçicilərimiz adından təbrik edir, Azərbaycanımızın yüksəlişi yolunda fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Nəsib MƏHƏMMƏLİYEV,**
*Milli Məclisin deputatı*

# Bu gün müstəqil Azərbaycanın günüdür

Azərbaycan öz tarixində Nadir şahdan sonra torpaq əldə edə bilməyib, əksinə, torpaqları əlindən alınıb, dövləti parçalanıb, müstəqil Azərbaycanın varlığına son qoyublar. Nəhayət, 300 ildən sonra Romanovlar sülaləsi devrilib və Azərbaycan xalqı da 1918-ci ildə müstəqilliyini elan edib. Bu, müsəlman Şərqində ilk cümhuriyyət olsa da, onun ömrü 23 ay çəkib. Həmin müddət ərzində ondan nə qədər torpaqlar qopartmağa cəhd göstəriblər və bəzən buna nail də olublar.

Yenidən 70 illik sovet dönəmi və bu dövrdə Azərbaycandan kifayət qədər torpaqlar qoparılıb və qoparılan torpaqların nəticəsi olaraq Naxçıvan Azərbaycandan ərazi baxımından ayrı düşüb. Azərbaycanın Ermənistanla sərhəd ərazilərində də kifayət qədər torpaqları sovet Rusiyasının diktəsi ilə ermənilərə verilib. Son faciə isə Qarabağın dağlıq hissəsinin və ətraf rayonların Ermənistan və havadarları tərəfindən işğal olunması idi.

Həmin illər mürəkkəb dövr idi. Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə həmin çətinliklər aradan qaldırıldı. Azərbaycanın varlığına son qoyulmasının, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı və dövlətin ümumi inkişafı üçün Ümummilli Lider Heydər Əliyev mümkün olanı etdi. Təbii ki, düşmən, havadarları güclü idi. Ancaq bütün bunlara baxmayaraq, Heydər Əliyev balanslaşdırılmış siyasət həyata keçirməyə nail oldu. Bir tərəfdən atəşkəs, digər tərəfdən "Əsrin müqaviləsi" Azərbaycanı qoruyub saxladı.

2003-cü ildə cənab İlham Əliyev hakimiyyətə gəldi - xalqın istəyi, arzusu ilə dövlət başçısı seçildi. Prezident İlham Əliyev həm ölkəni inkişaf etdirdi, həm güclü ordu yaratdı, həm də dünyaya elan etdi ki, Azərbaycan bu işğalla barışmayacaq. Bu sözləri vaxtilə Ümummilli Lider Heydər Əliyev demişdi və xalqı əmin etmişdi ki, işğal altında olan bütün ərazilərimiz azad olunacaq. Doğrudan da, İlham Əliyev o azadlıq mücadiləsinə başladı və bu mücadilənin ilk bünövrəsi 2016-cı ilin Aprel döyüşlərində qoyulanda Azərbaycan xalqı artıq başa düşdü ki, biz Birinci Qarabağ müharibəsindən nəticə çıxarmışıq. Ali Baş Komandan göstərdi ki, nəyi nə vaxt və necə etməyi yaxşı bilir.

2020-ci ilin 44 günlük Vətən müharibəsi isə dövlət başçısının həm qətiyyətini, həm gücünü və cəsarətini, həm də fitri istedadını ortaya qoydu. Bəzi dövlətlər nə qədər çabalasalar da, nə qədər təhdid etsələr də, nə qədər təzyiqlər göstərsələr də, Ali Baş Komandan öz yolundan dönmədi. Prezident xalqı "dəmir yumruq" kimi birləşdirib düşməni darmadağın edərək işğal altında olan Azərbaycan torpaqlarını azad etdi.

Bəli, belə bir qəhrəmanlıq göstərən Ali Baş Komandan Azərbaycan tarixinə şərəfli səhifə yazdı. Xalqı müstəqillikdən sonra ilk dəfə olaraq qaliblər sırasına çıxardı. Ordumuzu dünyanın ən nümunəvi ordularından birinə çevirdi, eyni zamanda dünyanın bədxah qüvvələrini susdurdu. Ali Baş Komandan dünyanı inandırdı ki, bütün bu hədyanlar heç bir nəticə verməyəcək. Bununla yanaşı, çoxlu dostlar, Azərbaycanın haqqını müdafiə edən dövlətlər qazandı. Türkiyə Cümhuriyyəti bu cərgədə əvvəlki illərdə olduğu kimi, yenə birinci oldu.

Müzəffər Ali Baş Komandan bu gün Azərbaycan tarixində şərəfli zirvədədir. Çünki məhz onun qətiyyəti hesabına Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatını uğurla başa çatdırdı və 100 ildən sonra "Dağlıq Qarabağ" qurumu tariximizdən silindi, separatçı qüvvələr darmadağın edildi. Azərbaycan bütövləşdi və bütün ərazilərimizdə üçrəngli bayrağımız dalğalanmağa başladı. Bu, birmənalı olaraq Ali Baş Komandanın xidmətidir. Bu, İlham Əliyevin gücünün göstəricisidir.

Bu şərəfli zirvəni fəth edən İlham Əliyev həm də Azərbaycan xalqını birləşdirə bildi. Xalq birləşəndə, xalqın gücü bir olanda onun qarşısında heç bir qüvvə dayana bilməz. Azərbaycanın ərazisi böyük, əhalisi çox olmasa da, güclü dövlətdir. Çünki Azərbaycanın dövlət başçısı iradəli və cəsarətli bir liderdir. Xalq liderini sevir, ordu Ali Baş Komandanın əmrinə müntəzirdir.

İlk dəfə olaraq 2024-cü il fevralın 7-də prezident seçkiləri bütövləşmiş Azərbaycan ərazisində keçiriləcək. Çünki 1991-ci ildən sonra Azərbaycanın bütün ərazisində nə prezident, nə parlament, nə də bələdiyyə seçkiləri keçirilib.

Bu gün Ali Baş Komandan İlham Əliyev cənablarının ad günüdür. Bu günü bütün Azərbaycan xalqı və xalqın uğuruna sevinənlər qeyd edirlər. Bu doğum günü heç bir doğum gününə bənzəmir. Bu, bütövləşmiş Azərbaycanın günüdür. Çünki bütövləşməyi, suverenliyi bizə bəxş edən Ali Baş Komandan İlham Əliyevdir.

**Anar İSGƏNDƏROV,**
*Milli Məclisin deputatı*



# Qüdrətli Lider

Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan ötən illər ərzində tarixi və möhtəşəm uğurlara imza atıb. İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi müddətdə bütün sahələr inkişaf edib, əhalinin rifahı daha da yaxşılaşıb və xalqa verilən vədlər bütünlüklə yerinə yetirilib. Məhz dövlət başçısının həyata keçirdiyi müdrik və uzaqgörən siyasət nəticəsində Azərbaycan sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. Ölkəmizdə sabitliyin təminatçısı xalq-iqtidar birliyi, liderin xalqın maraqlarına, rifahına və mənafeyinə əsaslanan siyasəti, xalqın isə öz liderinə qətiyyətli inamıdır.

Azərbaycanda sürətli inkişaf təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini təmin edən mühüm faktorlardan biri inkişafın milli modelinin - yeni iqtisadi modelin yaradılmasıdır. Son 20 ilin göstəriciləri makroiqtisadi sabitliyə nail olan Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir. Mərkəzində Azərbaycan vətəndaşının rifah və mənafeyinin dayandığı nümunəvi sosial siyasətin həyata keçirilməsi - vətəndaş məmnunluğunun artırılması, regionların sosial-iqtisadi inkişaf konsepsiyasının uğurla reallaşdırılması və digər mühüm faktorlar ölkənin etibarlı və dayanıqlı yüksəlişinə əlavə təkan verib.

Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional siyasi davranış modeli, analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirib, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Son dörd il ərzində siyasi partiyalar tərəfindən imzalanmış 9 birgə bəyanat və 3 müraciət uğurlu siyasi dialoqun və xalq-dövlət birliyinin təzahürüdür. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətləri imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanaqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir. Siyasi dialoqu və əməkdaşlıq mühitini təşviq edən Prezident İlham Əliyev qeyd edib: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Dövlət başçısının yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edib. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınıb. Azərbaycanın təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində qorunub. Azərbaycanda davamlı olaraq Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, UNESCO-nun xüsusi sessiyalarının və onlarla digər əhəmiyyətli tədbirlərin keçirilməsi nəticəsində Bakı qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevrilib.

Digər məqam isə Prezident İlham Əliyevin beynəlxalq müstəvidə islamofob dairələrin və antiazərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozmasıdır. Bununla da, dövlət başçısı xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmadan qorudu. İlham Əliyev islamofobların və infoimperialistlərin müsəlman Şərqində uğurla həyata keçirdikləri "lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə" siyasətinin ölkəmizdə həyata keçirilməsinin qarşısını ustalıqla aldı. Bu hücuma qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mənəviyyat və milli ailə sipərini çəkdi.

Prezident İlham Əliyevin fəaliyyətinin ən parlaq səhifəsini Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması təşkil edir. Bu, Zəfər salnaməsi - Qələbə dastanıdır, həmçinin Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən strateji kursun məntiqi nəticəsidir. Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması, beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, xalq-lider birliyinin təmin olunması ərazi bütövlüyümüzün bərpasında, tarixi qələbənin qazanılmasında həlledici amil olub. Dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanı və Zəfər simvoluna çevrilən 44 günlük Vətən müharibəsi, Qarabağda erməni separatizminin kökünün kəsilməsi təkcə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpasına deyil, eyni zamanda həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların yaranmasına səbəb olub. Ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpası regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir.

Ad günlərində Prezident İlham Əliyev adətən sosial obyektlərin açılışında iştirak edir, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. Bu cür əlamətdar günlərdə Prezident şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, habelə yeni salınmış məcburi köçkün qəsəbələrində insanlarla görüşür. 50 illiyini məcburi köçkünlərlə bərabər Ağcabədidə qeyd edən Prezident 60 illiyini də Qarabağda - Şuşada keçirib. Ötənilki ad günündə isə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Bu amil dövlət başçısının daim xalqın yanında olduğunu bir daha təsdiqləyir.

Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə tez-tez işğaldan azad olunmuş torpaqlara səfər edir. Tarixi Zəfər nəticəsində əldə olunmuş yeni reallıq təkcə işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə məhdudlaşmır. Qələbə bütün regiona sülh və davamlı inkişaf imkanını qazandırıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişib və region ölkələrinin inkişafı üçün yeni imkanlar açılıb. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Hazırda işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işləri həyata keçirilir. Bu işlər Prezidentin şəxsi nəzarətindədir. Üç il ərzində həmin ərazilərdə dövlət başçısı İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə çoxsaylı təməllər atıb və açılışlar edib. Artıq Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış başlayıb. Bütün bunlar qürurvericidir. Prezident İlham Əliyevin liderliyi ilə müstəqil dövlətimiz bundan sonra da möhtəşəm nailiyyətlərə imza atacaq.

**Pərvin KƏRİMZADƏ,**
***Milli Məclisin deputatı***

# Azərbaycan 20 ildə əsrə bərabər möhtəşəm yol keçib

Ali Baş Komandan İlham Əliyev üç il öncə, 2020-ci il 27 sentyabr, səhərin erkən saatlarında düşmənin növbəti hücumuna qarşı Orduya bütün cəbhə boyu əks-hücum əmri verməklə, təkcə Azərbaycan tarixində deyil, bütövlükdə bölgənin və türk dünyasının tarixində yeni səhifə açmış oldu. Həmin gün 2016-cı ilin Aprel döyüşlərindən 4 il, 2018-ci ilin mayındakı Günnüt hərbi əməliyyatından 2 il, Tovuz döyüşlərindənsə cəmi 2 ay keçirdi.

Dünya hərb tarixində hər günü düşmənin məğlubiyyəti ilə tarixə düşən bir müharibə yoxdur. Cəmi 44 gün ərzində 30 illik işğala son qoyuldu, düşmən darmadağın edilərək tam məğlubiyyət - kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Lakin bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən korrupsiyalaşmış siyasətçilər tərəfindən şirnikləndirilən təcavüzkar Ermənistan 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının maddələrinin icrasını təmin etmək əvəzinə, gizli şəkildə silahlanmağa, revanşizmin təbliğinə üstünlük verdi. Ötən ilin sentyabrında Daşkəsən, Kəlbəcər, Laçın sərhədləri boyu təxribatlar törətdi, mina terroruna əl ataraq 300-dən çox vətəndaşımızın həyatına zərbə vurdu. Bütün bu təxribatlara görə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı düşmənə dəfələrlə xəbərdarlıq edən Ali Baş Komandan bunun cavabında "Dəmir yumruğ"un gücünü yenidən görməli olacaqlarını söylədi və belə də oldu.

Suverenliyimizin tam bərpası istiqamətində inamla irəliləyən və əsas hədəfə doğru addım-addım yaxınlaşan Ali Baş Komandan oktyabrın 15-də, hakimiyyətinin 20-ci ildönümündə Xankəndidə Azərbaycanın Dövlət Bayrağını ucaldaraq Zəfər tariximizə daha bir şanlı səhifəni yazdı. Xankəndinin əsas meydanından xalqa müraciət edən Prezident İlham Əliyev ilk gündən xalqa verdiyi sözü yerinə yetirmək üçün xalqı səfərbər edərək gecə-gündüz necə çalışdığını belə ifadə etdi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərin məhz bu ildə tamamlanması rəmzi məna daşıyır. Xankəndi Zəfəri "Heydər Əliyev İli"nə ən böyük töhfədir. Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən üç il sonra Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndidə separatçı rejimin ləğv edilməsi, Azərbaycanın hər bir qarış torpağı üzərində suveren hüququnun tam bərpa edilməsi kimi tarixi missiya yerinə yetirildi. Dəmir iradə, "dəmir yumruq" öz qətiyyəti ilə xalqına, ölkəsinə qələbə sevincini yaşatdı.

Son ayların Zəfər salnaməsinin səhifələrini bir daha vərəqləyək. 2023-cü il aprelin 23-də Laçın rayonunun Həkəri körpüsü üzərində - Ermənistanla şərti dövlət sərhədində sərhəd-buraxılış məntəqəsinin qoyulması ilə Azərbaycanın ərazi bütövlüyü praktiki olaraq təmin edildi. Azərbaycan torpağında erməni separatizminin nəfəsliyi olan "Laçın dəhlizi" ləğv edildi, bütün Qarabağa və Şərqi Zəngəzura tam nəzarət Azərbaycanın daxili işinə çevrildi. Azərbaycan torpağında separatizmin ləğvi və ərazimizdə qalan erməni silahlı dəstələrinin təminatları kəsildi, Ermənistan ərazisindən silah-sursat daşınmasının qarşısı alındı. Qarabağın erməni əhalisinin reinteqrasiya prosesi ön plana çıxarıldı, erməni əhalisinin separatçıların və terrorçuların girovluğundan xilas edilməsi istiqamətində praktiki addımlar atıldı.

2023-cü il 19 sentyabr tarixli lokal antiterror tədbirləri nəticəsində Ermənistan ordusunun ərazilərimizdəki tör-töküntüləri darmadağın edildi, separatçı-terrorçu dəstələr tərk-silah və təslim edildi.

44 günlük Zəfər yürüşündə BMT-nin 4 qətnaməsini təkbaşına icra edən dövlətimiz yenə təkbaşına 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın yerinə yetirilməmiş maddəsinin icrasını təmin etməyi bacardı.

28 sentyabrda Qarabağdakı separatçı rejim "rəsmi olaraq" özünü buraxdı və bununla da 2020-ci ilin 27 sentyabrında başlayan, Azərbaycanın 200 illik məğlubiyyət tarixini dəyişdirən, bölgədə tamamilə yeni reallıqlar yaradan Vətən müharibəsində əldə edilmiş Zəfər tamamlandı.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev müqəddəs Azərbaycan Bayrağını Xocavənd şəhərində, Ağdərədə, Xocalıda və Xankəndidə qaldıraraq xalqımıza 30 ildən çox səbirlə gözlənilən ən böyük müjdəni - tam qələbə xəbərini verdi. 32 il ərzində Xankəndidə separatizm, terrorçuluq, türk düşmənçiliyi təbliğatının yuvasına çevrilmiş binanın üzərinə Azərbaycan Respublikasının gerbini vurdurdu, önündə müqəddəs Azərbaycan Bayrağı qaldıraraq revanşizm çağırışları edənlərə son xəbərdarlığını etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 20 il əvvəl 2003-cü il oktyabrın 15-də fəaliyyətinin ilk günündə xalqa verdiyi vədi tam yerinə yetirdi. Sözü imzası qədər kəçərli, siyasi iradəsi, prinsipiallığı, uzaqgörənliyi ilə ən yeni Azərbaycan tarixinə öz möhürünü vurmuş və gələcək nəsillərə parlaq inkişaf yolu açmış lider - İlham Əliyev Azərbaycan ərazisində erməni separatizminə son qoydu, Azərbaycanın müstəqilliyini, hər bir qarış torpağı üzərində suveren hüququnu tam bərpa etdi.

"Nəyi, nə vaxt və necə edəcəyini" hamıdan yaxşı bilən Prezident İlham Əliyevin tayı-bərabəri olmayan, strateji-taktiki-siyasi gedişatlarla zəngin planının reallaşdırılması nəticəsində qazandığımız Xankəndi Zəfəri milli dövlətçiliyimizin keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olmasına zəmin yaratdı.

Bu gün Azərbaycan dünyanı həm də işğaldan azad edilmiş ərazilərdə həyata keçirtdiyi nəhəng bərpa və quruculuq işləri ilə heyrətləndirir. 30 il düşmən tapdağı altında qalan torpaqlarımız məhz Prezident İlham Əliyevin əzmkarlığı ilə cənnətə çevrilir. Uzun illər yurd həsrəti ilə yaşayan insanlar öz doğma torpaqlarına qayıdırlar.

Ölkə və xalq olaraq əldə etdiyimiz uğurların təməlində məhz Prezident İlham Əliyevin gərgin əməyi sayəsində yaranan sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Azərbaycan xalqı öz liderinə - Prezidentinə güvənir və inanır! Xalq öz Prezidentini sevir! Xalq Prezidentinin arxasındadır!

Əminik ki, bu qarşılıqlı inamla 20 ildə əsrə bərabər möhtəşəm bir yol qət edən, cəmi 23 saat ərzində ildırım sürətli qəti qələbəyə imza atan xilaskar Prezident, Müzəffər Ali Baş Komandan, yenilməz Sərkərdə cənab İlham Əliyev Azərbaycanımızı bundan sonra da daim Zəfərlərə, Zirvələrə aparacaq!

**Jalə ƏLİYEVA,**
***Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini***

# İlham Əliyev Azərbaycana daha böyük zəfərlər qazandıracaq

Prezident İlham Əliyev Azərbaycan xalqının, dövlətinin həyatında artıq əlahiddə rol oynayıb, onun xalqı, dövləti qarşısında yerinə yetirmiş olduğu missiya Azərbaycan tarixinin ən şərəfli səhifəsini yazıb.

Tarixən ölkəmizə qarşı düşmənçilik münasibətlərindən çıxış edən Ermənistan XX əsrin sonlarına doğru yaranmış şəraitdən, ölkədəki xaosdan yararlanıb torpaqlarımızın 20 faizə qədərini işğal etdi və 30 il ərzində torpaqlarımızı işğal altında saxladı. Həmin ərazilərdə bütün yaşayış məntəqələrini darmadağın etdi. Azərbaycan xalqının tarixinə, mədəni irsinə, maddi, təbii sərvətlərinə qarşı, sözün əsl mənasında, terror həyata keçirdi. Cənab İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu 44 gün ərzində torpaqlarını işğaldan azad etdi. Təbii ki, bu, cənab İlham Əliyevin Azərbaycan xalqı, dövləti qarşısında böyük xidmətlərini tam aydın ifadə edir. Azərbaycan güclü dövlət olmasaydı, güclü iqtisadiyyatı, ordusu olmasaydı, torpaqlarımız işğaldan azad edilə bilməzdi.

İlham Əliyev Azərbaycana rəhbərliyə başladığı ilk gündən fəaliyyətinin mərkəzinə, özünün qeyd etdiyi kimi, Azərbaycan vətəndaşını, onun rifahını qoydu. Təbii ki, Azərbaycan vətəndaşının rifahı bütövlükdə Azərbaycan dövlətinin rifahının inikasıdır. Azərbaycan cəmiyyəti, dövləti güclüdürsə, iqtisadi cəhətdən inkişaf edibsə, deməli, bu cəmiyyətin üzvü də güclü olacaq, onun yüksək rifahı təmin olunacaq.

Təbii ki, dövlətin gücü həm də onun beynəlxalq münasibətlər sistemində yerini müəyyən edir. Təsadüfi deyil ki, biz hər zaman vurğulayırıq ki, Prezident İlham Əliyev öncə mötəbər, beynəlxalq tribunalardan torpaqlarımızın siyasi işğaldan azadlığına nail oldu. Bildiyimiz kimi, Azərbaycana qarşı qərəzli mövqelər sərgilənirdi. Azərbaycan ərazilərinin anneksiyasının təmin olunması üçün bəlli dairələr çox çalışırdılar. ATƏT-in Minsk qrupu münaqişənin tənzimlənməsi ilə deyil, idarə olunması ilə məşğul olurdu ki, gələcəkdə o torpaqları Ermənistana birləşdirmək mümkün olsun. Bütün bunların hamısının qarşısı məhz İlham Əliyevin strateji baxışları sayəsində alındı.

Qələbəmizin siyasi elementlərini formalaşdırdıqdan sonra döyüş meydanında Azərbaycan xalqının iradəsini, ordumuzun qüdrətini göstərərək müharibənin üçüncü, dördüncü günü düşmən ordusunu əsaslı şəkildə darmadağın etdik. Dünyaya bir daha nümayiş etdirdik ki, əslində, 2020-ci ilə qədər torpaqlarımızı hərbi yolla azad etməməyimizin səbəbi məhz bizim humanizm prinsiplərinə, beynəlxalq hüquq normalarına, bəşəri dəyərlərə həssaslığımızla əlaqədar idi.

Azərbaycan Prezidenti hər zaman qeyd edirdi ki, nəticəsiz danışıqları sonsuzluğa qədər davam etdirməyəcəyik və bizim gücümüz torpaqlarımızı işğaldan azad etməyə imkan verir. O bildirirdi ki, səsləndirdiyi fikirlər heç də sadəcə fikirlərdən ibarət deyil. Onun arxasında real güc, iradə dayanıb.

2023-cü ildə isə növbəti tarixi hadisə baş verdi. İlham Əliyevin sayəsində 2023-cü ildə Azərbaycan xalqının, dövlətinin həyatında baş verənləri gələcəkdə daha dərindən araşdırmaq üçün ayrıca bir tədqiqat institutuna ehtiyac var. Prezident İlham Əliyev Azərbaycan xalqına, dövlətinə qalib xalq, qalib dövlət hisslərini yaşatmaqla çox mühüm tarixi missiyanı həyata keçirdi.

Ayrıca olaraq qeyd etmək lazımdır ki, qarşıdan gələn növbədənkənar prezident seçkiləri Azərbaycan vətəndaşı üçün həm də bir imkandır. Yəni bu o imkandır ki, hər bir vətəndaş növbəti dəfə cənab İlham Əliyevə öz minnətdarlıq hissini ifadə edəcək, ona dərin etimadının və inamının olduğunu göstərəcək. Bu baxımdan hesab edirəm ki, 24 dekabr tarixini də xalqımız xüsusi ehtiramla qeyd edir.

Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, ona sağlam, uzun ömür arzu edirik. Eyni zamanda bir daha inamımızı ifadə edirik ki, bundan sonrakı fəaliyyəti ilə də Azərbaycana böyük zəfərlər gətirəcək, daha yüksək zirvələrə çatdıracaq. Özünün də hər zaman vurğuladığı kimi, Azərbaycan vətəndaşının rifahının yüksəldilməsi istiqamətində bundan sonra da davamlı addımlar atacaq.

**Elşad MİRBƏŞİROĞLU,**
***Milli Məclisin deputatı***




# Prezident İlham Əliyevin siyasəti müasir Azərbaycanın güclənməsinə xidmət edir

Ulu Öndər ölkəmizi böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb. Bu mənada Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu və inkişafı liderlik amili ilə birbaşa bağlıdır.

İnkaredilməz reallıqdır ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olub. İctimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır.

Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən yaradıcı surətdə uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və dinamik inkişafa nail olub. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib. Bu bir reallıqdır ki, Prezident İlham Əliyevin fəaliyyəti müasir şəraitdə rasional idarəçilik nümunəsi hesab olunur.

Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınır. Eyni zamanda ölkə başçısı tərəfindən daim təkmilləşdirilən gənclər siyasəti yeni nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə yaradıcı gəncliyin formalaşmasına şərait yaradır. Gənclərin potensialından səmərəli istifadə olunması müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biridir.

Yeni Azərbaycan Partiyasının 2005-ci il 26 mart tarixində keçirilmiş III Qurultayında cənab Prezident İlham Əliyevin yeni sədr seçilməsi partiya həyatında mühüm tarixi dövrün başlanğıcı kimi xarakterizə edilir. Prezident İlham Əliyev öz islahatçı kursuna sadiq qalaraq 2021-ci ildə YAP-da mahiyyət etibarilə dəyişikliklərə səbəb olmuş islahatlar təşəbbüsü ilə çıxış etdi. 2021-ci ilin 5 mart tarixində partiyanın VII Qurultayında yeni Nizamnamə təsdiq olundu və bununla da partiya sədrinin birinci müavini vəzifəsi təsis olundu, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası, Gənclər Birliyi və Mərkəzi Aparatı yaradıldı. Partiyanın yeni proqramı qəbul edildi, həmçinin kadr islahatlarına başlanıldı.

Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son 20 ildə ölkənin sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər olduqca böyükdür. Prezident İlham Əliyevin dövlət siyasəti milli həmrəylik mühitinin toxunulmazlığını təmin edir. Dövlət başçısının "Biz birlikdə güclüyük" şüarı xalqın qalib ruhunun güzgüsünə çevrilib. İqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və pandemiyanın yaratdığı çətinliklərə rəğmən dövlət başçısı xalqa arxalanaraq Azərbaycanı inkişafa apardı. Bu, təbii ki, xalqa arxalanan siyasətin mahiyyətindən formalaşan amildir.

Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoyub və bu gün də bu mütərəqqi proses Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətləri imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir.

Eyni zamanda ölkəmizin etibarlı strateji tərəfdaş imici mövcuddur. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edir. Prezidentin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı. Ölkəmizin 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına (QH) 2019-2023-cü illərdə sədrlik etməsi müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Bu mənada Prezident İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı tərənnüm edən beynəlxalq təşəbbüsləri qlobal təşkilatların gündəliyinə daxil olundu.

Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası keçirildi. 18 noyabr 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlər tərəfindən qəbul edildi.

Azərbaycanın İƏT-in ən aktiv və nüfuzlu üzvlərindən biri kimi mühüm təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində qorunur. Azərbaycanda davamlı olaraq əhəmiyyətli tədbirlərin keçirilməsi nəticəsində Bakı qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevrilib.

Ölkəmizin qardaş Türkiyə ilə bütün sahələrdə əldə etdiyi uğurlar artıq dünya üçün bir örnəyə çevrilib. Ona görə də Azərbaycan-Türkiyə münasibətləri etibarlı əməkdaşlığın yeni modeli kimi təqdim edilir. Azərbaycan və Türkiyə prezidentləri arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanmış bəyannamə iki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan və Türkiyə respublikaları arasındakı münasibətləri keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırıb. Bəyannaməyə əsasən, tərəflər xarici siyasət sahəsində əlaqələndirməni və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələri həyata keçirir, həmçinin bu istiqamətdə Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində birgə fəaliyyət göstərilir.

Bu gün Türk Dövlətləri Təşkilatı beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir. Son iki il ərzində Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfəri təşkil olunub. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər. Bu xüsusda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olub. Bu, ölkəmizin müstəqil siyasət yürütdüyünü, prinsipial mövqeyini, beynəlxalq hüquqa bağlılığını, sədaqətini, eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsinin dövlətimizə olan hörmətin daha da artırdığını göstərir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Zəfər Ordusunun formalaşmasına səbəb olmuş effektiv ordu quruculuğu siyasətinin mahiyyəti olduqca əzəmətlidir. 2003-cü ildən etibarən ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olundu. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsinə, müasir infrastrukturun yaradılmasına, hərbi qulluqçuların sosial müdafiəsinə, mənzil təminatının yaxşılaşdırılmasına, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılır. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Müharibənin nəticəsində 300-dən çox şəhər və kənd işğaldan azad edildi. Düşmən ağ bayraq qaldırdı, təslim oldu və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atmağa məcbur oldu. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atılmadan, qan tökülmədən geri qaytarıldı.

Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı.

Təbii ki, 44 günlük müharibə dövründə ən mühüm amil diqqətdən yayınmayan diplomatik müstəvidə atılan addımlar idi. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-a yaxın müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. İnformasiya savaşının əsas konturlarını təşkil edən bu müsahibələr milli mətbuatımızın fəaliyyətinə istiqamət verdi. Müzəffər Ali Baş Komandanın müharibə ilə bağlı müsahibələri XXI əsr üçün yeni üslub, yeni model nitq strategiyası hesab edilə bilər. İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi.

Azərbaycanın tarixi qələbəsi bütün regiona sülh və davamlı inkişaf imkanı qazandırıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişib və region ölkələrinin inkişafı üçün yeni imkanlar açılıb. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın daha da inkişafına böyük təkan verəcək. Bu bir reallıqdır ki, 20 il öncə müəyyən olunmuş bütün vəzifələr icra edildi. Fəxarət rəmzimiz üçrəngli dövlət bayrağımız bütün sərhədlərimizdə qürurla dalğalandırıldı. Azərbaycan sərhədlərinin bütövlüyü, suverenliyimiz təmin olundu.

Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən Prezident, Ali Baş Komandan İlham Əliyevin ötən illər ərzində bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar onun rəhbərliyi ilə müzəffər ordumuzun yaratdığı və yazdığı qələbə salnaməsinin əsasını qoydu.

Cənab İlham Əliyev son 200 illik tariximizdə ilk dəfə torpaqlarımızı işğaldan azad edən Müzəffər Sərkərdə oldu. Bu həm də cənab Prezidentin ata vəsiyyətini yerinə yetirməsidir. Ulu Öndərin ruhu artıq şaddır, çünki onun ən böyük arzusu həyata keçib.

**Sevinc HÜSEYNOVA,**
***Milli Məclisin deputatı***

# Xalqı qələbədən-qələbəyə aparan Lider

1993-cü ildə Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna çıxdı. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə özünə yeni Prezident seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən müsbət nəticələrini verdi. Xalqın öz liderinə inam və etimadı görünməmiş dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Vətən müharibəsində qazanılmış Qələbə həm də həyatın bütün sahələrində əldə olunmuş uğurlarla, dinamik inkişafla bilavasitə bağlıdır. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 20 ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Buna nümunə kimi iqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaq kifayətdir. Ötən 20 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, yoxsulluq 49 faizdən 5 faizə enib, 2 milyondan çox yeni iş yerləri açılıb, əməkhaqları, pensiyalar dəfələrlə artırılıb. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr ölkəmizin iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Azərbaycan işğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və yenidənqurma işlərinə başlayıb. Bu ərazilərimizdə yeni yollar çəkilir, elektrik stansiyaları tikilir. Prezident İlham Əliyev azad edilmiş rayonlara çoxsaylı səfərləri zamanı strateji infrastruktur obyektlərinin açılışını edir, yenilərinin təməlini qoyur.

Azərbaycan dinamik inkişafa malik modern ölkə olmaqla yanaşı, öz tarixi ənənələrini, milli dəyərlərini də yaşadır. Milli dəyərlərin mühüm daşıyıcısı milli mədəniyyətdir. Mədəniyyətin nəsildən-nəslə ötürülməsi elə dəyərlərin də qorunması, yaşadılması deməkdir. Milli dəyərlərin təbliği təhsildə, ideologiyada, qanunvericilikdə, cəmiyyətdaxili münasibətlərdə və demək olar ki, bütün aspektlərdə geniş əksini tapıb. Yeni nəslə uğurla ötürülən dəyərlər mədəniyyətimizin varisliyini təmin edib. Milli-mənəvi dəyərlərə bağlılığın qorunub saxlanması dövlətimizin diqqət mərkəzindədir.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunmasını prioritet vəzifə kimi qarşıya qoyub. "Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən Prezident İlham Əliyevin dövlət-din sahəsində həyata keçirdiyi siyasət, əslində, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin şaxələndirilmiş davamıdır.

Dövlət başçısı tərəfindən aparılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur və bəyənilir. Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük xidmətdir.

Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq, Azərbaycanda dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycan hökumətinin vətəndaşların etiqad azadlığı haqqını təmin etmək sahəsində həyata keçirdiyi tədbirlər və qəbul etdiyi qərarlar öz müsbət bəhrələrini verir. Hazırda respublikada dini durum sabitdir, ölkədəki dini tolerantlığın səviyyəsi yüksəkdir. Ölkəmizdə dini mövzularda beynəlxalq konfranslar və görüşlər keçirilir, dini əqidəsinə görə vətəndaşlar arasında heç bir ayrı-seçkiliyə yol verilmir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz ayinlərini azad şəkildə icra etməkdədirlər. Bu gün hökumət vətəndaşların əqidə seçiminə hörmətlə yanaşmaqla bərabər, dini ekstremizm, dözümsüzlük ideyalarının təbliğinin qarşısını qətiyyətlə alır və bundan sonra da alacaqdır. Tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir. İlham Əliyevin prezident seçildiyi 2003-cü ildən indiyədək ölkədə dövlətin dəstəyi ilə 250-dək məscid tikilmiş və ya bərpa edilmişdir.

Azərbaycan xalqı özünün milli-mənəvi irsinə - onu bütövləşdirən və zənginləşdirən komponentlərə - dil, din, adət-ənənə, eyni zamanda birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərə söykənərək bəşəriyyətin mürəkkəb və ziddiyyətli ictimai-siyasi sınaqlarından məharətlə çıxa bilmiş, dünya xalqları arasında öz varlığını, dövlətçilik ənənələrini qoruyub saxlamağı bacarmışdır. Tarixi hadisələrin gedişatı göstərdi ki, minilliklər ərzində formalaşmış milli-mənəvi sərvətimiz milli mənlik şüurumuzu oyadaraq müstəqil dövlətçiliyimizin bərpasına səbəb olan əsas amildir.

Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa və dayaq olub. Prezidentimiz həmişə böyük fəxrlə deyir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Bu qarşılıqlı inam sayəsində Prezident İlham Əliyev xalqı bundan sonra da öz arxasınca zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparacaq.

**Ceyhun MƏMMƏDOV,**
***Milli Məclisin deputatı***

# Azərbaycanın möhtəşəm tarixini yaradan Lider



2023-cü il başa çatmaq üzrədir. Bu il torpaqlarımız üzərində milli suverenliyimizin tam təmin olunması, Qarabağda erməni separatizminə son qoyulması kimi hadisələr Prezident İlham Əliyevin müəllifliyi ilə "Heydər Əliyev İli"nə ərməğan edilən böyük töhfələr kimi tariximizə həkk edildi.

Bu uğurlar cənab İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə Azərbaycanın öz tarixinin ən qüdrətli dövlətinə çevrilməsi həqiqətinin növbəti təntənəsi oldu.

Bu uğurlar bir daha göstərdi ki, Prezident İlham Əliyev xalqımızın Ulu Öndəri Heydər Əliyevin ideyalarını, inkişaf yolunu layiqincə davam etdirir, onları daha da zənginləşdirir və lider qətiyyəti ilə həyata vəsiqə almalarını təmin edir.

## İlham Əliyev Azərbaycanı Heydər Əliyevin arzuladığı yüksəkliyə ucaldıb

30 il əvvəl siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev özünün böyük siyasi dühası ilə Azərbaycanı parçalanmaqdan, dövlətçiliyini və müstəqilliyini itirməkdən xilas etdi.

Görkəmli və təcrübəli dövlət xadimi kimi Heydər Əliyev Azərbaycanı yenidən qurdu, onu inkişaf yoluna çıxardı, dünya birliyinin tamhüquqlu, etimad göstərilən üzvünə çevirdi.

Müasir dövlətimizin qurucusu olan, əməlləri ilə xalqımızın Ümummilli Lideri statusunu qazanan Heydər Əliyevin müdrikliyi həm də ondadır ki, Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin və yüksəlişinin etibarlı və möhkəm təməllərini yaratmaqla yanaşı, cənab İlham Əliyevin şəxsində özünün siyasi kursunu davam etdirə biləcək varis və güclü lider də yetişdirdi…

Azərbaycan xalqı İlham Əliyevin yüksək siyasi və mənəvi keyfiyyətlərini, dövlətə və xalqa nə qədər bağlı olduğunu hələ xarici şirkətlərlə aparılan neft danışıqlarında, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi Ermənistanın işğal siyasətinin qlobal səviyyədə ifşa edilməsində Yeni Azərbaycan Partiyası Sədrinin müavini və birinci müavini kimi fəaliyyətində görmüşdü. Bütün bunlar cənab İlham Əliyevin fəaliyyətinin timsalında dövlətə və vətənə layiqli xidmətin mükəmməl örnəyi idi.

İlham Əliyevin Azərbaycanın Baş naziri kimi 2003-cü ilin avqust ayından oktyabr ayına qədər fəaliyyəti isə onun yüksək siyasi keyfiyyətlərinin təcəssümünə çevrildi. Azərbaycan cəmiyyətinin bütün bunlara və Ulu Öndərin siyasi kursuna verdiyi yüksək siyasi dəyər isə 2003-cü ilin prezident seçkilərində təsbit olundu.

İlk dəfə 2003-cü ilin prezident seçkilərində qalib gələrək xalqımızın etimadını qazanan cənab İlham Əliyev həmin il oktayabrın 31-də indiki Heydər Əliyev Sarayında keçirilən andiçmə mərasimində demişdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Bəli, 20 il əvvəl xalqın yekdil dəstəyi və etimadı ilə Prezident seçilərkən cənab İlham Əliyev ölkənin gələcəyinə və taleyinə görə tarixi məsuliyyəti Ulu Öndər Heydər Əliyevin siyasi varisi kimi öz üzərinə götürmüşdü. Hər bir vətəndaş da cənab İlham Əliyevdən, birinci növbədə, Heydər Əliyevin müəyyən etdiyi strateji kursun davam etdirilməsini, dövlətimizin qətiyyətlə öz milli hədəflərinə doğru aparılmasını gözləyirdi. Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, torpaqlarımızın işğaldan azad olunması, Ulu Öndərin müəllifi olduğu enerji siyasətinin davam etdirilməsi və digər bu kimi strateji vəzifələr bu hədəflərin prioritetləri idi.

Bu gün dönüb tariximizə ekskurs edəndə, son 20 ilin reallıqlarına nəzər salanda hər birimizi birinci növbədə dərin fərəh hissi bürüyür, bir vətəndaş olaraq özümüzü qürurlu və məğrur hiss edirik. Çünki bu 20 ildə Prezident İlham Əliyev nə demişdisə, hamısını həyata keçirib, nə söz vermişdisə, hamısını yerinə yetirib. Bu illər ərzində Azərbaycan çox böyük, sürətli və tarixi inkişaf yolu keçib. 20 ildə Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevrilib. Möhtərəm İlham Əliyev özünün qətiyyətli siyasəti ilə xalqımızın şərəf salnaməsinə çevrilən, bizi gələcək nəsillərimiz qarşısında başıuca edən yeni tarixini yazıb və yaradıb. Cənab İlham Əliyev Heydər Əliyevin arzularını çin edib, Azərbaycanı inkişaf etdirərək Ulu Öndərin arzuladığı yüksəkliyə ucaldıb.

## Sözlə əməlin mükəmməl vəhdəti

Təcrübə göstərir ki, ilk növbədə qətiyyətlilik, prinsipiallıq və zamanında sözünü demək, radikal tədbirlər həyata keçirmək bacarığı əsl liderlərə xas keyfiyyətlər kimi dövlətin inkişafını şərtləndirən əsas amillər hesab olunur. Öz fəaliyyətində məhz bu keyfiyyətlərə və prinsiplərə söykənən Prezident İlham Əliyevin siyasi iradəsi Azərbaycanın daha da qüdrətlənməsinin, Cənubi Qafqazın lider dövlətinə, dünyada söz sahibinə çevrilməsinin leytmotivini təşkil edib.

Qürur hissi ilə deməliyik ki, Azərbaycana rəhbərliyinin ilk günündən öz fəaliyyətində sözlə əməlin mükəmməl vəhdətinin nümunələrini nümayiş etdirən cənab İlham Əliyevin yürütdüyü siyasətin mərkəzində ilk növbədə Azərbaycanın iqtisadi inkişafı, dünya birliyində malik olduğu layiqli mövqelərinin daha da gücləndirilməsi, Silahlı Qüvvələrimizin qüdrətlənməsi və döyüş imkanlarının artırılması, vətəndaşlarımızın sosial rifahının yüksəldilməsi və ən əsası, işğal altında olan torpaqlarımızın azad edilməsi kimi amillər dayanıb.

Bu kimi ümummilli və strateji vəzifələrin yerinə yetirilməsi fonunda ötən 20 ilin mənzərəsi təsdiq edir ki, möhtərəm Prezident İlham Əliyev xalqımızın Ulu Öndəri, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin memarı və qurucusu olduğu müasir Azərbaycanı zirvələrə yüksəldib, prezidentlik dövründə missiyasını layiqincə reallaşdırıb və bu gün də qətiyyətlə həyata keçirməkdədir.

20 illik zaman kəsiyi insan həyatı üçün böyük dövr sayıla bilər. Bir dövlətin tarixi baxımından isə bu, kiçik zaman kəsiyi hesab edilir. Lakin bu 20 ildə Azərbaycan dövlət olaraq o qədər möhtəşəm və saysız-hesabsız uğurlara nail olub ki, buna görə ölkəmizə ancaq həsəd aparmaq mümkündür.

Bu uğurlara nəzər yetirməklə həm Azərbaycanın inkişaf yolları, həm də Prezident İlham Əliyevin qətiyyətli siyasəti barədə konkret mülahizələr yürütmək mümkündür. Məsələn, Prezident İlham Əliyevin fəaliyyətinin və ötən 20 ilin ən böyük hadisələrindən biri Azərbaycanın enerji siyasətinin təntənəsidir. Prezident İlham Əliyevin iqtisadi inkişafla bağlı qarşıya qoyduğu vəzifələr sürətlə və yüksək keyfiyyətlə reallaşmaqdadır. Azərbaycan iqtisadiyyatının 3 dəfədən çox böyüməsi, vətəndaşların sosial rifahının dəfələrlə yüksəlməsi iqtisadi sahədəki inkişafın real ifadəsidir. 2003-cü ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri cəmi 1 milyard 220,9 milyon manat idi. Bu gün isə büdcəmiz 40 milyard manata çatmaq üzrədir.

Azərbaycanın müdafiə xərcləri 2003-cü ildə cəmi 150 milyon ABŞ dolları təşkil edirdi. 2023-cü ildə bu rəqəm 5 milyard manatdan çoxdur və 2024-cü ildə daha da yüksələcək.

20 il əvvəl regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. 2003-cü ildə cəmi 1,8 milyard valyuta ehtiyatı olan Azərbaycanın strateji valyuta ehtiyatları artıq 70 milyard dollara yaxınlaşıb və ümumi daxili məhsulun nə az, nə çox, 97 faizinə bərabərdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev bu illər ərzində Ulu Öndərin strateji inkişaf kursunu həm davam etdirərək, həm də zənginləşdirərək inkişafın Azərbaycan modelini yaradıb. Ümumiyyətlə, cənab İlham Əliyev ölkəmizin yüksəlişi istiqamətində bütün fürsətləri reallığa çevirib. Dövlətimizin, şəxsən Prezident İlham Əliyevin təşəbbüsü və fəal iştirakı ilə əsası qoyulmuş bütün qlobal layihələr uğur qazanıb. "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat xətləri ilə Azərbaycan regionun əsas kommunikasiya mərkəzlərindən birinə çevrilib.

Bu uğurların müəllifi olan Azərbaycan Prezidenti Avropa siyasi dairələrində etimad göstərilən, hörmətlə qarşılanan lider kimi qəbul edilir. Müxtəlif vaxtlarda, əlamətdar tarixlərdə nüfuzlu siyasi liderlərin, dövlət başçılarının Prezident İlham Əliyevə göndərdikləri məktubların məzmunu, dövlətimizin başçısının ən mötəbər beynəlxalq tədbirlərə dəvət edilməsi, çıxışlarının xarici dairələrdə maraqla izlənilməsi, ən əsası, Prezident İlham Əliyevin barəsində deyilən fikirlər bunları təsdiq edir. Məsələn, Serbiya Prezidenti Aleksandar Vuçiçin İlham Əliyevin ünvanına söylədiyi "Bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik", "Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır", "Onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir" kimi ifadələr Azərbaycan Prezidentinin şəxsiyyətinə, siyasi liderliyinə göstərilən yüksək ehtiramın təcəssümüdür.

Yaxud Macarıstanın Baş naziri Viktor Orbanın fikirlərinə diqqət yetirək. O deyir: "Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm". Bu sözlər Prezident İlham Əliyevin yüksək qlobal nüfuzundan xəbər verir və dövlətimizin başçısının geopolitik məkanda proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən lider olması barədə söylənən fikirlərin davamıdır. Bu fikirlər göstərir ki, cənab İlham Əliyev dünyanın ən nüfuzlu dövlət başçıları ilə bir cərgədə dayanan, özü, sözü və imzası dərin ehtiramla qarşılanan siyasi liderdir. Bu isə öz növbəsində Azərbaycanın qlobal nüfuzunu və beynəlxalq münasibətlər sistemində layiqli yerini müəyyənləşdirən mühüm siyasi faktordur.

## Müzəffər Ali Baş Komandan

2003-cü ildə andiçmə mərasimində Prezident İlham Əliyev artıq keçmişdə qalmış Qarabağ problemi ilə bağlı demişdi: "Bu problem yalnız bir neçə prinsip, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yolla qətiyyətli siyasət həyata keçirən Prezident İlham Əliyev artıq tarixin arxivinə göndərilmiş ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda Azərbaycanın milli maraq və mənafelərini uğurla təmin etdi, ərazilərimizdə ikinci erməni dövlətinin yaradılması kimi mənfur ideyanın qarşısını qətiyyətlə aldı.

Bununla yanaşı, Prezident İlham Əliyev aparılan danışıqlarda, bütün çıxışlarında aydın şəkildə bildirirdi ki, əgər sülh danışıqları nəticəsiz olarsa, Azərbaycan dövləti müharibə yolu ilə torpaqlarını işğaldan azad edəcək. Bunun üçün dövlətimizin başçısı Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılmasını, hər bir qoşun növünün modernləşdirilməsini xüsusi diqqət mərkəzində saxlamış, bu məqsədlə ən müasir silahlar ordumuzun arsenalına daxil edilmişdir. Təsadüfi deyil ki, cənab İlham Əliyevin müəllifi olduğu inkişafın Azərbaycan modelinin mühüm nümunələrindən biri də Silahlı Qüvvələrimizin modern hərbi gücə çevrilməsidir.

Beləliklə, torpaqlarımızın işğaldan azad edilməsi məsələsində də Prezident İlham Əliyev necə demişdisə, elə də etdi. 2020-ci il sentyabrın 27-də erməni silahlı qüvvələrinin cəbhə xəttində törətdikləri növbəti hərbi təxribatın qarşısını alan Azərbaycan Ordusu cəmi 44 günə öz tarixi missiyasını qəhrəmancasına yerinə yetirdi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə keçirilən "Dəmir yumruq" əməliyyatı sözdən anlamayan Ermənistanı döyüş meydanında darmadağın etdi. İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi 2020-ci il noyabrın 10-da Azərbaycanın tam qələbəsini elan etməsi müasir tariximizin ən böyük hadisəsinə çevrildi.

Vətən müharibəsində Silahlı Qüvvələrimizin bütün qoşunları qəhrəmanlıq göstərdilər. Əlahiddə Ümumqoşun Ordunun bölmələri də tarixi Zəfərimizin qazanılmasına öz layiqli töhfələrini verdilər. Naxçıvandan gələn xüsusi təyinatlılar və digər bölmələrin şəxsi heyəti böyük şücaətlər göstərdilər, qəhrəmanlıq salnamələri yaratdılar. Prezident İlham Əliyevin bu barədə fikirləri hər birimizi qürurlandırır. "İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır", - deyə dövlətimizin başçısı bildirmişdir.

Bu Zəfərlə möhtərəm Prezident regionda yeni reallıqlar yaratdı. Torpaqlarımızı azad edən cənab İlham Əliyev əvvəlcə ermənilərin və onların havadarlarının status iddialarını və ATƏT-in Minsk qrupunu tarixin arxivinə göndərdi. Bu il sentyabr ayının 19-da başlayan və cəmi 23 saat davam edən lokal antiterror tədbirlərinin nəticəsi kimi isə Prezident İlham Əliyev Qarabağdakı erməni separatizminin kökünü kəsdi. Müzəffər Ali Baş Komandan separatizmə son qoymaqla tarixi torpaqlarımız olan Qarabağda milli suverenliyini bərqərar etdi. Bu həm də Prezident İlham Əliyevin dünya erməniliyi, Fransa və digər Qərb siyasi dairələri üzərində qələbəsi kimi tarixə düşdü. Dövlətimizin başçısı bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan heç vaxt öz milli maraqlarında güzəştə getməyəcək və heç bir qüvvə ölkəmizi öz yolundan döndərə bilməz.

Vətən müharibəsindən sonra Azərbaycanın tarixində tamamilə yeni mərhələ başlayıb. Bu mərhələdə əsas hədəf azad edilmiş ərazilərimizin bərpasıdır. Ötən 3 ildə Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərinin miqyası, həqiqətən olduqca əzəmətli və qürurvericidir. Zəfər yolu, Füzuli və Zəngilan hava limanları kimi nəhəng layihələrin başa çatdırılması, Laçın və Füzuli şəhərlərinə, Zəngilanın Ağalı, Laçının Zabux və Tərtərin Talış kəndlərinə dönüşün təmin olunması azad edilmiş ərazilərə Böyük qayıdışın sürətlə və keyfiyyətlə həyata keçirilməsindən xəbər verir. Görünən odur ki, Prezident İlham Əliyevin qətiyyəti, iradəsi və quruculuq əzmi ilə işğaldan azad edilmiş ərazilərimiz dirçəlir, həyata qaytarılır.

Bu prosesdə cənab İlham Əliyevin ən böyük silahdaşı isə respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Məhz Mehriban Əliyevanın təşəbbüsləri ilə həyata keçirilən layihələr, xüsusilə tarixi-mədəni irsimizin bərpası işğaldan azad edilmiş ərazilərin dirçəlişinə layiqli töhfələr verməkdədir. Bu layihələrin hər biri həm də Mehriban Əliyevanın vətənpərvərliyinin, daşıdığı yüksək milli idealların göstəriciləridir.

## Prezidentin qayğısı ilə Naxçıvan inkişafının yeni mərhələsinə qədəm qoyub

Vətən müharibəsindən ötən illər həm də Azərbaycanın iqtisadi inkişafı baxımından uğurlu dövrdür. Müharibədən çıxan ölkə olmasına rəğmən ötən 3 ildə müsbət makroiqtisadi göstəricilərin əldə olunması, ümumi daxili məhsul istehsalındakı artım, əhalinin sosial rifahının daha da yüksəldilməsi istiqamətində verilən qərarlar, dövlət büdcəsinin gəlir və xərclərinin yüksəlməsi Prezident İlham Əliyevin iqtisadi islahatlarının uğurlu nəticələridir. Təkcə bir fakta diqqət yetirək ki, 2023-cü ilin yanvar-noyabr aylarında ölkəmizdə 110,2 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. O cümlədən, iqtisadiyyatın qeyri neft-qaz sektorunda ÜDM 3,2 faiz artıb ki, bu da iqtisadi yüksəlişin mühüm göstəricisidir.

Bu gün Naxçıvan da öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Respublikamızın bütün bölgələri kimi, muxtar respublikanın da inkişafı Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Naxçıvanda sosial-iqtisadi sferada əldə olunmuş hər bir nailiyyət məhz Prezident İlham Əliyevin Naxçıvana olan diqqət və qayğısının, həyata keçirdiyi iqtisadi islahatların nəticəsidir.

Cənab Prezidentin ötən il dekabrın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsini qəbul edərkən verdiyi tapşırıq və tövsiyələr də dövlətimizin başçısının Naxçıvana olan diqqət və qayğısından xəbər verir. Son dövrdə muxtar respublikada bütün sahələrdə baş verən keyfiyyət dəyişiklikləri göstərir ki, dövlət başçısının qarşıya qoyduğu tapşırıq və tövsiyələr layiqincə icra olunur.

Prezident İlham Əliyevin Naxçıvana qayğısının daha bir nümunəsi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiqidir. Proqramın icrası, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi Naxçıvanın inkişafına, əhalinin rifahına və məşğulluğun artırılmasına böyük töhfələr verəcək.

Naxçıvanda görülən işlər, həyata keçirilən sosial-iqtisadi layihələr, yeni iş yerlərinin yaradılması, sakinlərin müraciətlərinin diqqətlə öyrənilməsi, onları qayğılandıran məsələlərin aidiyyəti strukturlar tərəfindən dərhal həll olunması və bütün bunların yüksək vətəndaş məmnuniyyəti yaratması muxtar respublikanın uğurlu inkişaf yolundan xəbər verir. Cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsi olaraq Naxçıvan öz inkişafının və intibahının yeni mərhələsinə qədəm qoyub.

Naxçıvanın inkişafına xidmət edən hər bir addım, təşəbbüs xalqımızın Ulu Öndəri Heydər Əliyevin ideyalarının uğurlu davamı, Naxçıvanla bağlı arzularının reallaşmasıdır.

## Xalqın seçimi dəyişməzdir

Azərbaycan xalqı ötən 20 ildə əldə etdiyimiz uğurlara özünün layiqli siyasi qiymətini verib. Bu dövrdə keçirilmiş bütün prezident seçkilərində xalqımız cənab İlham Əliyevin ətrafında səfərbər olmaqla Azərbaycanı tarixin ən qüdrətli dövlətinə çevirən siyasi kursun, Heydər Əliyev ideyalarının davamına səs verib. Eyni zamanda parlament və bələdiyyə seçkilərində də Yeni Azərbaycan Partiyasının namizədləri üstünlük qazanıblar. Bu seçkilərin hər biri göstərib ki, cəmiyyət mövcud siyasi kursa heç bir alternativi qəbul etmir.

Hazırda respublikamız mühüm siyasi hadisə olan prezident seçkiləri ərəfəsindədir. Prezident İlham Əliyevin sərəncamına əsasən, 2024-cü il fevralın 7-də respublikamızda növbədənkənar prezident seçkiləri keçiriləcək. Bununla əlaqədar olaraq, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin dekabrın 15-də keçirilən genişləndirilmiş iclasında möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi tək partiyamızın sıralarında birləşən yüz minlərlə vətəndaşımızın deyil, bütün xalqın istəyinin ifadəsinə çevrildi. Bu mənada İlham Əliyev yalnız YAP-ın deyil, bütün xalqın namizədidir.

Torpaqlarımızın azadlığı və erməni separatizminə son qoyulması yeni reallıqlar yaradıb. Qarşıdan gələn prezident seçkiləri də bu reallıqlar şəraitində keçiriləcək. Belə ki, müstəqilliyimizin bərpasından sonra ilk dəfədir ki, seçkilər torpaqlarımızın tam azadlığı şəraitində baş tutacaq. Ona görə bu seçki də Zəfər seçkisi və ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti kimi tarixə düşəcək. Və əlbəttə ki, hər bir azərbaycanlı ona Zəfər və məğrurluq yaşadan, ərazi bütövlüyümüzü bərpa edən, Qarabağ və Şərqi Zəngəzuru yenidən quran möhtərəm İlham Əliyevin yanında olacaq. Növbədənkənar seçkilər Prezident İlham Əliyevə yüksək etimadın növbəti bariz göstəricisi kimi tarixə düşəcək.

Bütövlükdə, seçkilərin nəticəsi ötən 20 ilin uğurlarına əsaslanacaq. Xalqımız Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, torpaqlarımızı işğaldan azad edən, erməni separatizminə son qoyan siyasətin davamına səs verəcək.

**Bəxtiyar ƏSGƏROV,**
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Dövlətə və xalqa sədaqətli xidmət örnəyi



Dünya təcrübəsi göstərir ki, dövlətlərin özünəməxsus inkişaf və tərəqqi yolunu müəyyənləşdirən siyasi strategiyalar yalnız xalqına bağlı liderlərin fəaliyyətində reallığa çevrilir. Siyasi liderin ictimai dəstəyinə arxalanaraq milli maraqların təminatçısı olması inqilabi xarakterli nailiyyətlərə yol açır və bunu müstəqil Azərbaycanın nümunəsində də aydın görmək mümkündür.

Müdrik xalqımızın ötən 20 ildə öz taleyini qəlbən inandığı siyasi liderə etibar etməsi hazırda Azərbaycanın iqtisadi və siyasi cəhətdən müstəqil, milli maraqlarını layiqincə müdafiə edən, sayılıb-seçilən dövlətlərdən birinə çevrilməsinə imkan yaradıb. Ölkəmizin müasir tarixində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2003-cü ilin 15 oktyabr seçkiləri xalqımızın seçimində qətiyyən yanılmadığını, Heydər Əliyev siyasi kursunun cəmiyyətin ümumi mənafeyi baxımından alternativsizliyini sübuta yetirib. Dayanıqlı iqtisadi inkişafa, ictimai-siyasi sabitliyin qorunub saxlanılmasına zəmin yaradan, qlobal enerji layihələrinin təminatçısına çevrilən, respublikanın regional və beynəlxalq mövqeyini gücləndirən siyasi kursun layiqli davamçısı - cənab İlham Əliyevin bu seçkilərdəki şəksiz qələbəsi cəmiyyətin həlledici çoxluğunun sosial sifarişi, istək və arzusu idi. Bu əlahiddə seçim xalqımızın təkamülə əsaslanan inkişafı dəstəklədiyini, konkret planlara malik çevik, işlək və monolit komandaya güvəndiyini göstərdi. Ötən mərhələnin möhtəşəm uğurları isə sonrakı dövrdə keçirilən bütün seçkilərdə Heydər Əliyev siyasi kursunun birmənalı zəfərini təmin etdi.

2020-ci ildə ərazilərini işğaldan azad edən, bu ilin sentyabrında isə Qarabağdakı qanunsuz rejimin mövcudluğuna son qoyaraq suverenliyini bərpa edən Azərbaycan növbədənkənar prezident seçkiləri ərəfəsindədir. Ötən 20 ildə qazanılan nailiyyətləri gündəlik həyatında hiss edən orta statistik azərbaycanlının "Niyə məhz İlham Əliyevə səs verməliyik?" sualına cavabı birmənalıdır. Ən azı bu baxımdan ki, mürərəqqi inkişaf strategiyası əsasında respublikamızı daha təminatlı gələcəyə, yüksək sosial rifaha, demokratikləşməyə aparan mövcud siyasi kurs milli ideya səviyyəli bütün hədəflərin reallaşmasını təmin edib.

Cənubi Qafqaz regionunun sülh, təhlükəsizlik və əməkdaşlıq adasına çevrilməsi baxımından bu siyasətin varisliyi dünyanın bir çox aparıcı dövlətinin və təşkilatının da maraq dairəsindədir. Cənab İlham Əliyevin Ulu Öndərin təkmil diplomatiya məktəbində formalaşmış peşəkar, praqmatik siyasətçi olması, çağdaş dünya siyasətini adekvat qiymətləndirməsi, qlobal proseslərə nüfuz etmək bacarığı, respublikamızı bütövlükdə Avropa üçün cəlbedici enerji dövlətinə çevirməsi onun beynəlxalq arenada ciddi siyasi dəstək almasını təmin edir. Bu həm də Prezident İlham Əliyevin sözünə imzası qədər sadiq lider olması, ölkəmizi dünyanın bir-birilə geosiyasi rəqabətdə olan əksqütblü güc mərkəzləri üçün etibarlı tərəfdaşa çevirməsi ilə şərtlənir. Azərbaycan bu gün nadir ölkədir ki, həm Rusiya, həm Avropa İttifaqı ölkələri, həm də ABŞ ilə münasibətlərini bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq meyarları üzərində qurmağı bacarıb. Müxtəlif ölkələrin əlində siyasi alətə çevrilən Ermənistandan fərqli olaraq, ölkəmiz milli maraq və mənafelərini önə çəkərək müstəqil siyasət yürüdür, daxili məsələlərinə müdaxilə cəhdlərinə qarşı barışmaz mövqe tutur.

Xarici siyasətdəki müstəqillik, yürüdülən hücum diplomatiyası ilk növbədə ölkəmizin iqtisadi gücü və qüdrətindən irəli gəlir. Əgər Ulu Öndər Heydər Əliyevin müasirləşmə siyasəti 90-cı illərdə ictimai-siyasi və iqtisadi böhrandan inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü siyasi kurs respublikamızın milli inkişaf modelinin formalaşmasını təmin edib. Son 20 ildə dövlət başçısının iqtisadi siyasətinin əsasında məhz güclü dövlət, sabitlik və sosial rifah dayanıb. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü və qüdrətli dövlətə nail olmaq, hər bir fərdin mənafelərini müdafiə etmək mümkün deyildir. Güclü iqtisadiyyatı olan qüdrətli dövlətin, modern ordunun yaradılması, qlobal təhdidləri zərərsizləşdirən çevik diplomatiyanın həyata keçirilməsi, xalqına və dövlətinə sadiq vətənpərvər gəncliyin yetişdirilməsi uzun illər ərzində xalqımızın qəlbində qubara çevrilmiş Qarabağ düyününün milli maraqlarımıza uyğun çözümünə zəmin yaradıb.

Dövlət başçısı İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı bununla bağlı deyib: *"Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq".*

Ötən tarixi mərhələdə reallaşdırılan inqilabi xarakterli islahatlar dövlət idarəçiliyinin yeni çağırışlar əsasında həyata keçirilməsi ilə şərtlənərək, hökumətin cəmiyyət qarşısında müntəzəm olaraq hesabatlar verməsini də mütərəqqi ənənəyə çevrib. Bu hesabatlar konkret dövrdə qazanılmış uğurların qiymətləndirilməsi və ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında açıq müzakirələrin aparılması, problemlərin həlli yollarının tapılması üçün səmərəli platforma rolunu oynayır.

Prezident İlham Əliyev dövlətə rəhbərlik fəaliyyətinin bütün məqamları arasında qırılmaz bağlılığa, məntiqi ardıcıllığa nail olmaqla dövlət idarəçiliyinin özünəməxsus modelini yaradıb və xalqın mənafeyinə uyğun fəaliyyətini təmin edib. Xüsusi vurğulamaq istərdik ki, 2017-ci il 21 fevral tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunan Mehriban xanım Əliyevanın səmərəli fəaliyyəti ölkədə həyata keçirilən çoxşaxəli islahatların səmərəliliyini daha da yüksəldib. Cəmiyyətin müxtəlif sahələrindəki nailiyyətlərə, yüksək bilik və bacarıqlara malik gənc kadrlar hesabına mükəmməl komanda formalaşdırması Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsindəki uğurlu fəaliyyətini şərtləndirən əsas məqamlar sırasındadır. Cəmiyyətin aztəminatlı təbəqələri ilə apardığı fəal iş, onların problemlərinin həlli istiqamətində atdığı ardıcıl addımlar onun idarəetmə fəaliyyətinin humanist və insanpərvər mahiyyətini bir daha üzə çıxarıb. Birinci vitse-prezident dövlətin sosial-humanitar, təhsil və mədəniyyət siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak edərək yeniləşmə prosesinə sanballı töhfələr verir. Yaxından iştirakı, idarəetmənin modern əsaslarla aparılması və situasiyaların düzgün idarə olunması qarşıya qoyulan vəzifələrin uğurlu icrasını təmin edir.

Vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin açıq, şəffaf, əlçatanlıq və məmnunluq meyarları əsasında qurulması, insanlarda razılıq və ya narahatlıq doğuran məsələlərin müəyyənləşdirilməsi məqsədilə çevik kommunikasiya mexanizmlərinin formalaşdırılması ötən dövrdə aparılan islahatların ana xəttini təşkil edib. "ASAN xidmət", "ASAN kommunal" və "DOST" kimi modern xidmət mərkəzlərinin yaradılması Azərbaycanda idarəetmə sistemində inqilabi dəyişikliklərə yol açıb, şəffaflığı və vətəndaş məmnunluğunu təmin edib.

Mərkəzi və yerli icra hakimiyyəti strukturlarında şəffaflığa, hesabatlılığa, "Açıq cəmiyyət" quruculuğu prinsiplərinə əsaslanan çevik idarəetmə modelinin formalaşdırılması yeni mərhələdə aparılan kadr siyasətinin əsas qayəsində yer alır. Bunlar həm də onu göstərir ki, Azərbaycanda başlanmış islahatlar sistem xarakterlidir və ictimai həyatın bütün sahələrində köklü dəyişikliklərin reallaşdırılması üçün ciddi siyasi iradə mövcuddur. Bu islahatların əsas hədəfi eyni zamanda bəzi mərkəzi və yerli yerli icra hakimiyyətləri barəsində uzun illər ərzində formalaşmış mənfi ictimai rəyin aradan qaldırılmasıdır. Müasir idarəetmə meyarlarına uyğunlaşmaq istəməyən məmurlar barəsində sərt ölçülərin götürülməsi, onlardan bir qisminin cinayət məsuliyyətinə cəlb olunması ilk növbədə qanunun aliliyinin təmin edilməsi istiqamətində atılan prinsipial addımlar olub.

Sözünə bütövlüyü, verdiyi bütün vədləri reallaşdırması dövlət başçısının cəmiyyətin həlledici çoxluğunun rəğbət və etimad göstərdiyi liderə çevrilməsinin başlıca səbəblərindən biridir. Nəyi nə zaman və necə edəcəyini hər kəsdən daha yaxşı bilən Prezident İlham Əliyevin 2023-cü ildə ölkəmizin suverenliyini təmin etməsi bu reallığı bir daha təsdiqləyib. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində hərbçilər qarşısındakı tarixi çıxışı zamanı deyib: *"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".*

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin dekabrın 15-də keçirilmiş iclasında cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də baş tutucaq növbədənkənar prezident seçkilərinə namizədliyinin irəli sürülməsi cəmiyyətin sosial sifarişinə əsaslanmaqla, Azərbaycanın hərtərəfli inkişaf və tərəqqisi, eləcə də həyata keçirilən islahatların davamlılığının təmini baxımından mühüm əhəmiyyət kəsb edir. Bu qərarın cəmiyyətin müxtəlif zümrələri tərəfindən dəstəklənməsi ilk növbədə Heydər Əliyev siyasi kursuna olan yüksək etimaddan, bu kursu əzmlə həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin siyasi idarəçilik və liderlik keyfiyyətlərinə olan dərin inamdan qaynaqlanır.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərliyinin bütün dövrlərində ardıcıl və səmərəli islahatlar hesabına formalaşdırdığı inkişaf potensialının ötən 20 ildə reallığa çevrilməsi, Azərbaycanın ideyalardan gerçəkliyə, nəzəriyyədən təcrübəyə qədəm qoyaraq müasir tarixinin ən parlaq və güclü dövrünü yaşaması danılmaz həqiqətdir. Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbediciliyinin qorunması, milli iqtisadiyyatın müxtəlif sahələrinə yönələn investiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması, vətəndaşların sosial müdafiəsi ölkədə yürüdülən iqtisadi siyasətin başlıca qayəsini təşkil edib.

Ötən dövrdə qazanılan sosial-iqtisadi nailiyyətlərdən söhbət gedərkən Azərbaycan Prezidentinin dövlətə rəhbərliyinin ilk aylarına təsadüf edən 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanın əhəmiyyətini xüsusi qiymətləndirmək lazımdır. Çünki keçid dövrünə xas bir sıra köklü problemlərin həlli prosesinə məhz həmin fərmanla start verilib. Konseptual əhəmiyyətli bu sənəd sonrakı mərhələlərdə imzalanaraq uğurla icra edilən regional dövlət proqramları üçün baza rolunu oynayıb, qısa zaman ərzində ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə təkan verib.

Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı ölkədə yeniləşmə, davamlı tərəqqi, sosial-iqtisadi tarazlıq, modern islahatlar, urbanizasiya problemlərinin həlli və digər sistemli hədəflərin reallaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" regionların tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması üçün kompleks tədbirlər müəyyənləşdirdi. Sonrakı mərhələdə qəbul olunan və 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən daha 3 regional proqram bölgələrin sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri nəzərəçarpacaq səviyyədə aradan qaldırdı, infrastrukturun yeniləşdirilməsinə imkan verdi. Dövlət proqramları çərçivəsində eyni zamanda 4 minə yaxın məktəb, yüzlərlə uşaq bağçası, tibb müəssisəsi tikildi və ya əsaslı təmir edildi. Həmin proqramlar əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manata çatdı.

Statistik göstəricilər son 20 ildə ölkə iqtisadiyyatının davamlı inkişafını və dayanıqlılığını bir daha təsdiq edir. Respublikamızın Dünya Bankının dəyərləndirməsinə əsasən, 2002-2022-ci illərdə yuxarı ortagəlirli ölkələr qrupuna daxil olunması, ümumi daxili məhsulun real həcminin 4 dəfə, dövlət büdcəsi xərclərinin 30 dəfə, illik sosial müdafiə xərclərinin 20 dəfədən çox, minimum əməkhaqqının 38 dəfə, orta aylıq əməkhaqqının 12 dəfə, minimum pensiyanın 14 dəfə artması, orta aylıq əməkhaqqının 77,4 manatdan 839,4 manata, xarici ticarət dövriyyəsinin 3,8 milyard ABŞ dollarından 52,7 milyard dollara, ixracın həcminin 2,2 milyard ABŞ dollarından 38,1 milyard dollara, strateji valyuta ehtiyatlarının 1,4 milyard ABŞ dollarından 66,1 milyard dollara yüksəlməsi əldə olunan uğurların miqyası barədə dolğun təsəvvür yaradır.

Hesabat dövründə iqtisadiyyata yönəldilən investisiyaların ümumi həcminin 310,4 milyard dollar, dövlət proqramları əsasında regionlara yatırılmış investisiyaların həcminin 104 milyard manat təşkil etməsi, sahibkarlıq subyektlərinin sayının 180 mindən 1,5 milyona qədər artması, sənaye məhsulunun ümumi həcmində özəl sektorun payının 54,9 faizdən 87,6 faizə qədər yüksəlməsi, bölgələrdə 52 mindən artıq yeni müəssisənin yaradılması ölkədə biznes mühitinin davamlı şəkildə sağlamlaşdırılması tədbirlərinin nəticəsi kimi xüsusi qeyd edilməlidir. Bu və digər məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla, 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi 5,1 faizə enib.

Azərbaycanın İkinci Qarabağ müharibəsi və lokal antiterror tədbirləri zamanı qazandığı tarixi qələbələrdən sonra işğaldan azad edilmiş ərazilərin ümumi iqtisadiyyata inteqrasiyası prosesi genişlənərək, regional inkişaf proseslərinin ayrılmaz tərkib hissəsinə çevrilib. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına müntəzəm səfərləri, həyata keçirilən bərpa və yenidənqurma işlərinin gedişi ilə tanış olması, azad edilən ərazilərdə quruculuq və bərpa işlərinə 12 milyard manatdan çox vəsaitin xərclənməsi Böyük qayıdış proqramının icrasının hökumət üçün prioritet məsələ olduğunu bir daha təsdiqləyir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" bu istiqamətdə işlərin sistemli, ardıcıl, əhatəli, konkret plan üzrə aparılmasına təminat yaradır. Azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin dirçəldilməsi, əlverişli biznes və sərmayə mühitinin formalaşdırılması, sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq şəxslərin maliyyə resurslarına çıxışının genişləndirilməsi, resursların maya dəyərinin azaldılması və digər mühüm tədbirlər dövlət proqramının əhəmiyyətini artırır.

Prezident İlham Əliyevin sahibkarlığın inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər də ardıcıllığı və sistemli xarakter daşıması ilə diqqəti çəkib. Ötən dövrdə bir neçə dəfə yerli sahibkarlarla görüşən dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləyib, onlara hər zaman zəruri dövlət dəstəyinin göstəriləcəyini deyib. İş adamları bunu xüsusilə də pandemiyanın geniş vüsət aldığı 2020-2021-ci illərdə qabarıq hiss ediblər. Bundan əlavə, inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını qətiyyətlə pisləyib, bu münasibət konkret qərarlarla müşayiət olunub.

Ümumilikdə, 20 il əvvəl Azərbaycan ilə eyni səviyyədə qərarlaşan postsovet ölkələri indi iqtisadi inkişaf səviyyəsinə görə respublikamızla rəqabətə davam gətirə bilmirlər. Əvvəllər Azərbaycanın iqtisadi inkişaf dinamikası daha çox enerji resurslarına əsaslanırdısa, hazırda iqtisadi şaxələndirmənin nəticəsi olaraq qeyri-neft sektoru üstün artım tempi nümayiş etdirir. Milli Məclisdə qəbul olunmuş 2024-cü ilin dövlət büdcəsinin statistik göstəriciləri də deməyə əsas verir ki, "Neft bizim üçün məqsəd deyil, iqtisadiyyatı inkişaf etdirmək üçün vasitədir" deyən dövlət başçısının neft amilindən asılılığın azaldılması istiqamətində həyata keçirdiyi siyasət artıq real nəticələrini verməyə başlayıb.

Azərbaycanın möhtəşəm uğurlarını, onu dünyanın sayılıb-seçilən, mövqeyi nəzərə alınan dövlətlərdən birinə çevrilməsini şərtləndirən mühüm amillər sırasında böyük uzaqgörənliklə reallaşdırılan qlobal neft-qaz, nəqliyyat layihələrinin əhəmiyyətini də xüsusi qeyd etmək lazımdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi, bir sıra perspektivli qaz yataqlarının kəşf olunması, şərqlə qərbi qovuşduracaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi, Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan "Cənub qaz dəhlizi"nin - TANAP, TAP layihələrinin gerçəkləşdirilməsi, ölkəmizin Orta dəhliz nəqliyyat sistemindəki rolunun gücləndirilməsi və nəhayət, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar bu baxımdan xüsusi qeyd olunmalıdır. "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsini təşkil edəcək, bütün bölgə üçün yeni imkanlar açacaq Zəngəzur dəhlizi türk dünyasını, Avropanı və bütün qonşu ölkələri birləşdirəcək qlobal əhəmiyyətli nəqliyyat infrastrukturu olacaqdır.

Ölkəmizin həyata keçirdiyi qlobal layihələr və mütərəqqi islahatlar beynəlxalq səviyyədə yüksək qiymət alır. "Doing Business 2020" hesabatında Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib. Davos Dünya İqtisadi Forumunun 2020-ci ildəki hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb.

Dövlət başçısının reallaşdırdığı ardıcıl tədbirlər və dərin islahatlar nəticəsində hazırda Azərbaycan sabit və təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı, Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş və dünya kosmos ailəsinin üzvüdür. 2013-cü ildə "Azerspace-1" telekommunikasiya, 2014-ci ildə "Azersky" Yerin məsafədən müşahidəsi, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyklərinin orbitə çıxarılması təkcə texnoloji-innovativ və elmi layihələrin reallaşdırılması deyil, həm də Vətən müharibəsində ölkəmizin hərbi uğurlarının təmini, təhlükəsizlik məsələlərinin diqqətdə saxlanılması baxımından da səmərəli olub.

Ölkəmiz regionun neft və qaz hasilatçılarından biri olmaqla yanaşı, yeni çağırışları əsas tutaraq, malik olduğu zəngin alternativ enerji mənbələrindən istifadə istiqamətində davamlı tədbirlər həyata keçirir. Xüsusi vurğulamaq istərdik ki, bir müddət əvvəl Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasının (COP28) yekun sənədi Azərbaycanın alternativ enerji mənbələrindən səmərəli istifadə və karbonsuzlaşdırma sahəsində həyata keçirdiyi tədbirlərin dünyada ciddi dəstək aldığını göstərib. COP29 beynəlxalq tədbirinin gələn il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar müstəqil respublikamızın dünyada böyük nüfuz və hörmətə malik olduğunu bir daha təsdiqləyib. Bu qlobal tədbir çərçivəsində müxtəlif ölkələrin dövlət və hökumət başçıları, rəsmi şəxsləri, habelə dünyanın siyasi, iqtisadi, biznes və digər mərkəzlərinin təmsilçiləri də daxil olmaqla, ümumilikdə 70-80 minədək əcnəbi qonağın respublikamıza gəlişi gözlənilir. Bu, ölkə həqiqətlərinin, eləcə də Azərbaycanın "yaşıl enerji" və turizm potensialının dünyada təbliği baxımından yeni fürsətlər yaradır.

Fəaliyyəti Sumqayıt şəhəri ilə bağlı olan iş adamı kimi xüsusi vurğulamaq istərdim ki, ötən 20 ildə şəhərin hərtərəfli inkişafı və problemlərinin həlli Prezident İlham Əliyevin diqqət mərkəzində olub. Dövlət başçısı şəhərə dəfələrlə səfər etməklə yanaşı, 2009-cu ildə Sumqayıtın 60, 2019-cu ildə isə 70 illik yubileylərinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bunlar Sumqayıta göstərilən yüksək diqqət və qayğının tərkib hissəsi olmaqla, şəhər ictimaiyyəti, eləcə də iş adamları tərəfindən də böyük razılıqla qarşılanıb.

İqtisadçı alim kimi hələ 90-cı illərdə Sumqayıt şəhərinin inkişaf perspektivini 3 mühüm parametr (yaşayış məntəqəsi; ərazi-təsərrüfat kompleksi; ictimai iqlim zonası kimi) üzrə dəyərləndirmişdik. Sumqayıt şəhərinin son 20 ildə keçdiyi dinamik inkişaf yolu bu təsnifatın reallığa adekvatlığını bir daha təsdiqləyib. Bu gün Sumqayıt şəhəri böyük yaşayış məntəqəsi olmaqla yanaşı, nəhəng sənaye və ərazi-təsərrüfat mərkəzidir. Məhz bu səbəbdən də Azərbaycan Prezidenti İlham Əliyev şəhərin respublikanın iqtisadi-sənaye və ictimai həyatındakı rolunu yüksək dəyərləndirir, onun paytaxtla bərabər səviyyədə inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirir. Respublikanın və paytaxtın bütün guşələrində müşahidə edilən abadlıq, tərəqqi və yüksəliş tarixən gənclər şəhəri kimi tanınmış Sumqayıtda da özünü qabarıq göstərir.

Qeyd edilən bütün bu uğurlar xalqımızın 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində azad və tərəddüdsüz, həm də doğru seçim edəcəyinə zərrə qədər də şübhə yeri qoymur. Azərbaycan vətəndaşının dəyişməz seçimini dövlətin və xalqın maraqları, eləcə də regiondakı yeni geosiyasi reallıqlar şərtləndirir.

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***




# Əsrə bərabər 20 illik inkişaf

**Bu günlərdə ad günü münasibətilə Prezident İlham Əliyevə dünyanın hər yerindən, müxtəlif dövlətlərin rəhbərlərindən, hökumət başçılarından, nüfuzlu beynəlxalq təşkilatların sədrlərindən, ictimai xadimlərdən təbrik məktubları gəlməkdə davam edir. Rusiya Prezidenti Vladimir Putindən, Çin Xalq Respublikasının Sədri Si Cinpindən, İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyndən, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilldən, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikdən, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Can Mindən və daha kimlərdən. Məktublarla mətbuatda tanışlıq göstərir ki, bunlar əlamətdar günlərdə göndərilən protokol qaydası təbriklər deyildir. Bu məktubların hər biri Prezident İlham Əliyevin dünyanın nüfuzlu prezidentləri, siyasi liderləri ilə bir cərgədə dayanmasının təsdiqidir.**

## İlham Əliyev siyasətinin təntənəsi

Prezident İlham Əliyevə ünvanlanan hər bir təbrik məktubu eyni zamanda Azərbaycanın ötən 20 ildə keçdiyi inkişaf yoluna verilən qiymətin və respublikamıza olan yüksək qlobal ehtiramın təcəssümüdür. 20 il az zaman kəsiyi deyil, amma bu dövrdə İlham Əliyevin rəhbərliyi ilə respublikamızda gedən inkişaf proseslərinin həcmi iki onilliyin, hətta bir qərinənin miqyasından çox kənara çıxır. İstər yerli, istər regional, istər beynəlxalq səviyyədə Azərbaycanın nailiyyətləri cənab İlham Əliyevin düşünülmüş və əsaslandırılmış islahatlarından, yalnız və yalnız dövlətin və xalqın milli maraqlarını ehtiva edən siyasi kursundan xəbər verir.

Bu sətirləri yazarkən İlham Əliyevin 20 il əvvəl, ilk dəfə Azərbaycan Prezidenti seçilərkən andiçmə mərasimində etdiyi çıxışı xatırlayıram. Həmin çıxışında Azərbaycanın yeni seçilmiş Prezidenti kimi fəaliyyət proqramından, qarşıda dayanan hədəflərdən danışan İlham Əliyev demişdi: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Heydər Əliyev siyasətinin xalqımıza bəxş etdiyi nailiyyətlər həm sovet dövrü, həm müstəqillik tariximizin şərəfli irsidir. Heydər Əliyev siyasəti bugünkü və gələcək nəsillərin dönə-dönə oxuyacağı, müraciət edəcəyi və öyrənəcəyi dövlətçilik təlimləridir. Ulu Öndərin müəyyən etdiyi siyasi kursun və inkişaf strategiyasının təməlində müstəqil və qüdrətli Azərbaycan dövlətçiliyi, respublikamızın təhlükəsizliyi, xalqın yüksək rifahı dayanır. Xalqımız 2003-cü ildə Prezident İlham Əliyevə etimad göstərəndə Heydər Əliyev ideyaları ətrafında səfərbər olmuşdu. Ötən 20 ilin hər bir siyasi, iqtisadi və sosial nəticəsi göstərir ki, Prezident İlham Əliyev siyasi varis kimi, Ulu Öndər Heydər Əliyevin ideyalarını layiqincə davam etdirməklə, həm də onları dövrün çağırışlarından irəli gələrək daha da zənginləşdirir, yeni ştrixlər əlavə edir. Bu illər ərzində respublikamızın hər bir inkişaf nümunəsi Heydər Əliyev ideyalarının təcəllisi, İlham Əliyev siyasətinin təntənəsidir.

## Qürur doğuran nümunələr

Ötən 20 ildə Azərbaycanın keçdiyi inkişaf yolu olduqca möhtəşəm və qürurvericidir. Hər bir azərbaycanlı bu dövrdə Prezident İlham Əliyevin inkişafla bağlı qətiyyətli fəaliyyətinə şahidlik edib. Məsələn, birmənalı şəkildə deyə bilərik ki, bu 20 ildə Azərbaycanın reallaşdırdığı bütün layihələrin təməlində Prezident İlham Əliyevin milli maraqları rəhbər tutan təşəbbüsləri və siyasi iradəsi dayanır.

Məhz cənab Prezidentin sayəsində və Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərləri bütün maneələri aşaraq ərsəyə gətirildi. İlham Əliyev bu gün Avropadan Şərqə və əksinə nəqliyyat yollarının mühüm seqmenti olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin müəllifidir. Azərbaycan Prezidentinin siyasi diplomatiyası Avropa İttifaqının siyasi və iqtisadi strukturlarını "Cənub qaz dəhlizi" ətrafında səfərbər etdi və bu gün bir neçə Avropa ölkəsi Xəzərdən hasil olan qazla isinir. Mütərəqqi enerji siyasətinin nəticəsi kimi Azərbaycan uzun illərdir ki, qlobal enerji təhlükəsizliyi dialoqunun söz sahibi olan tərəfidir.

20 ildə Azərbaycan regionun ən dinamik inkişaf edən dövləti kimi digər sahələrdə də yüksəliş nümunələri yaratdı. Bu illər ərzində Azərbaycan iqtisadiyyatında ümumi daxili məhsulun 4 dəfədən çox artması dünyada nadir rast gəlinən nümunələrdəndir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Bunlara paralel olaraq bu dövrdə orta aylıq əməkhaqqının 12 dəfə, orta aylıq pensiyanın 18 dəfə, yaşa görə orta aylıq pensiyanın 19 dəfə, əlilliyə görə pensiyanın 14 dəfə artması, neft kapitalının insan kapitalına çevrilməsi, 2003-cü illə müqayisədə yoxsulluq səviyyəsinin 44,7 faizdən 5,5 faizə enməsi göstərir ki, iqtisadi inkişafın təməlində ilk növbədə vətəndaşların sosial rifahının təmin edilməsi dayanır.

Bu illər ərzində cəmiyyət həyatının digər sahələrində, o cümlədən hüquq sferasında mütərəqqi islahatlar keçirməklə zamanla ayaqlaşan inkişaf təmin edilib. Zamanın çağırışları ilə əlaqədar zərurətə çevrilən hüquq islahatları hər bir hüquqi cəmiyyətlərdə inkişafın fundamental əsaslarındandır. O cümlədən idarəçilikdə yeni yanaşma və standartların formalaşması, informasiya kommunikasiyalarının cəmiyyətə daxil olması bütün sahələrdə olduğu kimi, hüquq sferasında da davamlı islahatlara yol açır. Bu reallığı düzgün dəyərlərindən respublikamızda dövlət həyatının bütün sahələrində baş verən keyfiyyət dəyişiklikləri hüquq sferasından da yan ötməyib. Həm bu sahədə qanunvericilik təkmilləşdirilib, həm də dövlət qurumlarının fəaliyyəti ən yüksək standartlara çatdırılıb. Xüsusi ilə qeyd edilməlidir ki, hüquq islahatları çərçivəsində respublikamızda yeni məhkəmə infrastrukturu yaradılıb, yeni nəsil hakim korpusu formalaşdırılıb, vətəndaşların ədalət mühakiməsinə müraciət imkanları asanlaşdırılıb. Bu baxımdan Azərbaycan dövlətinin hüquqi dövlət kimi nail olduğu uğurların bir istiqamətini hüquq sferası təşkil edir.

## Torpaqlarımızı azad edən, erməni separatizminə son qoyan Sərkərdə

Prezident İlham Əliyevin fəaliyyətinin ən böyük hadisələri, əlbəttə ki, 30 il işğal altında olan torpaqlarımızın azad edilməsi və Qarabağda erməni separatçılığının tarixdən birdəfəlik silinməsidir. Cənab İlham Əliyev hələ Azərbaycan Prezidenti kimi ilk dəfə and içəndə bu məsələ üzərində xüsusi dayanmış, nəyin bahasına olursa-olsun torpaqlarımızın işğaldan azad ediləcəyini bəyan etmişdi.

Dövlət başçısı kimi İlham Əliyev ilk gündən bu istiqamətdə sistemli və ardıcıl iş apardı. Sülh danışıqlarına sadiq qalmaqla, Prezident İlham Əliyev torpaqlarımızın müharibə yolu ilə azad edilməsinin mümkünlüyünü də hər zaman bəyan etdi. Bunun üçün həm də ordu islahatları həyata keçirildi. İlham Əliyev müdrik və uzaqgörən siyasətçidir. Bu mənada Ermənistanın sülh danışıqlarını imitasiya etdiyini, danışıqlar vasitəsilə vaxt udmağa çalışdığını İlham Əliyev yaxşı bilirdi. Elə vasitəçilər də zaman ötdükcə, nəsillər dəyişdikcə Azərbaycanın Ermənistanın tələbləri ilə razılaşacağını düşünürdülər. Prezident İlham Əliyev isə ordumuzun döyüş imkanlarını artırmaqla, beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı siyasətinin təsdiqinə nail olmaqla, o cümlədən Azərbaycanın güclü qlobal mövqelərini təmin etməklə, torpaqlarımızın güc yolu ilə azad ediləcəyi təqdirdə respublikamız üçün əlverişli şərait və imkanlar formalaşdırdı. Beləliklə, 2020-ci ilin 44 günlük Vətən müharibəsi bir daha Prezident İlham Əliyevin nə qədər uzaqgörən siyasi lider olduğunu təsdiqlədi. Dövlətimizin başçısı öz müdrik və qətiyyətli siyasəti ilə müharibə meydanında torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu. Eyni zamanda İlham Əliyev bu müharibədə və ondan sonra başda Fransa olmaqla, dünya erməniliyini siyasi-diplomatik sferada darmadağın etdi. 2023-cü ilin sentyabrında Qarabağın erməni separatçılarından azad edilməsi Vətən müharibəsindəki Zəfərdən sonra xalqımızın növbəti tarixi qələbəsi oldu. Bütün bunlar həm də ondan xəbər verir ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin arzuları çin olur.

Bu gün Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru yenidən qurur, keçmiş məcburi köçkünlərin öz doğma evlərinə dönüşünü təmin edir. Artıq bərpa edilən 2 şəhərdə və 3 kənddə yeni həyat başlayıb. İlham Əliyevin iradəsi ilə torpaqlarımızın bərpası, bu istiqamətdə respublikamızın Birinci-vitse prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi tədbirlər olduqca fərəhli və qürurludur. Xüsusən, Heydər Əliyev Fondunun xətti ilə Qarabağ və Şərqi Zəngəzurda tarixi abidələrimizin bərpası milli-mənəvi dəyərlərimizə olan dərin ehtiramın göstəricisidir.

Bütövlükdə isə işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işləri bir daha Azərbaycan dövlətinin qüdrətini dünyaya bəyan edir. Görülən işlərin sürəti göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası zamanı qabaqlamaqla yerinə yetiriləcək.

Azərbaycanın son 20 ili olduqca möhtəşəm uğurların yazıldığı dövlətçilik salnaməsidir. Bu şərəfli salnaməni yaradan Prezident İlham Əliyevin adı həm də torpaqlarımızı işğaldan azad edən, Qarabağda iki əsrə yaxın davam edən erməni separatçılığına son qoyan sərkərdə kimi tariximizə həkk olunub. Ona görə bu siyasətin davam etməsi Azərbaycan cəmiyyətinin, bütün xalqımızın siyasi və sosial sifarişidir. Əminik ki, hər zaman düzgün və müdrik qərarlar verən xalqımız qarşıdan gələn növbədənkənar prezident seçkilərində də cənab İlham Əliyevin ətrafında səfərbər olacaq və bugünkü uğurlarımızın davamlı olmasına, Azərbaycanın daha da inkişafına və qüdrətlənməsinə səs verəcək.

***Bəhram ZAHİDOV,***
*hüquq elmləri doktoru, professor*

# Dünya üçün örnək

**Azərbaycan sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşdiyindən əsrlər boyu Asiya ilə Avropa arasında körpü funksiyasını yerinə yetirib, bu da ölkəmizdə mədəni müxtəlifliyin yaranmasında mühüm rol oynayıb. Çoxmədəniyyətli, çoxmillətli diyar olan Azərbaycanda tarixən müxtəlif xalqlar, millətlər azad, firavan yaşamış, özlərinə hər zaman tolerant münasibət görmüş, öz etnik-mədəni xüsusiyyətlərini heç bir təqibə məruz qalmadan inkişaf etdirə bilmişlər. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin və tolerantlığın beşiyidir.**

Multikulturalizm ənənələri Azərbaycanda ta qədim zamanlardan mövcud olub. Azərbaycan dünyanın ən sabit, multikulturalizm ənənələrini yaşadan, onu qoruyan ölkələrdəndir. Tarixin müxtəlif dövrlərində Azərbaycanda məskunlaşan etnik və dini icmalar ölkənin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayırlar. Bu gün dövlətimizin yürütdüyü məqsədyönlü siyasət ilə formalaşan multikultural mühitdə etnik-dini icmalar etnomədəni xüsusiyyətlərini, inanclarını, yaşam tərzlərini və adət-ənənələrini qoruyub saxlayırlar. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi dövlətin inkişafının ən yüksək mərhələsidir.

Multikulturalizm Azərbaycan tarixində silinməz iz qoyan Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasının əsas istiqamətlərindən birini təşkil edirdi. Onun rəhbərliyi altında ölkəmizdə xalqımızın multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində mühüm addımlar atıldı. Heydər Əliyevin müdrik rəhbərliyi və uzaqgörənliyi ilə Azərbaycan xalqının unikal multikultural dəyərlərinin qorunması istiqamətində həyata keçirilən uğurlu siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir.

Bu gün Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar bərabər, sülh şəraitində yaşayırlar. Etnik və dini azlıqların bütün hüquqları Azərbaycan qanunvericiliyində öz əksini tapıb. Onların öz dillərində məktəb, kitabxana, məscid, kilsə, sinaqoq, teatr, qəzetləri var, dövlət strukturlarında, ictimai təşkilatlarda, seçkili orqanlarda təmsil olunurlar. Bütün bunlar Prezident İlham Əliyevin apardığı uğurlu multukulturalizm siyasətinin nəticəsidir. Bu gün inkişafımızın arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Azərbaycan milli, dini mənsubiyyətindən asılı olmayaraq, vahid vətəndaş birliyinin olması ilə Cənubi Qafqazın ən sabit ölkəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu multikulturalizm siyasəti ölkəmizdə etnomədəni inteqrasiya proseslərinin sürətlənməsinə güclü təkan verir. Onun beynəlxalq müstəvidə əks olunmasına gəldikdə isə sivilizasiyalar və mədəniyyətlər arasında, fərqli konfessiyalar arasında qarşılıqlı faydalı və bərabərhüquqlu dialoqun formalaşmasına, Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi mövqeyinin daha da güclənməsinə əhəmiyyətli təsir göstərir. Mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması istiqamətində Azərbaycan hər zaman mütərəqqi təşəbbüsləri ilə öndə olub. 2008-ci ildə irəli sürülən "Bakı prosesi" buna gözəl nümunədir. Azərbaycanın belə bir qlobal hərəkatın təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, azsaylı xalqların və zəngin mədəni müxtəlifliyin olması dayanırdı. "Bakı prosesi" dünya ölkələri tərəfindən qəbul olundu və qlobal hərəkata çevrildi.

"Bakı prosesi"nin davamı olaraq 2011-ci ildə Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ICESCO-nun tərəfdaşlığı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olundu. Bütün bu proseslərin davamlı olması onu göstərirdi ki, Azərbaycanda multikulturalizm və aparılan multikulturalizm siyasəti tarixi köklərə söykənir.

Multikulturalizmin Azərbaycan modeli etnomədəni rəngarəngliyin sosial-mədəni və hüquqi müstəvidə təminatı üçün müxtəlif etnik mədəniyyətlərin dirçəldilməsini, qorunmasını və inkişafını dəstəkləyib, dini-etnik icmaların Azərbaycan cəmiyyətinə fəal inteqrasiya olunması üçün əlverişli şərait yaradıb.

Dövlət başçısı multikulturalizmin və tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrilməsini bir nümunə olaraq dünyaya tanıtmaq, onun əldə etdiyi təcrübəni inkişaf etdirmək və təbliğini gücləndirmək istiqamətində də mühüm addımlar atıb. Belə ki, sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir. Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq dövlət başçısının 2014-cü il 15 may tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Fərmana əsasən, mərkəzin qarşısına multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və onun təbliği mexanizmini hazırlamaq, etnomədəni müxtəlifliyi azərbaycançılıq məfkurəsinin inkişafına yönəltmək, müxtəlif xalqlara aid mədəni irsi öyrənmək, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək, Azərbaycan Respublikasının, multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək kimi mühüm vəzifələr qoyulmuşdur. Prezident İlham Əliyev çıxışlarından birində vurğulayıb: "Bizim ölkədə multikulturalizm ənənələri hər zaman güclü olub və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu dəyərlərin təşviqi istiqamətində hökumətimizin atdığı daha bir addım idi".

Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti sərəncam imzalamışdır. "Multikulturalizm ili" elan olunması ölkəmizdə böyük ruh yüksəkliyi ilə qarşılandı. Bu qərarın verilməsi həm də ölkəmizdə yaşayan etnik, dini azlıqlara olan diqqət idi. Bununla biz eyni zamanda öz milli-mənəvi, tarixi dəyərlərimizi bir daha dünya ictimaiyyətinə çatdırmaq imkanı əldə etdik. "Multikulturalizm ili"nin əsas məqsədi Azərbaycan xalqının birgəyaşayış, tolerantlıq ənənələrinin dünyaya daha geniş şəkildə təqdim edilməsi idi. Prezident İlham Əliyev çıxışında bildirib ki: "Azərbaycanda bu il "Multikulturalizm ili" elan edilibdir. Bu da xüsusilə indiki şəraitdə dünyaya bir mesajdır. Azərbaycan cəmiyyəti əsrlər boyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir". "Multikulturalizm ili" çərçivəsində keçirilən tədbirlər Azərbaycan multikulturalizm siyasətinin, multikulturalizm modelinin yerli və beynəlxalq səviyyədə təbliğinə böyük töhfələr verdi.

Azərbaycan Prezidenti İlham Əliyevin multikulturalizmin və tolerantlığın inkişafına, möhkəmləndirilməsinə və təbliğinə xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə etnomədəni münasibətlər özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda müxtəlif xalqların, fərqli dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma şəraitində birgə yaşayır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu, Azərbaycanda formalaşmış vətəndaş həmrəyliyinin, sağlam etnik və dini münasibətlərin nəticəsidir.

Prezident İlham Əliyevin apardığı uğurlu multikulturalizm siyasəti özünü Azərbaycan xalqının şanlı qələbəsi ilə başa çatmış 44 günlük Vətən müharibəsində də göstərdi. Müharibədə etnik mənsubiyyətindən, dinindən, dilindən asılı olmayaraq, hamı "dəmir yumruq" ətrafında birləşdi. Onları qələbəyə ruhlandıran əsas amillərdən biri də məhz Müzəffər Ali Baş Komandana xalqımızın böyük inamı, etimadı və etibarı idi. Birinci Qarabağ savaşında olduğu kimi, 44 günlük Vətən müharibəsində də Azərbaycanın Ordusunun sıralarında ölkəmizdə yaşayan müxtəlif xalqların yüzlərlə, minlərlə nümayəndələri - əsgər və zabitləri xidmət etmiş, Vətənin müdafiəsinə qalxmışlar. Onların hər biri ölkəmizin ərazi bütövlüyünün bərpası naminə canından keçməyə hazır olduğunu misilsiz şücaətləri ilə sübuta yetirmişdir. Yüzlərlə şəhid arasında müxtəlif xalqların övladlarının - Aqarunovların, Yakovlevlərin, Polovinkoların, Senyuşkinlərin və başqalarının əziz xatirəsini Azərbaycan xalqı əbədi yaşadacaq, heç zaman unutmayacaq. Prezident İlham Əliyevin sözləri ilə desək: "Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla inkişaf etdirilən multikulturalizmlə bağlı böyük təcrübə əldə edilib. Bu gün ölkəmizin multikulturalizm təcrübəsi dünyanın bir sıra dövlətlərinin diqqətini cəlb edir və öyrənilir. Bu təcrübənin əhəmiyyətindən danışan Prezident İlham Əliyev vurğulayıb: "Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır". Bu bir daha təsdiq edir ki, Azərbaycan dünyaya sülh mesajı ötürür və əmin-amanlığın hakim olmasında maraqlıdır.

***Rəvan HƏSƏNOV,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru***

# Tarixi nailiyyətlərin müəllifi



**Güclü lider insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal, ümumi ideya, prinsip və məqsədlər ətrafında birləşdirir və düzgün hədəflərə çatdırır. Bu, dəyişməz qanunauyğunluqdur.**

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən son 20 ildə görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın əsaslarını təşkil edir. Dövlətimizin başçısı müasir baxışları, yanaşmaları, yüksək siyasi məharəti və intellektual davranışları ilə ölkəmizin siyasi mühitinə yeni bir mədəniyyət gətirir. Bu mühitdə yeni standartlar müəyyənləşdirir.

Liderin gücü, nüfuzu həm də onun təsir imkanlarının coğrafi əhatə dairəsi ilə ölçülür. Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan Prezident İlham Əliyevin həyata keçirdiyi həm daxili, həm də xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Prezident İlham Əliyev ölkəni öndə gedən dövlətlər sırasına yüksəldib.

2003-cü ilin 15 oktyabrında dövlətimizin başçısı ona yüksək etimad göstərərək Azərbaycanın gələcək taleyini etibar etmiş xalqına verdiyi bütün sözləri tutdu. Ölkəmizin milli maraqlarını bu illərdə qətiyyətlə müdafiə etdi, heç bir çətinlik, təzyiq və təhdid dövlət rəhbərimizi bu yoldan çəkindirmədi. Prezident İlham Əliyev uzunmüddətli, hərtərəfli və mükəmməl hazırlıqlar sayəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Bayrağımızı Şuşada, Laçında, Xankəndidə ucaltdı. Bununla Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdi. Azərbaycan seçicisinin illər əvvəl ona göstərdiyi etimadın, Ümummilli Lider Heydər Əliyevin onun rəhbərliyi ilə milli dövlətimizin gəlib çata biləcəyi nailiyyətlərə əminliyinin nə qədər doğru olduğunu sübuta yetirdi.

Azərbaycan Prezidenti bütün seçkilərdə, başqa rəqabət meydanlarında həmişə öz opponentlərindən güclü olub. Bu da təbii və məntiqlidir. Çünki çoxlarından fərqli olaraq dövlətimizin başçısı öz gücünü hansısa xarici dairələrdən, müəyyən maraq qruplarından deyil, məhz Azərbaycan xalqından alır. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" kəlamı xalqın qalib ruhunun aynasıdır. Məhz bu ruhun verdiyi sarsılmaz qüvvə ilə, gələcəyə əminliklə dövlət rəhbərimiz doğma yurdunu, Vətənini inkişafa doğru aparır. Dünyamızda tez-tez yaşanan iqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və başqa qlobal çağırışlara rəğmən Prezidentimizin nümayiş etdirdiyi yüksək qətiyyət, peşəkarlıq və xalqın dəstəyinə arxalanan siyasət Azərbaycan dövlətinin son onilliklərdəki uğurlarının əsas səbəbidir.

## Milli birlik

Azərbaycan Prezidenti ölkəmizdə milli vəhdəti daha da gücləndirib. Cəmiyyətimizə yeni siyasi mədəniyyət gətirib. Siyasi baxışlar arasındakı ziddiyyətlərin faydalı dialoq, sağlam diskussiya məcrasına yönəlməsi üçün münbit şərait formalaşdırıb. Qaragüruh düşüncəni aradan qaldırıb. Vətəndaşlıq məsuliyyətini daha da gücləndirib. Milli həmrəyliyin inkişafına xidmət edən demokratik təcrübə yaradıb. Son illərdə ölkəmizdəki siyasi partiyalar tərəfindən imzalanmış birgə bəyanatlar, müraciətlər uğurlu siyasi dialoqun, xalq-dövlət birliyinin təzahürüdür. Siyasi partiyaların Ali Baş Komandan İlham Əliyevə dəstək ifadə edən birgə bəyanat və müraciətlər imzalaması həmrəylik mühitinin inkişafı ilə yanaşı, dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən mütərəqqi təcrübədir. Partiyaların həmrəyliyi ölkəmizdə mövcud siyasi potensialın yalnız dövlətin inkişafına və milli maraqlara xidmət etdiyini göstərir. Cəmiyyətimizdə sağlam əməkdaşlıq mühitini, siyasi dialoqu təşviq edən Azərbaycan Prezidenti qeyd edir ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz: "Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Azərbaycan Prezidenti etibarlı münasibətlərin formalaşmasına xidmət edən islahatları addım-addım davam etdirir. İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişafı Prezident İlham Əliyevin dövlət siyasətinin əsas xarakterik xüsusiyyətlərindəndir. Dövlət rəhbərimizin tapşırığı əsasında üzvlərinin sayından, ölkə ərazisini əhatə vəziyyətindən, siyasi çəkisindən və hər hansı digər amildən asılı olmayaraq, Azərbaycandakı bütün siyasi partiyaların rəhbərləri ilə davamlı şəkildə görüşlərin keçirilməsi kifayət qədər faydalı təcrübə kimi demokratik ənənələrin dərinləşməsinə xidmət edir. Bu baxımdan 2005, 2010, 2015 və 2020-ci illərdə ölkəmizdə keçirilmiş parlament seçkiləri də təkamül yolu ilə demokratik ənənələrin formalaşması prosesinin mühüm tərkib hissəsidir.

Azərbaycanın müstəqil parlamentarizm tarixində ilk dəfə olaraq 2020-ci ildə müxalif siyasi partiyalar da qanunvericilik orqanının rəhbərliyində təmsil olunmağa başlayıblar. Milli Məclisin Sədr müavini, komitə sədri və sədr müavinləri vəzifəsinə müxtəlif siyasi partiyaların nümayəndələri seçiliblər. 10 siyasi partiyanın VI çağırış Milli Məclisdə təmsil olunması bilavasitə ölkədə yaşanan demokratik münasibətlərin təzahürüdür.

Azərbaycan Prezidenti rəhbəri olduğu Yeni Azərbaycan Partiyasındakı yenilənmə prosesləri ilə də nümunə göstərir. Ölkəmizdəki başqa partiyalarda da zamanın çağırışlarına uyğun müasirləşmə təcrübəsi yaradır. Prezident İlham Əliyevin qətiyyəti sayəsində Yeni Azərbaycan Partiyasında aparılan islahatlar buna nümunədir. Partiyanın 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayında yeni Nizamnamə təsdiqlənib, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası, Gənclər Birliyi və Mərkəzi Aparatı formalaşdırılıb. Partiyanın yeni Proqramı qəbul edilib, kadr islahatları aparılıb. YAP-ın fəaliyyətində gənclərə geniş meydan verilib.

## Azərbaycan gəncliyinin lideri

Prezident İlham Əliyev Azərbaycan xalqını təşkil edən bütün sosial qrupların, o cümlədən gəncliyin lideridir. Daim təkmilləşdirilən gənclər siyasəti yeni nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Gənclərin potensialından səmərəli istifadə olunması müasir, müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardandır. Prezident İlham Əliyevin bu təbəqənin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadrlar kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətin uzaqgörən siyasətinin göstəricisidir. Bu dəstək və diqqət sayəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi daha da artıb.

Prezident İlham Əliyev Azərbaycan gəncliyinə inanır, yüksək vəzifələrdə onlara etimad göstərir, öz potensiallarını reallaşdırmaq üçün münbit şərait yaradır və ölkəmizin inkişafına mühüm töhfələr verir. Bu gənclər Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə formalaşmış vətənpərvər, müasir düşüncəli, Vətəninin istiqlalının dəyərini bilən və bu dəyər uğrunda hər cür fədakarlığa hazır olan yeni nəslin təmsilçiləridir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsində bu nəslin gücü ilə torpaqlarımızı düşməndən təmizlədi. Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Azərbaycanın itirilmiş torpaqlarının böyük bir hissəsini düşməndən geri almağa nail oldu. Dünya güclərinin öz məkrli oyunlarını oynamaqdan ötrü 2 əsrdir regionda başımızın bəlasına çevirdikləri erməni layihəsini iflasa uğratdı.

## Rasional idarəçilik nümunəsi

Azərbaycan Prezidentinin fəaliyyəti müasir şəraitdə rasional idarəçiliyə mükəmməl bir örnəkdir. Dövlətimizin başçısı Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli gətirib. Məntiqli mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi formalaşdırıb. Öz fəaliyyəti və davranışları ilə siyasi sistemimizə həm də milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Dövlət rəhbərimizin humanizm ideyalarına və milli dəyərlərə söykənən siyasəti müasir Azərbaycan dövlətini gücləndirir, onların ən yüksək səviyyədə qorunmasına xidmət edir. Məhz bu siyasət sayəsində Azərbaycan bütün dünyada tolerantlıq və mədəniyyətlərin, sivilizasiyaların dialoqu məkanı kimi tanınır. Məhz Azərbaycanın təşəbbüsləri sayəsində multikulturalizm və mədəniyyətlərarası dialoq kimi məfhumların aktuallığı beynəlxalq münasibətlər sistemində də qorunur. Azərbaycanın evsahibliyi etdiyi Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu və digər belə mötəbər tədbirlər paytaxtımız Bakını qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevirib. 2008-ci ildən başlanan və BMT-nin ali rəhbərliyində də təqdir olunan "Bakı prosesi" bütün dünya üçün bəşəriyyətin gələcəyinə, insanların xoşbəxtliyinə xidmət etməyin örnəyini yaradır.

Azərbaycan uzun illərdir ki, bütün dünyada ən etibarlı strateji tərəfdaşlardan biri kimi tanınır və qəbul olunur. Prezidentimiz bu yüksək imici öz öhdəliklərinə sadiqliyi, yüksək məsuliyyəti, verilən sözləri tutması ilə qazanıb. Bütün tərəfdaşlar əmindirlər ki, əgər ölkəmizlə hər hansı anlaşma əldə edilirsə, bu, ən yüksək səviyyədə yerinə yetiriləcək, razılaşmalara sadiq qalacaq. Azərbaycana hər sözünə imzası qədər dəyər verən Lider rəhbərlik edir və ölkəmizin bütün tərəfdaşları uzun illərin təcrübəsi ilə bunun fərqindədirlər.

Beynəlxalq ictimaiyyət Azərbaycan Prezidentinə bu üstün keyfiyyətlərindən başqa, eyni zamanda reallıqlara strateji baxışına, yüksək təhlil qabiliyyəti ilə gələcəyi aydın təsəvvür edə bilməsinə, siyasətə ali dəyərlər gətirməsinə, sülhə, inkişafa, insanın firavan həyatına çalışmasına görə böyük rəğbət bəsləyir. Tarix Prezident İlham Əliyevin zəmanəsinin ən parlaq, ən qüdrətli liderlərindən olduğunu dəfələrlə sübuta yetirib. Azərbaycan Prezidentinin atdığı addımların, yürütdüyü strateji xəttin, müxtəlif məsələlərdə tutduğu mövqeyin, irəli sürdüyü qlobal təşəbbüslərin nə qədər doğru olduğunu göstərib. Ona görə də dövlətimizin başçısının rəyləri, təşəbbüsləri bütün dünyada hər zaman böyük maraqla qarşılanır, həssaslıqla dəyərləndirilir. Azərbaycan Prezidentinin irəli sürdüyü regional təşəbbüslər bir tərəfdən Azərbaycanın möhkəmlənməsinə, digər tərəfdən isə bölgədəki əməkdaşlığın dərinləşməsinə xidmət edir, bütün maraqlı tərəflərə regionun imkanlarından qarşılıqlı şəkildə faydalanmağa şərait yaradır.

Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz 2012-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Onilliklər ərzində həyata keçirilən ardıcıl fəaliyyət sayəsində beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı, torpaqlarımızın işğalı faktı bu qurumların qəbul etdiyi sənədlərlə təsbit olundu. Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin bariz göstəricisidir.

## Tarixin doğrultduğu təşəbbüslər

Prezident İlham Əliyevin dünyada sülhü və konstruktiv əməkdaşlığı təşviq edən beynəlxalq təşəbbüsləri qlobal təşkilatların gündəliyinə də daxil edilir. Azərbaycanın təşəbbüsü ilə 2013-cü il oktyabrın 28-də BMT tarixində ilk dəfə olaraq "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclasın təşkili, Qoşulmama Hərəkatının Sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi bunun parlaq nümunəsi idi. 18 noyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının Sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-nin üzv dövlətləri tərəfindən qəbul edildi. Qətnaməyə BMT-nin 126 üzv dövləti həmmüəllif qismində qoşuldu və sonrakı proseslər bu təşəbbüsün nə qədər yerində, vaxtında, dəqiq şəkildə irəli sürüldüyünü göstərdi.

Elə ölkəmizi son onilliklərdə ən böyük nailiyyətlərinə yetirən, tarixin ən güclü Azərbaycanını yaradan əsas amil də hər bir addımın yerində, öz vaxtında-vədəsində atılması və inkişaf proseslərinin ardıcıllığının təmin olunmasıdır. Məhz bunun sayəsində respublikamız son on illərdə əsrlərin sosial-iqtisadi uğurlarını qazanıb. Dünyanın inkişaf mərkəzlərindən birinə çevrilib. Planetimizin əsas nəqliyyat-kommunikasiya qovşaqlarından biri statusunu qazanıb. Bu gün regionla bağlı bütün məsələlərdə Azərbaycanın rəyi, mövqeyi nəzərə alınır. Dövlətimizin beynəlxalq nüfuzu, qlobal proseslərə təsir imkanları getdikcə artır. Azərbaycan dövləti dünyanın ən qüdrətli ordularından birinə sahibdir. Vətən müharibəsindəki qələbəmizin ardınca Azərbaycan dövləti öz maddi imkanları hesabına Qarabağı, Şərqi Zəngəzuru yenidən dirçəldir, bu torpaqları cənnətə çevirir. Dövlətimizin sosial-iqtisadi nailiyyətləri Azərbaycan insanlarının həyat səviyyəsini yüksəldir, sosial rifahını daha da yaxşılaşdırır.

Bütün bunlar Prezident İlham Əliyevin Azərbaycan dövlətinə, xalqına qazandırdığı nailiyyətlərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# İlham Əliyevin rəşadətli ordusu qələbəni təmin etdi

**Xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici amillərin sırasında liderlik böyük önəm daşıyır. İllərin, əsrlərin təcrübəsi göstərir ki, tarixi-siyasi sistemin xüsusiyyətlərindən asılı olmayaraq, liderlik fenomeni xalqların gələcək taleyində, dövlətin, dövlətçiliyin inkişafında başlıca rol oynayır.**

Liderlik təkcə öz tərəfdarlarını və yaxud da təmsil etdiyi xalqı arxasınca aparmaq qabiliyyəti deyil, o həm də tarix yazan, həmçinin lazım olan anlarda tarixin gedişatını dəyişməyi bacaran şəxsiyyətə məxsusdur. Belə dahi şəxsiyyətlər barədə bir çox xalqların və dövlətlərin tarixində yüzlərlə nümunələr var. Azərbaycan xalqının da tarixində və taleyində Ümummilli Lider Heydər Əliyevin rolu əvəzsizdir.

Şərəf dolu tarixi keçmişimizə əsaslanıb böyük qürur və iftixarla deyə bilərik ki, müasir Azərbaycan Ümummilli Lider Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən siyasi fəaliyyətinin məhsuludur. Nadir şəxsiyyət olan Heydər Əliyev öz xalqı üçün müstəqil müasir Azərbaycanı qurub-yaradıb. 2003-cü il oktyabr ayının 15-də xalqın böyük dəstəyi və sevgisi ilə Prezident seçilən dövlət başçısı İlham Əliyev isə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu 20 ildir ki, uğurla və ləyaqətlə davam etdirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyatımızın bütün sahələrində uğurlu islahatlar həyata keçirilib. 20 ildir ki, bölgələrimiz durmadan inkişaf edir, rayonlarımız, şəhərlərimiz getdikcə abadlaşır. 2020-ci ilin payızında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni işğalından azad olunmuş ərazilərimizdə hazırda geniş abadlıq və quruculuq işləri aparılır. Bu gün Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə yanaşı addımlayır. Baxdıqca qürur duyduğumuz üçrəngli bayrağımız dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarında əzəmətlə dalğalanır.

Prezident İlham Əliyev Azərbaycana rəhbərlik etməyə başladığı ilk günlərdən, başqa sahələrdə olduğu kimi, ordu quruculuğunda da uğurlara hesablanmış islahatlar həyata keçirdi. Silahlı Qüvvələrə ayrılan vəsait ildən-ilə artırıldı. Bu qayğı və diqqət sayəsində qısa müddət ərzində güclü ordu quruldu. Yeni təyinatlı hərbi hissə və birləşmələr yaradıldı. Ordu quruculuğunu daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tez-tez cəbhə bölgələrində yerləşən hərbi hissə və birləşmələrə səfərlər edirdi. Ölkə ictimaiyyətinin daim diqqət mərkəzində olan bu səfərləri zamanı Prezident İlham Əliyev torpaqlarımızın müdafiəsində dayanan hərbçilərlə görüşlər keçirir, onların qarşısında çıxışlar edirdi. Xidmətdə fərqlənən zabit və əsgərlərə mükafatlar verirdi. Silahlı Qüvvələrin Ali Baş Komandanının hərbi hissə və birləşmələrə səfərləri, çıxışları zabit və əsgərlərin döyüş ruhunu daha da yüksəldirdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında daim inkişaf edən ordumuz ən müasir silahlarla təmin olunurdu. Ali Baş Komandan həmişə çıxışlarında bəyan edirdi ki, ordumuzu gücləndirməkdə başlıca məqsədimiz işğal altındakı torpaqlarımızı azad etmək və ölkəmizin ərazi bütövlüyünə nail olmaqdır. Prezident onu da bəyan edirdi ki, biz Qarabağ probleminin qan tökülmədən, sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Azərbaycandan fərqli olaraq işğalçılıq siyasəti yürüdən Ermənistan aqressiv mövqeyindən əl çəkməyərək danışıqlar prosesini uzatmağa can atır, sülhə gedən yolları bağlayırdı. Bu addımı ilə müharibəni qaçılmaz edirdi.

Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi ordu quruculuğu siyasətinin nəticəsi olaraq daim gücünü, qüdrətini artıran Azərbaycan Silahlı Qüvvələri qarşısında dayanan mühüm və müqəddəs tarixi vəzifələri şərəflə yerinə yetirməyə hazır və qadir idi.

Azərbaycan Ordusu gücünü, qüdrətini və yüksək döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də bütün dünyaya göstərdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi yazılmış Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, əlverişli yüksəklikləri, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizlədi. Bu döyüşlərin ən mühüm uğuru Lələtəpə yüksəkliyinin azad olunması oldu. Böyük strateji əhəmiyyəti olan yüksəkliyin azad olunması nəticəsində Cocuq Mərcanlının təhlükəsizliyi təmin edildi. Kənd qısa müddətdə bərpa edildi, uzun illər qaçqınlıq həyatı yaşayan sakinlər doğma yurdlarına döndülər.

Uğurla başa çatan Aprel döyüşlərindən sonra Azərbaycan Ordusu 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisini, o cümlədən Şərur rayonunun Günnüt kəndini düşməndən azad etdi. Dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, İrəvan-Gorus-Laçın yolu nəzarətə götürüldü.

Gündən-günə güclənən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ən böyük qələbəsini 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsində qazandı. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixin qızıl səhifələrinə yazdı. Azərbaycan xalqının iftixar və qürur dolu yeni qəhrəmanlıq salnaməsini yaratdı. 44 günlük Vətən müharibəsinin baş qəhrəmanına, qalib Sərkərdəsinə çevrildi. Zəfərlə başa çatan Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə qazanan Azərbaycan ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm də tarixi ədalətin bərpasına nail oldu. 30 ilə yaxın xəyal olunanlar Azərbaycan Prezidentinin, onun rəhbərlik etdiyi ordunun gücü və qüdrəti sayəsində 44 gün ərzində gerçəkləşdi.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev qətiyyətli qərarı ilə regionda çox mürəkkəb olan prosesi diplomatiyanın və siyasətin mümkün etdiyi ən mahir incəliklə həll etməyi bacardı. Vətən müharibəsində qazanılan Qələbəmizi diplomatik-siyasi müstəvidə cəsarət və qətiyyətlə möhkəmləndirdi. Bu gün Azərbaycan xalqı Qələbə əhval-ruhiyyəsi ilə, böyük coşqu ilə yaşayır. Bu Qələbə Azərbaycan xalqına, xalq da bu Qələbəyə layiqdir. Azərbaycan Prezidenti ən doğru zamanda ən doğru qərarı qəbul etməklə xalqımızın tarixi Qələbəsini təmin etdi. İlham Əliyev son 200 il ərzində ilk dəfə torpaqlarımızı azad edən Müzəffər Sərkərdə olduğunu bütün dünyaya göstərdi.

19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağda uğurla həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinə və bölgədəki separatçılara sarsıdıcı zərbələr vuruldu. Bu zərbə qarşısında duruş gətirə bilməyən düşmən ağ bayraq qaldırıb təslim oldu. Qarabağda separatizmə son qoyuldu. Uğurla başa çatan əməliyyatdan sonra Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Əsgəran və başqa yaşayış məntəqələri işğaldan azad olundu.

Prezident İlham Əliyev 15 oktyabr 2023-cü ildə - xalqın böyük dəstəyi ilə Prezident seçildiyinin 20 ili tamam olan gün Xankəndi şəhərinə səfər etdi. Bu şəhərimizdə də Azərbaycan bayrağını dalğalandırdı. Prezident Azərbaycanın 30 ilə yaxın müddətdə pozulmuş ərazi bütövlüyünü bərpa etdi. Xalqın böyük sevgisini qazanmış Prezident İlham Əliyev 20 ildir ki, Azərbaycana rəhbərlik edir. Bu illər Azərbaycan tarixinə "Möhtəşəm 20 il" kimi düşüb. Bu möhtəşəmliyin, əzəmətin ardı yazılır. Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da Azərbaycan xalqının tarixinə daha şərəfli, daha ləyaqətli səhifələr yazılacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

◆ **Müəllifi İlham Əliyevdir**

*Qarabağa gedirik...*

*Azərbaycan əsgərinin tariximizin ən şanlı səhifəsini yazdığı, can verib, can aldığı, qanı ilə torpağını suvardığı Talış kəndinədir yolumuz...*

*Üç il öncə bu yollarla qəhrəman oğullarımız düşmənin "keçilməz" adlandırdığı istehkamları yara-yara həsrətin bitdiyi, ərazisini qızıl qanları ilə yuduqları Suqovuşana yetişmişdilər. Elə o gündən bu yurd yeri Şanlı Zəfərimizin ilk müjdəsi kimi yaddaşlara həkk olunub. Bu gün isə Suqovuşan vaxtı ilə susuzluqdan yanan torpaqlarımıza həyat verərək onu nurlandırır. Bəlkə də, şəhid ruhlarıdır bu torpağı belə nurlandıran. Bəlkə də, şəhid qanı, Vətən sevgisi ilə boyananda belə nurlu olur torpaq...*

*Suqovuşanı keçib dağların arası ilə uzanan asfalt yolla Talışa yetişirik. Yüksəkliklər arasında salınan yeni Talış səhər erkən mürgülü-mürgülü qarşılayır bizi. Kəndin girəcəyində "Talış kəndi" yazılan lövhəni görməsəydik, möcüzəli bir adaya düşdüyümüzə qətiyyən şübhə etməzdik...*

# "İlham Əliyev bizə yeni həyat verdi"



## Talış kəndinin əzəli sakinləri onlar üçün cənnət yaradan Prezidentə alqış edirlər





*"Köçkünlük həyatı yaşadığım illərdə çox sıxıntılar çəkmişdim. İndi isə qürurluyam. Qarabağın xilaskarı, xoşbəxtliyimizin səbəbkarı mənim evimdə qonağım olub. Allah Prezidentimizi bizə çox görməsin. Prezidentimiz arxamızda duran əzəmətli dağ kimi qüdrətlidir. Onun hünəri hesabına burada olduğumuzu bir dəqiqə belə olsun, yaddan çıxarmırıq".*

### Qədim Talış kəndinin strateji əhəmiyyəti

Talış kəndi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Tarixi mənbələrdə Talış kəndinin XVIII-XIX əsrlərdə mövcud olmuş Gülüstan məlikliyinin mərkəzi olması haqqında məlumatlar var. 1813-cü ildə Rusiya tərəfindən ilhaq edilən Talış kəndi Səfəvilər dövründə Qarabağ bəylərbəyliyinin, ardınca isə Qarabağ xanlığının tərkibində olub.

Goranboyun və Tərtərin birləşmə nöqtəsində yerləşən Talış kəndi əvvəllər keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonunun inzibati ərazisinə aid idi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülüb, Talış kəndi isə Tərtər rayonuna verilib.

Tezliklə Talış yeni yaradılacaq Ağdərə rayonuna məxsus olacaq. Prezident İlham Əliyevin imzası ilə Ağdərə rayonunun yaradılması ilə bağlı qanun layihəsi Milli Məclisin müzakirəsinə təqdim edilib.

Dağların sinəsinə sığınmış Talış kəndi bu gün İlham Əliyevin xüsusi diqqəti altında yenidən qurulur. Amma kəndə kənardan baxdıqda erməni vandalizminin izlərini aydın şəkildə görmək olur. Otuz ildən çox erməni əsarətində qalan kənddə hayların törətdikləri vəhşiliyin, etnik nifrətin və azərbaycanlılara qarşı həqarətin həddi-hüdudu bilinmir, işğaldan sonra kənddə yaşasalar da, burada daşı daş üstünə qoymayıblar.

Mühüm strateji mövqedə yerləşən Talış kəndi 2020-ci ilin oktyabrında qəhrəman oğullarımız tərəfindən düşməndən təmizlənib. Talış kəndinin işğaldan azad edilməsi Qarabağdakı uğurlu əməliyyatlar arasında xüsusi yer tutur. Çünki Talış və Suqovuşan kəndlərinin azad edilməsi Silahlı Qüvvələrimizə çox böyük strateji üstünlük verib. Burada aparılan şiddətli döyüşlərdəki qələbəmiz tarixi zəfərimizə yol açıb. İlham Əliyev 2021-ci il oktyabrın 4-də Talış kəndindəki Bayraq meydanında bayrağımızı ucaldıb.

### Vətəndaşa dövlət qayğısının ən gözəl nümunəsi

Kəndi ikiyə bölən qənbər daşı döşənmiş geniş yol, müxtəlif dekorativ ağaclarla bəzədilmiş seyrəngahlar, xüsusi memarlıq üslubu ilə tikilmiş geniş və yaraşıqlı binalar, üstü qırmızı kirəmitli, cərgə ilə düzülmüş evlər təbiət gözəli olan Talışın ecazkarlığına rəng qatır. Bu gözəlliyi insan ağlının, vətən, yurd sevgisinin yaratdığı möcüzə də hesab etmək olar. Vətəndaşa dövlət qayğısının ən gözəl nümunəsi də...

Günün yenicə işıqlanmasına, səhərin təzə açılmasına baxmayaraq, kənddə bir hərəkətlilik hiss olunurdu. Maşınımızı Klub İcma Mərkəzinin yerləşdiyi binanın qarşısında saxlayıb, burada şirin-şirin söhbət edən adamlara yaxınlaşıb salamlaşırıq. Sakinlər jurnalist olduğumuzu biləndə maraqla bizi əhatəyə alırlar. Burada kimlər yox idi... Bakıdan, Sumqayıtdan, Gəncədən yaxınlarına baş çəkməyə gələn qonaqlar, kənd sakinləri, illərdir ev, yurd həsrəti çəkən keçmiş məcburi köçkünlər...

Hər ağızda bir dua, "şükür" var idi. İnsanlar Tanrıya şükür edir, bu gözəlliyi, vətəndaşlar üçün cənnət yaradan Prezidentə dua edir, bu alınmaz qalaları alıb Vətən edən şəhidlərimizə Allahdan rəhmət diləyirdilər. Ordunu qələbəyə aparan Müzəffər Ali Baş Komandanın ünvanına xoş sözlər söyləyirdilər: "O, əsl xilaskardır", "Qarabağı işğaldan, bizi köçkünlük həyatından Prezidentimiz qurtardı", "Tarixi abidələrimizi tamamilə dağılıb məhv olmaqdan, təhqir olunan məscidlərimizi həqarətdən, xalqımızın üstündəki "məğlub", "qorxaq" ləkəsindən xilas edib bizi ev-eşik sahibi edən xilaskar..."

### "Yaşlı görünməyimə baxmayın"

İlk qonağı olduğumuz Əyyub Əkbərov deyir ki, artıq yeni evində özünü cənnətdə hiss edir. Dövlət başçısı Talışa səfər edərkən Əyyub kişinin evində qonaq olub, xeyli söhbətləşiblər: "Bir gün yatsam da, yuxuma girməzdi ki, gün gələcək Talışa qayıdacam və Prezident, birinci xanım Mehriban Əliyeva evimizdə qonaq olacaq. Bu, həyatımızın ən yaddaqalan anı oldu".

Əyyub kişi deyir: "Yaşlı görünməyimə baxmayın, mənim cəmi 3 yaşım var. Allah yerdə qalan illəri, yersiz-yurdsuz olduğumuz, "qaçqın", "köçkün" damğası ilə yaşadığım o illəri ömrümüzdən hesab etməsin. Çəkdiyimiz müsibətlər bir yana, bu illərin utancı, xəcaləti bizə bəs idi. Keçmişi xatırlayanda dəhşətə gəlirəm. 1993-cü ildə ümidimiz hər yerdən üzülmüşdü. Azərbaycandan yığışıb Ukraynaya getməyi planlaşdırırdıq. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlişi ilə bizə ümid, İlham Əliyev torpaqlarımızı qaytarmaqla bizə həyat verdi. Şükürlər olsun Allaha, bu gün burada, bu torpaqlardayıq. Bu gözəlliklər aləmində ömrümüzün ahıl çağlarını qayğısız, xoşbəxt yaşayırıq. Bunun üçün nə lazım idisə, göydə Allah, yerdə Prezidentimiz onu bizə verib. İndi mənim üçotaqlı evim, işim, ən başlıcası isə, bu gözəllikdə kəndim var. Öləndə doğma torpağımda qəbirə qoyulacam.

Köçkünlük həyatı yaşadığım illərdə çox sıxıntılar çəkmişdim. İndi isə qürurluyam. Qarabağın xilaskarı, xoşbəxtliyimizin səbəbkarı mənim evimdə qonağım olub. Allah Prezidentimizi bizə çox görməsin. Prezidentimiz arxamızda duran əzəmətli dağ kimi qüdrətlidir. Onun hünəri hesabına burada olduğumuzu bir dəqiqə belə olsun, yaddan çıxarmırıq".

### "İlham Əliyev sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı"

Əyyub Əkbərovla söhbətimizi yekunlaşdırıb kəndin digər sakini Həsənxan İrzayevin evinə qonaq gedirik. Ev sahibi öncə bizə keşməkeşli taleyindən söhbət açaraq deyir ki, 1992-ci ildə Qırğızıstanın Oş vilayətindən Azərbaycana pənah gətirib. Bu torpaqlarda yenicə yurd-yuva qurarkən ermənilər kəndi işğal ediblər...

"Nabələd adam idim. Bir qızım, iki oğlum var idi. Uşaqlar körpə idilər. Kimin qapısını döyəcəyimizi bilmirdim. Birtəhər gedib çatdıq Gəncəyə... Köçkünlük həyatımızı Gəncədə keçirdik. Biz Oşdan Azərbaycana Vətən deyib gəlmişdik...

Oğlanlarım böyüdülər, ikisi də əsgər oldu. 2020-ci ildə Vətən savaşında iştirak etdilər. Sevinirəm ki, indi bizim yaşadığımız bu torpaqların azad olunmasında mənim oğlanlarımın da payı var".

Həsənxan İrzayev 2023-cü il martın 16-da Talış kəndinə yenidən qayıdıb. Bu tarix isə ömürlük yaddaşlarına həkk olunub: "Xilaskarımız, Prezident İlham Əliyev özü bizim kəndə gəlmişdi. Mehriban xanımla birlikdə kəndimizdə Novruz tonqalını alovlandırdılar. Tonqal yandıqca sanki canımdan illərin soyuğunu, ağrısını, acısını da çıxarırdı. Oğlanlarıma da ev verilib. Biz köçkünlük dövründə xoşbəxt, qayğısız yaşamağın nə olduğunu bilmirdik. Sağ olsun Prezidentimiz. Sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı. Təkcə Qarabağı yox, bizi də dərddən xilas etdi".

### "Allaha şükür, köçkünün də evinə bayram gələrmiş"

Mehribanlığı, istiqanlılığı ilə seçilən Talış kənd sakini Telman Məmmədovla söhbəti onun dördotaqlı evində edirik. Telmanın övladları Aysunla Fuadın başı küknar ağacını bəzəməyə qarışmışdı. Kefləri kök idi. Evdə əsl bayram əhvali-ruhiyyəsi var idi...

Aysun deyir ki, həyatlarında ilk dəfədir ki, "yolka" bəzəyirlər: "Evimiz var idi ki, yolkamız da olaydı? Biz köçkün uşaqları idik. Novruz bayramında ilk dəfə bayram yumurtasını öz evimizdə boyadıq..."

Aysun əllərini göyə qaldırıb "Allaha şükür, bizim də evimizə bayram gələrmiş", - deyir.

Atası Telman isə sanki dünyaya yenidən gəldiklərini söyləyir: "Gülmək, sevinmək nə olduğunu indi-indi bilirik. Bayramlar necə gəlib, necə gedərdi, xəbərimiz olmazdı. Biz yalnız dua edəndə bilirdik ki, bu gün bayramdır. Onda da deyirdik ki, ya Rəbbim, sən bizi öz yurdumuza qaytar. Dövlətimizin başçısı bizim bütün arzularımızı yerinə yetirdi. İndi evimiz də var, doğma kəndimizdə işimiz də...

Dövlət yaşlı atama fərdi sahibkarlıqla məşğul olmaq üçün 3 baş inək verib. Südü, qatığı əməlli karımıza çatır. Hər gün evimdən çıxıb işə gedəndə ilk sözüm "Allaha şükür", ilk duam Prezidentimizə olur. İndiyə kimi atamın, mənim, qardaşımın evi yox idi. Lap açığını desək, nəslimizdə evi olan bir kişi yox idi. İndi hamımızın evi də var, işi də. Var olsun dövlətimiz. Sağ olsun bizi çətin günlərdən xilas edən Prezidentimiz".

### "İlham Əliyev bizi xəcalətdən qurtardı"

Evin ağsaqqalı dünya görmüş Xalis kişi deyir ki, ömrünün ahıl çağında bu qədər gözəl, xoşbəxt həyat yaşayacağını ağlından belə keçirməyib: "Ataların ən böyük arzusu övladlarını ev, ailə sahibi görməkdir. Ömür boyu xəcalət çəkirdim ki, bir ata kimi mən oğlanlarımı ev sahibi edə bilməmişəm. Mənim öz övladlarım üçün edə bilmədiyimi Prezidentimiz edərək məni ömürlük xəcalətdən qurtardı. Mən Prezidentimizə, Mehriban xanıma çox minnətdaram".







*"Xilaskarımız, Prezident İlham Əliyev özü bizim kəndə gəlmişdi. Mehriban xanımla birlikdə kəndimizdə Novruz tonqalını alovlandırdılar. Tonqal yandıqca sanki canımdan illərin soyuğunu, ağrısını, acısını da çıxarırdı. Oğlanlarıma da ev verilib. Biz köçkünlük dövründə xoşbəxt, qayğısız yaşamağın nə olduğunu bilmirdik. Sağ olsun Prezidentimiz. Sevincimizi, gülüşümüzü, xoşbəxtliyimizi bizə qaytardı. Təkcə Qarabağı yox, bizi də dərddən xilas etdi".*

Xalis kişi bizi digər oğlu Nərimanın da evinə dəvət edir: "Vallah, uşaq kimi sevinirəm. İstəyirəm hamı mənim oğlanlarımın evini görsün. Bu evləri mən özüm tikməsəm də, fərəhlənirəm".

Nəriman bizi gülərüzlə küçə qapısında, "köhnə dost" kimi mehribanlıqla qarşılayır. Deyir ki, Talışı tərk edəndə 3 yaşı vardı: "Biz çox uzağa getmədik. Tərtərin Bəyimsarov kəndində məskunlaşmışdıq. Həyatımız güllə səsi ilə keçdi. 2020-ci ilə kimi ermənilər, demək olar ki, hər gün atəşkəsi pozurdular. Övladlarım, Natəvanla Murad ermənilərin niyə belə etdiyini soruşanda cavab verə bilmirdim. 2020-ci ilin Vətən müharibəsindən sonra həyatımızın yeni dövrü başladı. 2023-cü ildə keçirilən lokal xarakterli antiterror tədbiri bu dağlara bir hüzur gətirdi. Çox şükür, indi xoşbəxt, qayğısız yaşayırıq".

Nəriman kənd xəstəxanasında sürücü işləyir. Deyir ki, indi xəstə çağırış edəndə arxayın gedirlər. Bilirlər ki, daha kimsə düşmən gülləsindən yaralanmayıb: "Evimiz, işimiz, hər şəraitimiz var. Bizə xəyal etmədiyimiz bu xoşbəxtliyi yaradan, bizi cənnətdə yaşadan Prezidentimizə minnətdarıq. Bir atanın övladı üçün edə bilmədiyini bizə edib. Sağ olsun".

### Talelərinə "köç" yazılan qocaların xoşbəxt günləri

Talış kəndinin ən yaşlı sakinləri Məhəmmədcan Həsənov və Zülfiyyə xanımdır. Məhəmmədcan kişi deyir ki, onların taleyinə sanki əbədi olaraq oradan-ora, buradan-bura köç etmək yazılıbmış: "Qırğızıstanın Oş vilayətinin Aravan rayonundan 1990-cı ildə bura pənah gətirmişdik. Buranı ermənilər işğal etdikdən sonra Tərtərin Bəyimsarov kəndinə köçdük. 2020-ci ildə top səsi, güllə səsi evimizin içində atılırmış kimi eşidilirdi. Zülfiyyəyə dedim ki, ölsəm də, burada öləcəm. Buradan gedə biləcəyim yer qəbirdir. Biz qəbri gözləyirdik, İlham Əliyev bizə cənnəti bəxş etdi. Mən buna Allahın sınağı da deyirəm. Səbirli olana Allah istədiyini verir... Ömrümüzün qürub etdiyi vaxt Prezidentimiz bizi məsud etdi. Talışda dördotaqlı ev verdi. Nəvələrimin, ailəmin qaçqınlıq həyatına son qoydu.

İndi ömrümüzün xoşbəxt günlərini yaşayırıq. Hər gün Allaha dua edirəm. Deyirəm, Allah, bizə bu bəxtəvərliyi yaşadan Prezidentimizi qoru!"

Talışda olarkən öyrəndik ki, kənd sakinlərinin əmək məşğulluğunun təminatı üçün də dövlətimiz tərəfindən hər cür tədbir görülüb. Burada işləməyən, təsərrüfat fəaliyyəti ilə məşğul olmayan kimsə yoxdur. Hər kəs bacarığına və peşəsinə uyğun işlə təmin edilib.

Buranın təbiəti, otlaqları, ormanları maldarlığın inkişafı üçün daha sərfəli olduğuna görə yaşlı nəsil heyvandarlıqla məşğul olur. İndi Talış kəndinin sakitliyini istirahət, əyləncə meydançalarında oynayan uşaqların şaqraq gülüşləri, oxuduqları şən mahnıları pozur. Burada üfüqlər də sakitdir. Göydə günəş, yerdə isə insanlar bu gözəlliyi görüb gülümsəyirlər.

Talış kəndi hər gün Bakıdan, respublikamızın müxtəlif guşələrindən görüşünə gələn insanlara "xoş gəldin" deyir.

Elə bu xoş ovqatla kəndi gəzməkdə davam edirik.

*(Ardı var)*

***Elşən QƏNİYEV,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Talış-Bakı*













# Zəfər paradlarının Müzəffər Komandanı

**Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən illər ərzində Azərbaycanda çox sayda möhtəşəm paradlar keçirib. Üçrəngli, ay-ulduzlu bayrağımızın öncüllüyündə addımlayan igid oğullarımızı, nümayiş etdirilən müasir hərbi texnikalarımızı dəfələrlə fəxrlə seyr etmişik.**

Amma 2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında, eləcə də 2023-cü il noyabrın 8-də Qarabağın xanzadə şəhəri Xankəndidə keçirilən Zəfər paradları bir başqa qürur, bir ayrı xoşbəxtlik əhvalı yaratdı hamımızda.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi möhtəşəm qələbələrə həsr olunan bu təntənəli paradlar xalqımızın əzminin, gücünün, yenilməzliyinin şah zirvəsi kimi tariximizə silinməz izlərlə həkk olundu.

## O tarixi günlər yetişdi

Prezident İlham Əliyevin qətiyyətli, uzaqgörən, məqsədyönlü siyasəti, ordumuzdakı ruh yüksəkliyi, torpaqlarımızın bir qarışını belə düşmənə verməyəcək əzmdə olması, igid oğullarımızın daim irəli getməsi Vətən müharibəsində düşmən üzərində qəti qələbəmizi şərtləndirən amillər oldu.

2020-ci il noyabrın 8-də Qarabağın baş tacı Şuşa şəhərinin azad edilməsi və orada Azərbaycan bayrağının dalğalandırılması ilə sentyabrın 27-də çıxdığımız Zəfər yürüşü qələbə ilə başa çatdırıldı. Dünya hərb tarixində bənzərinə rast gəlinməyən şücaətlə Şuşanı azad edən qəhrəman döyüşçülərimiz düşmənin belini qıraraq onu təslim olmağa məcbur etdilər.

Vətən müharibəsinə qədər keçirilən bütün paradlardakı çıxışlarında Ali Baş Komandan İlham Əliyev xüsusi vurğulayırdı ki, gün gələcək, işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Bakıda keçirilən paradımıza gətiriləcək...

Budur, artıq Müzəffər Lider İlham Əliyevin vaxtilə söylədiyi tarixi sözlər gerçəkləşib və müasir azərbaycanlılar həmin xoşbəxt günlərin şahidinə çevrilib.

2020-ci il dekabrın 10-da Bakıda Azadlıq meydanında Azərbaycanın müstəqillik tarixindəki ilk Zəfər paradı keçirildi.

Zəfər paradında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər.

İlk olaraq Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və 44 günlük Vətən müharibəsinin Zəfər Bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət və Zəfər bayraqlarının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin, düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qisminin nümayişi oldu.

Vətən müharibəsində qələbənin əldə edilməsində mühüm rol oynayan PUA-ların, həmçinin "İti qovan"ın ("Orbiter-1KM") paradda nümayişi hər kəsdə yüksək əhvali-ruhiyyə yaratdı. "Su-25" hücum və hava dəstək təyyarələr qrupu səmada Azərbaycanın Dövlət Bayrağının təsvirini yaradaraq, üçrəngli bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Həmin tarixdə Azadlıq meydanına 44 günlük müharibədə düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Qəhrəman oğullarımızın darmadağın etdiyi düşmən texnikalarının nümayişi bir daha dünyaya Azərbaycanın "dəmir yumruğ"unun qarşısında heç bir gücün dayana bilməyəcəyinin mesajını çatdırdı.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zəfər paradındakı çıxışında vurğuladığı kimi: "Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq".

## Azərbaycan bayrağı Xankəndidə dalğalandırıldı

2020-ci il noyabrın 8-də Şuşada qazanılan qələbənin qürur hissini düz üç il sonra Xankəndidə keçirilən Zəfər paradında bir daha duyduq.

2023-cü ilin sentyabrında suverenliyimizi bərpa etməyimiz həm də Şuşa Zəfərinin doğurduğu, milli mənafelərimizin təmini ilə bağlı əldə etdiyimiz misilsiz nəticə idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Xankəndidə Azərbaycan bayrağının dalğalandırılması Zəfərimizin üçüncü ildönümünə ən böyük töhfə, Azərbaycan xalqına ən böyük xoşbəxtlik ərməğanı oldu.

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı Prezident İlham Əliyev vurğuladı ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə Azərbaycan bayrağını qaldırmasından böyük xoşbəxtlik ola bilməz: "Həm özüm üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün".

Noyabrın 8-də Xankəndidə Müzəffər Ali Baş Komandanın çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi oldu.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan - Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəlilədilər. Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi.

Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər...

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirildi. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olundu.

2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradın məhz Xankəndidə keçirilməsi ilə bir daha bütün dünyaya "Qarabağ Azərbaycandır!" gerçəkliyinin ismarıcı verildi.

44 günlük Vətən müharibəmizin Zəfər zirvəsini 8 noyabr 2020-ci il, 23 saatlıq antiterror tədbirlərinin parlaq nəticəsini isə 20 sentyabr 2023-cü il tarixində yaşadıq. Şuşa azadlığına qovuşdu, Xankəndidə suverenliyimiz bərpa olundu. Bu tarixi günlər min illər boyu şərəflə xatırlanacaq qəhrəmanlıq salnaməmizə çevrildi.

Necə ki, bunu Xankəndidən Qalib lider İlham Əliyev söylədi: "20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Böyük qayıdışın təntənəsi



"Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar". Prezident İlham Əliyevin dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi bu fikirlər hər ötən gün öz təsdiqini tapır.

## Keçmiş məcburi köçkünlər əzəli yurd yerlərinə qayıdırlar

Torpaqlarını otuz illik işğaldan azad edərək tarixinin yeni mərhələsinə qədəm qoyan Azərbaycanda keçmiş məcburi köçkünlər Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi uğurları nəticəsində dədə-baba yurdlarına qovuşur, Vətən nisgilinə son qoyurlar. Onların rahat və təhlükəsiz yaşayışı üçün Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm bərpa-quruculuq işləri aparılır, təhlükəsizlik problemləri həll edilir, ərazilər minalardan təmizlənir, iqtisadiyyatın bərpası, müvafiq infrastrukturların qurulması və yeni iş yerlərinin yaradılması istiqamətində çoxsaylı işlər görülür. Bütün bunlar yalnız bir məqsədə - işğaldan azad edilmiş ərazilərimizin yenidən çiçəklənməsinə və keçmiş məcburi köçkünlərin öz yurdlarına qovuşmasına xidmət edir.

Böyük qayıdışın ilk addımı ötən il iyulun 19-da gerçəkləşdi. Həmin gün Zəngilan rayonunun Ağalı kənd sakinləri üç onillik həsrətdən sonra əzəli torpaqlarına qayıtdılar. Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında qurulmuş Ağalı kəndi sakinlərin ixtiyarına verildi. Kəndə bu mərhələdə 41 ailə köçürüldü.

Ağalı ilk köç yurdu olmasından əlavə, daha bir məqamla tarixə yazıldı. 30 il sonra Şərqi Zəngəzurun ilk körpəsi məhz Ağalıda dünyaya gəldi.

2023-cü ilin mart ayında - Novruz bayramı ərəfəsində Tərtərin Talış kəndinə köç başladı.

Bu il mayın 28-də - Müstəqillik Günündə Laçın şəhərinə ilk köç baş tutdu.

Avqustun 18-də isə Füzuli şəhərinə qayıdış başladı.

Bir neçə aydır Laçının Zabux kəndində də həyat öz axarına dönüb.

Beləliklə, Böyük qayıdış çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönüblər. Bu günədək 175 ailə (871 nəfər) Ağalıya, 20 ailə (90 nəfər) Talışa, 383 ailə (1475 nəfər) Laçın şəhərinə, 380 ailə (1392 nəfər) Füzuli şəhərinə, 176 ailə (688 nəfər) Laçının Zabux kəndinə köçüb. Ümumilikdə 1134 ailə (4516 nəfər) keçmiş məcburi köçkün doğma yurduna dönüb.

Gələn ildən isə cəbrayıllıların doğma yurdlarına köçürülməsi işlərinə başlanılacaq.

Bir zamanlar yurdlarına qayıtmağı həsrətlə gözləyən keçmiş məcburi köçkünlərin arzuları reallaşmağa başlayıb. Qarabağ və Şərqi Zəngəzura qayıdan insanların sayı günü-gündən artır. Hər həftə, hər ay onlarla ailə yurduna qovuşur. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.







## Azad olunmuş torpaqlarımız sürətlə dirçəlir

Mənfur düşmənin viran qoyduğu torpaqlarımız dövlətimizin məqsədyönlü addımları nəticəsində dirçəlməyə başlayıb. Şəhərlər, kəndlər yenidən insanların yaşaya biləcəyi yuvalara çevrilir. Azadlığına qovuşmuş torpaqlarımızda yeni məktəblər, xəstəxanalar, yollar, hava limanları tikilir. Böyük qayıdış proqramı çərçivəsində 2026-cı ilə qədər ümumilikdə 100 yaşayış məntəqəsinin bərpa olunması nəzərdə tutulur. Yenidən qurulan yollarla Böyük qayıdış sürətlə, rahat şəkildə həyata keçirilir.



Yurdlarına qovuşan ailələrin işlə təminatı da önəmli məqamlardan biridir. Bunu daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev qeyd edir ki, əsas məsələ keçmiş məcburi köçkünlər üçün yaxşı şərait və iş yerləri yaratmaqdır: "Yeri gəlmişkən onu da deyim ki, iş yerlərinin yaradılması da vacib sahələrdəndir və biz qayıdış prosesini planlaşdırarkən diqqətimizi buna yönəldirik. Beləliklə, geri qayıdan insanların əksəriyyəti artıq işlə təmin edilib və bu bir daha onu nümayiş etdirir ki, bizim yanaşmamız hərtərəflidir".

Böyük qayıdış nəzərdə tutulandan da qısa zamanda yekunlaşacaq. Zəfərdən dərhal sonra başladılan bərpa-quruculuq işləri sürətlə davam edir. Azərbaycanın bütün bu işləri öz gücü hesabına görməsi isə ayrıca bir qürurverici məqamdır. Bəlkə də, 10-20 il öncə heç kəsin ağlına gəlməzdi ki, ölkəmiz bu qədər güclənəcək, regionun ən qüdrətli dövlətlərindən biri olacaq, tarixinin ən şərəfli dönəmini yaşayacaq. Amma biz bu xülyanı gerçəkləşdirdik... Ali Baş Komandanımız və qüdrətli ordumuz sayəsində... Var ol, Vətən!

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**Müəllifi İlham Əliyevdir**

# İlham Əliyevin ASAN brendi



## 10 il öncə açılışı olan 1 saylı Gəncə "ASAN xidmət" mərkəzi vətəndaşın məmnunluq ünvanlarından biridir

**Tarixinin ən qüdrətli Azərbaycanı bu gün müxtəlif sahələrdə yeni-yeni rekordlara imza atır və həyata keçirilən islahatlarla brendlər yaradır.**

Prezident kimi fəaliyyətə başladığı ilk gündən siyasətinin prioritetlərini elan edərək dövlət orqanları qarşısında əhalinin problemlərinin operativ öyrənilməsi və səmərəli həllini ən vacib vəzifə kimi müəyyənləşdirən İlham Əliyev bu sahədə ən mükəmməl nümunəni yaratmaqla rəsmi strukturların xalqın xidmətçisi funksiyası daşıdıqlarını daim diqqətə çatdırıb. Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan dövlət başçısının ölkəyə rəhbərlik etdiyi 20 ildə xalqın rahatlığı naminə həyata keçirdiyi islahatlar bu gün öz mükəmməl nəticəsini verməkdədir. Prezidentin ictimai xidmətlər sahəsində reallaşdırdığı islahatların nəticəsidir ki, ölkədə vətəndaş-dövlət münasibətləri yüksək səviyyədədir.















### 11 ildə 26 "ASAN xidmət" mərkəzi

Bu münasibəti yaradan islahatların bəhrəsindən biri də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyindəki "ASAN xidmət"dir.

Prezidentin sözü ilə desək, "ASAN xidmət"in yaradılması Azərbaycanda aparılan ciddi islahatların təzahürüdür. Bu, yeni sistemdir. Bu, Azərbaycan brendidir". 10 il öncə - 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılmasını və gələcək fəaliyyətini dəyərləndirərkən İlham Əliyevin söylədiyi bu fikirlər bu gün öz təsdiqini tapıb.

Prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıq olan "ASAN xidmət" sisteminin yaradılması islahatların real nümunəsidir. Bu mərkəzlər dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlardır. "ASAN xidmət" mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına xidmət edir.

"ASAN xidmət" mərkəzlərinin yaradılmasında məqsəd vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması, bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasıdır.

Hazırda 26 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən, Salyan və Naxçıvandadır. Lənkəranda isə ilk "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayacaq.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 400-ə yaxın xidmət göstərilir. "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət təqdim edilir. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 877 mindən çox vətəndaşın 69 milyondan çox müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 918 mindən çox vətəndaşa səyyar formada xidmət göstərilib.

Könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 33.000-dən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 5500-dən çox təlim, 800-dən çox yerli və beynəlxalq layihə həyata keçirilib və 3300-dən çox könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

### "Çalışırıq ki, vətəndaşlar xidmətdən maksimum razı qalsınlar"

Ümumiyyətlə, sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik sayılır. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiq edilməsidir. Əvvəllər xidmət sektoru problemli sahə idi. Həm pozuntular olurdu, həm diqqətsizlik, həm də vətəndaşlara bir çox hallarda hörmətsizlik edilirdi, laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da ki onlardan nə isə tələb olunurdu, qanunsuz hərəkətlərə yol verilirdi. Bu gün isə məmnunluq əmsalı 100 faizə yaxın olan "ASAN xidmət" mərkəzləri ölkə ictimaiyyətinin ən çox etibar etdiyi, inandığı, güvəndiyi mərkəz kimi fəaliyyət göstərirlər.

Vətəndaşlara yüksəksəviyyəli xidmət mərkəzlərindən biri də Azərbaycanın sayca 5-ci "ASAN xidmət" mərkəzi olan 1 saylı Gəncə "ASAN xidmət" mərkəzidir. Mərkəzin açılışı 21 dekabr 2013-cü il tarixində reallaşıb. 2014-cü il yanvarın 21-də isə Prezident İlham Əliyev mərkəzin fəaliyyəti ilə tanış olub.

Mərkəz müvafiq xidmətlər üzrə qeydiyyat məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərir. 10 illik fəaliyyəti dövründə mərkəzə ümumilikdə 5.300.000-dən çox vətəndaş müraciət edib. Eyni zamanda "Səyyar ASAN xidmət" avtobusu vasitəsilə 287000-dən çox vətəndaş müraciəti qəbul olunub. Mərkəzə gündəlik orta müraciət sayı 2000-ə yaxındır.

1 saylı Gəncə regional "ASAN xidmət" mərkəzində 3000 nəfər könüllü fəaliyyət göstərib. Bu dövr ərzində könüllülərin iştirakı ilə müxtəlif sosial layihələr, tamaşalar, idman yarışları intellektual oyunlar, xeyriyyə aksiyaları, tarix və mədəniyyət abidələrinə ekskursiyalar təşkil olunub.

Mərkəzdə aparıcı məsləhətçi vəzifəsində çalışan Rüfət Məmmədov və vətəndaşların qəbulu işi təşkili sektorunda böyük məsləhətçi vəzifəsində çalışan Ayxan Süleymanzadə həm də İkinci Qarabağ müharibəsinin iştirakçılarıdır. Rüfət Məmmədov Prezidentin sərəncamı ilə "Şuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları, Ayxan Süleymanzadə isə "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunublar. Gənclər deyirlər ki, burada hər bir vətəndaşın xidmətdən razı qalması və məmnunluq ifadə etməsi üçün əməkdaşlar ilk növbədə nəzakətli davranış prinsiplərinə əməl edirlər. Vətəndaşlarla işləmək, onlara kömək göstərmək, işlərinin tez bir zamanda həll olunmasına yardım etməklə həm öz işlərini həyata keçirir, həm də böyük savab qazanırlar: "İnsanlar hər hansısa sənəd üçün buraya təşrif buyuranda onları qarşılayıb işlərinin asanlıqla həll olunmasına yardım edirəm və onların bizdən razı qalması, "çox sağ olun" deyib gülərüzlə evlərinə dönməsi bizi məmnun edir. Çalışırıq ki, vətəndaşlar xidmətdən maksimum razı qalsınlar".

Mərkəzdə "Master 2" pilləsində fəaliyyət göstərən Fidan Kərimova, könüllülərdən Sənan Təbrizzadə, Nərmin Hüseynova ilə söhbətləşirik. Gənclər deyirlər ki, burada çalışmaq onların həyatında dönüş yaradıb. Vətəndaşlarla xoş ünsiyyətdə olmaqla, həm də könüllü kimi onlara xidmət göstərməklə ilk növbədə təcrübə qazanırlar. Gənclər hesab edirlər ki, bu xidmətin bir parçası olmaq qürurvericidir. Könüllü olmaq, ümumiyyətlə, insanların xoş niyyətindən xəbər verir. Təmənnasız olaraq kiməsə kömək etmək üçün xidmətə müraciət edirlər. Bu mərkəzdə də gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün şərait və imkanların yaradılması, onların bilik və bacarıqlarının artırılması məqsədilə könüllülük fəaliyyəti həyata keçirilir.

### "İnsanlar "ASAN xidmət"ə gələndə narahat olmurlar"

Şəhər sakini Tahirə Tağıyeva deyir ki, "ASAN xidmət" mərkəzi hər bir vətəndaşın ən çox inandığı, güvəndiyi mərkəzdir. İnsanlar hansısa sənəd işlərini həll etmək üçün buraya üz tutanda narahat olmurlar. Bilirlər ki, işləri tez bir zamanda həll olunacaq: "Bu xidmətdən daim yararlanırıq. Uşaqların şəxsiyyət vəsiqələrinin, pasportlarının, yaşayış yerindən arayışın əldə olunması xidmətlərindən yararlanmışam. Bu gün də notarius xidmətinə müraciət etdim və işlərimiz bir neçə dəqiqə ərzində həll olundu. Hər şey yüksək səviyyədədir, çox razıyıq".

Şəhər sakini Rövşən Əliyev isə deyir ki, "ASAN xidmət" vətəndaşlara hərtərəfli yardımçıdır: "Bu mərkəz, həqiqətən də, bizim xidmətimizdə yüksək səviyyədə durur. İnanmıram ki, bu xidmətdən narazılıq edən şəxs ola".

Gəncə sakini Qətibə Qocayeva isə belə bir xidmətin yaradıldığı üçün ölkə rəhbərliyinə təşəkkür edir: "Çox-çox minnətdaram ki, xalq üçün belə asan, rahat xidmətlər göstərən mərkəzlər yaradılıb. İstənilən məsələni gəlib "ASAN xidmət"də həll etmək mümkündür. Yəni elə bir məsələ yoxdur ki, burada onu həll edə bilməyəsən. Burada gənclər insanları gülərüzlə, mehribancasına qarşılayırlar. Bu da bizi çox məmnun edir".

Göründüyü kimi, vətəndaşlar milli brendimiz olan "ASAN xidmət"in fəaliyyətindən razılıq edirlər. Burada çalışan hər bir şəxs öz işi ilə həm vətəndaş məmnunluğunun daha da yüksəlməsi, həm də Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi çəkisinin artması üçün operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik prinsiplərinə sadiqlik nümayiş etdirir.

Bir sözlə, "ASAN xidmət"in adı çəkiləndə belə bir fikir formalaşır - hər iş asan, hər kəs məmnun!

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*








# "Bir amalım var idi - güclü Azərbaycan qurmaq!"

## Dövlətimizin başçısını bu yoldan heç bir qüvvə, heç bir təzyiq döndərə bilmədi

Prezident İlham Əliyev güclü Azərbaycan qurdu. Elə bir Azərbaycan ki, bölgələrinin hamısı tarazlı inkişaf etdi, "ucqar kənd", "ucqar rayon" ifadələri keçmişdə qaldı. Elə bir Azərbaycan ki, dinamik sosial-iqtisadi inkişafı ilə ən nüfuzlu beynəlxalq reytinq təşkilatlarını heyrətləndirdi, kosmosa yüksəldi, nəhəng neft, qaz və ixrac layihələri ilə Avropanın enerji xəritəsini yenidən çəkdi. Şərqdən Qərbə, Şimaldan Cənuba uzanan nəqliyyat dəhlizləri buradan keçdi və bundan az qala bütün dünya bəhrələndi.

Azərbaycan başdan-başa çıraqban oldu. Əvvəllər təkcə kəndləri deyil, şəhərləri də işığı saatla alan ölkə elektrik enerjisi idxalçısından onun ixracatçısına çevrildi. Qaz xətləri ən uzaq dağ kəndlərinədək uzandı, yeni yollar və magistrallar çəkildi.

Prezident İlham Əliyev elə bir güclü Azərbaycan qurdu ki, elə yenilməz ordu formalaşdırdı ki, arxasında böyük "dayaq"ları olan düşməni diz çökdürdü. 30 il ərzində yağının viran qoyduğu böyük bir ərazidə genişmiqyaslı quruculuq işlərinə başladı və bunun sayəsində indi bütün Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilməkdədir.

Dövlət başçısı deyir ki, bu gün artıq dəyişən dünyada güc amili rəsmi qaydada ön plana çıxıb və güc elə iqtisadiyyatdır: "İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil... Güc toplamaq üçün, əlbəttə ki, düzgün siyasət aparılmalıdır... Mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək! Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik".

Məlumdur ki, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyini təmin edə bilməyən ölkələrdə adətən ciddi problemlər yaranır, onlar sərbəst yaşamaq imkanına malik olmurlar. Azərbaycan dövləti düzgün və məqsədyönlü siyasət yürüdərək bu istiqamətdə önəmli layihələr həyata keçirdi. Məsələn, 2006-cı ildə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri, 2007-ci ildə "Şahdəniz" qazını daşıyan Bakı-Tbilisi-Ərzurum xətti istifadəyə verildi. Daha sonra Bakı-Tbilisi-Qars dəmir yolu çəkildi. Bunların ardınca nəqliyyat-logistika və digər sahələrdə də önəmli layihələr icra olundu. Bir sözlə, Azərbaycan qısa müddətdə regionun güc mərkəzinə çevrildi.

BTC Azərbaycan iqtisadiyyatının inkişafına böyük töhfələr verdi. Bu, ümumiyyətlə, bütün regiona xeyir-bərəkət gətirən kəmərdir. Yeri gəlmişkən qeyd edək ki, belə bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbə oldu.

İndi kəmərlərimizin yolu daha uzaq ünvanlaradır. Genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarət 3500 kilometrlik "Cənub qaz dəhlizi" çəkildi. TANAP altıncı ildir Azərbaycan qazını uğurla Türkiyəyə nəql edir. TAP kəməri TANAP-dan qəbul etdiyi mavi yanacağı artıq üç ildir Avropaya çatdırır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulayıb. Yəni "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür. Belə ki, layihənin icrasında geniş beynəlxalq əməkdaşlıq formatı yaradılıb.

Məlumdur ki, Avropanın Azərbaycan qazına ehtiyacı var. Eyni zamanda biz öz ixrac imkanlarımızı genişləndirmək istəyirik və bu baxımdan Avropa bazarı çox əlverişlidir. İndi Azərbaycan qazı yeddi ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya və Serbiyaya ixrac olunur. Həmin sıraya Macarıstanın və Albaniyanın da qoşulacağı gözlənilir və bu, son hədd deyil.

Artıq "Cənub qaz dəhlizi"nə yeni "qol"lar qovuşur. Keçən il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı oldu. Bu il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru istifadəyə verildi. Hər iki xəttin Azərbaycan Prezidentinin iştirakı ilə açılması dövlətimizin, eləcə də onun başçısının bu layihələrdəki rolunun, ümumiyyətlə, qazandığı hörmət və nüfuzun göstəricisidir.

Müəllifi İlham Əliyev olan "Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində ilk növbədə Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirərək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

Prezident İlham Əliyev Azərbaycanın sosial-iqtisadi və hərbi qüdrətinin artmasında həyata keçirilən bu nəhəng layihələrin əhəmiyyətini dəfələrlə qeyd edib: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi".

Zaman Prezidentimiz tərəfindən qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı. Odur ki, bu gün müstəqil Azərbaycan özünün ən şanlı dövrünü yaşayır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# Gənclərin böyük hamisi



**Bütün Azərbaycan xalqı, dünya azərbaycanlıları, habelə tərəqqipərvər insanlar ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin doğum gününü qürur hissi ilə qeyd edirlər. Bu tarixi gündə həm də görünən odur ki, öz dövləti və lideri ətrafında sıx birləşən müasir gənclər özlərini Azərbaycan Prezidentinin ən böyük dəstəkçisi hesab edirlər.**

Dövlətimizin başçısı çıxışlarının birində demişdir: "Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər... Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik". Prezidentin səsləndirdiyi bu fikirlər, həqiqətən, gənclər adına qürurvericidir. İftixar hissi ilə demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub yaşadır. Bu gün Azərbaycan gəncliyinin səsi dünyanın bir çox ölkələrindən gəlir. Gənclərimiz yeni ixtiraları ilə dünyaya səs salır, beynəlxalq idman yarışlarında bayrağımızı dalğalandırırlar. Vətənə sevgi, məhəbbət hissi ilə yetişən gənc nəsil Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızı erməni işğalından azad etməklə xalqımıza əvəzsiz sevinc bəxş ediblər. 2020-ci ildə Zəfər ilə başa çatmış II Qarabağ müharibəsi dünya hərb tarixinə mühüm və yeni mərhələ kimi yazıldı. 30 ilə yaxın davam etmiş erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsi həm də müasir Azərbaycan gəncliyinin igidliyini, cəsurluğunu, Vətən, dövlət uğrunda mübarizəyə hazır olduğunu dünyaya nümayiş etdirdi.

"Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm", - deyən Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin, böyüməkdə olan nəslin vətənpərvərlik hisslərinin daha da artmasına əyani sübut kimi Vətən müharibəsinin ilk günündən gənclərin işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda mübarizə əzmini göstərmək olar. Hələ 2020-ci ilin iyulunda Ermənistanın Tovuzda törətdiyi təxribatdan sonra on minlərlə gənc könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə və şöbələrində qeydiyyata düşdü. Prezident İlham Əliyev ötən il noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdəki çıxışında bildirmişdir ki, bizim vətənpərvərlik məsələləri ilə bağlı çox fəal siyasətimiz olub: "Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək Prezident kimi mənim siyasətimin əsas istiqamətlərindən biri idi və buna nail olduq. Gənclərimiz vətənpərvərdir, Vətənə bağlıdır və İkinci Qarabağ müharibəsi bunu göstərdi. Bir daha demək istəyirəm, heç vaxt Qarabağı görməyən gənclərimiz Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə gedirdilər, cəmiyyətdə milli birlik, milli həmrəylik ideyaları üstünlük təşkil etdi".

Azərbaycanın gündən-günə güclənməsində, qüdrətlənməsində, dünya birliyində layiqli yer tutmasında da gənclərin rolu böyükdür. Uğurlarımıza diqqət çəkərkən bunun işgüzar və vətənpərvər gənclərin səyləri, qətiyyəti sayəsində qazanıldığının bir daha şahidi oluruq. Bu da təbiidir. Ölkəmizdə əhalinin 60 faizdən çoxunu gənclər təşkil edir. Gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi onlara olan etimaddan irəli gəlir.

Gəncləri Azərbaycanın gələcəyi, müasir Azərbaycanın qurucuları kimi dəyərləndirən Ulu Öndərin 1997-ci il 2 fevral tarixli fərmanına əsasən, ölkəmizdə Gənclər Gününün dövlət səviyyəsində qeyd edilməsi yeniyetmə oğlan və qızlarımıza sanki əlavə güc, stimul verdi. Gənclərin ictimai-siyasi işlərə geniş cəlb olunması bu strategiyanın təməl prinsiplərinə çevrildi. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən 20 ildir uğurla davam etdirilir. Ölkə rəhbərinin ictimaiyyət nümayəndələri ilə görüşlərində dəfələrlə səsləndirdiyi kimi, hər bir dövlət onda güclü olur ki, onun qüdrətli iqtisadiyyatı və güclü ordusu var. Təbii ki, bu ordunun əsasını gənclər təşkil edir. Danılmaz faktdır ki, gənclərimizin hərbi xidmətə böyük ruh yüksəkliyi ilə getmələri onlarda Vətən sevgisinin böyüklüyündən xəbər verir. Uğurlu siyasət, gənclərə göstərilən inam və etimad milli dövlətçiliyə sədaqətli, Prezidentinə güvənli vətənpərvər gənclər nəslinin mövcudluğuna səbəb olur.

Prezident İlham Əliyevin 2021-ci il 18 avqust tarixli "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" barədə sərəncamı Azərbaycan gəncliyinin çağırış və hədəfləri ilə bağlıdır. Bu, gənclərin ümumbəşəri dəyərlərə yiyələnməsini, informasiya cəmiyyətində yaşamaq bacarıqlarının artırılmasını, müxtəlif ölkələrin gəncləri ilə dostluq və əməkdaşlıq münasibətlərinin yaradılmasını, beynəlxalq gənclər hərəkatında iştirakını nəzərdə tutur.

Strategiyanın məqsədi 2015-2025-ci illəri əhatə edən müddətdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycanın mənafeyi naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır. Yeni strategiya gənclər siyasətinin məqsədlərini, vəzifələrini və icra mexanizmlərini müəyyənləşdirir. Bu mənada "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı gənclər siyasətində yeni mərhələ kimi də dəyərləndirmək olar.

Ötən 20 ildə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılıb. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edib. Böyüməkdə olan nəslin fiziki, sosial və mənəvi inkişafını təmin edən fəaliyyət sahələrinin genişləndirilməsi, gənclərin bəşəri dəyərlərə yiyələnmələri və digər bu kimi vəzifələr layiqincə icra olunub.

"Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Prezident İlham Əliyevin 30 sentyabr 2021-ci il tarixli sərəncamı da ictimaiyyət tərəfindən məmnunluqla qarşılanmışdır. "Qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyası təhsillə əhatənin və ona əlçatanlığın artmasına, bu çərçivədə gənclərin qabaqcıl xarici təhsilə cəlbinin müxtəlif proqramlarla dəstəklənməsinə mühüm imkanlar yaratmışdır.

Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirir, ölkədə gedən proseslərin daim önündə olmağa çalışır. Bu ondan irəli gəlir ki, Azərbaycan dövləti gənclərə hər zaman malik olduqları bacarıq, qabiliyyət və intellektual imkanlar üçün geniş meydan verməyin tərəfdarı kimi çıxış edir, bu təbəqəyə daim böyük diqqətlə yanaşır. Ölkəmizin uğurlu idman nəticələri, eyni zamanda bu sahəyə dövlət tərəfindən verilən dəstək, dövlət proqramlarının yüksək səviyyədə icrası beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gənclər və idman siyasətinin müsbət nəticələri bu gün beynəlxalq arenada da öz təsdiqini tapır.

Artıq bütün dünyada Vətənimiz idman ölkəsi kimi tanınır. Buna səbəb müxtəlif idman növlərində güclü idmançılarımızın olması ilə yanaşı, həm də evsahibliyi etdiyimiz beynəlxalq və respublika əhəmiyyətli kütləvi idman tədbirlərinin yüksək səviyyədə keçirilməsidir. Bütün bu fəaliyyətlər Azərbaycanda idmanın kütləvi xarakter almasına, gənclərin zərərli vərdişlərdən uzaqlaşaraq peşəkar və həvəskar idmana marağının artmasına səbəb olur. Bu mənada cari il dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyun mahiyyət etibarilə çox dəyərli, tarixiliyi ilə yaddaqalandır. Oyunun fasiləsində Prezident İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə görüşü zamanı çıxışında demişdir: "Yarışlar çox olur. Ancaq bugünkü yarış tarixdə əbədi qalacaq, həm xalqımız üçün, dövlətimiz üçün, dünya üçün. Dünyada hələ ki belə bir nümunə olmayıb ki, xalq, dövlət öz torpağını - uzun illər işğal altında olmuş torpaqları döyüş meydanında qan tökərək, şəhidlər verərək azad etsin, qursun, yaratsın və cəmi üç ildən sonra azad edilmiş torpaqlarda futbol matçı keçirilsin, vətəndaşlar Bakıdan, digər yerlərdən gəlib buna tamaşa etsinlər və qürur hissi yaşasınlar. Biz tarix yazmışıq, yazırıq və bu gün dediyim kimi, Xankəndi cəmi üç ay bundan əvvəl azad edilmişdir, ancaq artıq Xankəndi - Azərbaycan şəhəri olan Xankəndi yaşayır və dirçəlir".

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin yeni mərhələyə qaldırdığı dövlət gənclər siyasəti respublikamızda yetişməkdə olan vətənpərvər gənclərin inkişaf yoluna işıq salıb, onların dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, həyatın bütün sahələrində iştirak edən güclü sosial təbəqəyə çevrilməsini təmin edib. Ölkəmizdə gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir və bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Prezident İlham Əliyevin gənclər siyasəti bu gün bir nümunədir. Odur ki, nəinki Azərbaycanda, respublikamızdan kənarda da yaşayan, təhsil alan və hər hansı müəssisədə çalışan azərbaycanlı gənclər Azərbaycan Prezidenti İlham Əliyev siyasətinə, onun tələb və tövsiyələrinə həmişə sadiq və sədaqətli olmağa çalışırlar. Qarşıdan gələn Yeni ili xoş ovqatla qarşılayan Azərbaycan gəncləri səsini səslərə qataraq həmyaşıdlarını 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində ölkəmizi qələbədən-qələbəyə aparan güclü lider İlham Əliyevə səs verməyə çağırırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycan səfiri Fransanın seçkili orqanlarının nümayəndələrinə tutarlı cavab verib

**Fransanın "La Tribune" portalında Azərbaycanın bu ölkədəki səfiri Leyla Abdullayevanın bir qrup yerli seçkili orqanının nümayəndələrinin imzaladığı və bu portalda dərc edilmiş məqaləsinə cavabı işıqlandırılıb.**




AZƏRTAC xəbər verir ki, səfir Leyla Abdullayeva cavabında Fransanın seçkili orqanlarının nümayəndələrinin fikirlərinin anlaşılmaz və qəbuledilməz olduğunu bildirir. Qeyd edilir ki, Azərbaycan ilə Ermənistan arasında ədalətli və davamlı sülhün bərqərar olması perspektivinin indiki qədər real göründüyü bir vaxtda özünü Ermənistanın dostu kimi qələmə verən həmin nümayəndələrin COP29-un Bakıda keçirilməsi ilə əlaqədar məqaləsi anlaşılmaz olduğu qədər də qəbuledilməzdir.

Diplomat COP29-un Bakıda keçirilməsi ilə bağlı qərarın qəbuluna dair prosesi xatırladaraq vurğulayıb ki, o, yekdilliklə qəbul edilib. Diqqətə çatdırılıb ki, bu qərar Fransa və Azərbaycanın xeyrinə öz namizədliyini geri götürən Ermənistanın dəstəyi ilə verilib.

L.Abdullayeva vurğulayıb ki, Azərbaycan və Ermənistanın bu yaxınlarda qəbul etdikləri birgə bəyanat yalnız iki ölkə arasında etimadın yaradılması deyil, həm də ümumilikdə bölgədə dayanıqlı sülhün təmin edilməsi istiqamətində atılan təqdirəlayiq addım olduğu bir vaxtda, bu məqalə nifrət oyatmağa hesablanıb. Məqalədə yalnız yalanların əks olunduğunu bildirən səfir diqqətə çatdırıb ki, heç ermənilərin özləri belə yalanlara əl atmırlar.

"1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan həqiqi demokratik proses həyata keçirən, tamamilə dünyəvi, gender bərabərliyinə sadiq (azərbaycanlı qadınlar fransız qadınlardan 26 il əvvəl səsvermə hüququna malik olublar), tam iqtisadi inkişafda olan gənc dövlətdir. Azərbaycan karbohidrogen istehsalçısı olsa da, çox iddialı proqramlar həyata keçirir.

Ermənistanın dostu olan bir qrup fransız nümayəndə bu platformadan istifadə edərək, əslində, Azərbaycana qarşı qarayaxma ilə məşğul olmaqla yanaşı, Ermənistanın seçimlərini də pisləyir və iki dövlət arasında sülh prosesinə əngəl törədirlər", - deyə səfir L.Abdullayeva qeyd edib.

# Fransaya daha bir zərbə

## Bakı Parisin agentura şəbəkəsini ifşa edərək onu gözdən saldı

**Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatlar nəticəsində ölkəmizin ərazisində Fransanın agentura şəbəkəsi ifşa edilib. Fransanın casus şəbəkəsinin, eləcə də Ukrayna, Moldova, Gürcüstan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində müxtəlif əməliyyatlarda iştirak etməsi faktları da aşkar olunub.**

Uğurla aparılan əməliyyat sayəsində rəsmi Parisin Azərbaycanda, həmçinin qeyd etdiyimiz digər ölkələrdə daxili sabitliyi pozmaq, dövlətə təhlükə yaratmaq planları puça çıxarılıb. Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən Fransa casus şəbəkəsi zərərsizləşdirilib.

Rəsmi Parisin əvvəllər də anti-Azərbaycan mövqeyi və bu istiqamətdə xüsusi fəallığı bütün dünyaya məlum idi. Fransa keçmiş Minsk qrupunun həmsədr ölkəsi kimi, Ermənistanla Azərbaycan arasında sülh prosesinə nəinki dəstək vermədi, əksinə, iyirmi beş il ərzində bütün fəaliyyətini ikili siyasət üzərində quraraq ölkəmizə qarşı qərəzli, məkrli mövqe tutaraq həyata keçirdi. Rəsmi Paris Ermənistanın yanında olduğunu birmənalı şəkildə ifadə edir, separatizmi açıq-aydın dəstəkləyirdi.

Təəssüf ki, tarixi müstəmləkəçilik siyasəti ilə ləkələnmiş olan Fransa bu gün də işğalçı Ermənistana qol-qanad verməkdə davam edir. Cənubi Qafqazda sülhə, sabitliyə nail olmaq üçün geniş şərait yaranması rəsmi Parisi çox narahat edir. Öz məkrli planları və əməlləri ilə sabitliyi pozmağa cəhd göstərir. Fransanı bu regionun aqibəti qətiyyən maraqlandırmır. Çünki münaqişə ocağına çevirməyə səy göstərdiyi Cənubi Qafqaz da əsrlərdir müstəmləkəsi altında saxladığı, sərvətlərini taladığı, əhalisinə faciələr yaşatdığı ölkələr kimi ona yaddır.

Fransa hər zaman yalnız öz maraqlarına uyğun siyasət yürüdüb. Bu gün də harada sülhə çağırış, demokratiya varsa, orada rəsmi Parisin adını, fəaliyyətini görmürük. Uzun illər əvvəl işğalçı Ermənistanı müttəfiq seçməsinin əsas səbəblərindən biri də bu olmuşdu. Rəsmi İrəvanın timsalında Cənubi Qafqazda özünə tərəfdaş tapmışdı. Odur ki, Fransa iyirmi beş il müddətində vasitəçilik missiyasını layiqincə yerinə yetirməmiş, keçmiş Qarabağ münaqişəsinin həllinə çalışmamışdı. Göstərdiyi bütün səylər Azərbaycan ərazilərinin Ermənistanın işğalında qalmasına hesablanmışdı.

2020-ci ilin payızında, 44 günlük Vətən müharibəsində ədalət bərpa olundu, Azərbaycan öz əzəli torpaqlarını Ermənistanın işğalından azad etdi. Ancaq bu böyük Zəfərdən sonra da işğalçı dövlət Azərbaycanın təbii sərvətlərini talamaq, daşıyıb aparmaq niyyətindən əl çəkmədi. Bu ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Daha işğalçılar, soyğunçular qanunsuz yollarla məkrli məqsədlərini həyata keçirmək üçün ərazilərimizə ayaq basa bilmirlər. Artıq bölgədə yeni reallıqlar yaranıb. Rəsmi Paris bununla barışmaq istəmir. Odur ki, təcavüzkar Ermənistana silah-sursat verir, Avropa Parlamentinin vasitəsi ilə fitnə-fəsadlar törədir, ölkəmizə qarşı qərəzli qətnamələr qəbul etdirir. Lakin özü də yaxşı bilir ki, bütün məkrli əməlləri hədərdir. Azərbaycan suverenliyinə nail olub. Ermənistan rəsmiləri də həqiqəti etiraf edərək uzun illər işğalda saxladıqları, müzəffər ordumuzun azad etdiyi torpaqların Azərbaycan dövlətinin əraziləri olduğunu deyiblər. Demokratiyaya qənim kəsilən Fransa isə Cənubi Qafqazdan birdəfəlik qovulsa da, aşkar və gizli həmlələrindən əl çəkməyib.

Azərbaycan dövləti Vətən müharibəsi, həmçinin suverenliyimizin bərpasına qədərki dövrdə yalnız torpaqlarını işğal etmiş, ərazilərində faciələr, soyqırımları, mina terrorları törətmiş təcavüzkar ermənilərə, işğalçı Ermənistanın silahlı qüvvələrinə qarşı mübarizə aparmadı. Ölkəmizə xarici təhlükələr də çox idi. Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidməti bütün təhdidlərin qarşısını peşəkarlıqla aldı. Milli təhlükəsizliyimizin diqqət və qətiyyətlə qorunmasını davam etdirdi. Fransanın casus şəbəkəsinin ifşa olunması ilə buna bir daha əmin olduq.

Dövlətimizə qarşı düşmən mövqeyində dayananlara isə dünyanın aparıcı xüsusi xidmət orqanları arasında yer tutan Fransa xüsusi xidmət orqanlarının rezidentura şəbəkəsini ölkəmizin təhlükəsizlik orqanları tərəfindən peşəkarlıqla üzə çıxarılması xəbərdarlıq oldu. Emmanuel Makron tələm-tələsik Fransa Xarici Təhlükəsizlik Baş İdarəsinin (DGSE) rəisi Bernar Emyeni vəzifəsindən azad etdi.

Ölkəsinin daxilində sabitliyi qoruya bilməyən Fransa rəhbərliyinin xaricdə də demokratiya düşməni olduğu Qərb mətbuatında yayılan məlumatlar arasında yer alıb.

Agentura şəbəkəsinin Azərbaycan xüsusi xidmət orqanlarının yüksək peşəkarlıqla həyata keçirdikləri əməliyyatlar nəticəsində ifşa edilməsi Fransanın dünyadakı imicinə böyük zərbə vurdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcmasında ümumi yığıncaq keçirilib, qurumun saytı təqdim olunub

**Qərbi Azərbaycan İcmasında təşkilatın 2023-cü ildə fəaliyyətinin qiymətləndirilməsi, görülmüş işlərə dair hesabatların dinlənilməsi, eləcə də 2024-cü ildə icmanın qarşısında duran prioritetlərin müəyyən edilməsi ilə bağlı illik ümumi yığıncaq keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan icmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli 2022-ci il dekabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyevin icmanın inzibati binasının açılışı zamanı bir qrup ziyalı ilə görüşünün icmanın 2023-cü ildə göstərdiyi intensiv fəaliyyət üçün böyük təkan və stimul olduğunu bildirib. Deyib ki, dövlətimizin başçısının tövsiyələri əsasında qısa zamanda icmanın Qayıdış Konsepsiyası hazırlanaraq qəbul olunub. Soydaşlarımızın öz doğma torpaqlarına geri qayıdışı uğrunda yorulmaz daxili və beynəlxalq fəaliyyətə start verilib. Şəhər, rayon və kənd icmalarının Qərbi Azərbaycan İcması ətrafında birləşməsi ilə icmanın yenidən təşkilatlanması prosesi daha intensiv hal alıb. İcma Bakıda və bölgələrdə qərbi azərbaycanlıların qayıdış hüququnun təşviqi və onların adət-ənənələrinin, folklorunun, mədəni dəyərlərinin təbliği istiqamətində çoxsaylı tədbirlər, o cümlədən elmi-praktik konfranslar, seminarlar, festivallar, sərgilər və konsertlər keçirilib.

Ə.Ələkbərli qeyd edib ki, ilin əvvəlində Qayıdış Konsepsiyasının qəbulundan dərhal sonra Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıtmaları məsələsinin beynəlxalq gündəliyə gətirilməsi istiqamətində sistemli fəaliyyətə başlanılıb. İcma Ermənistanın baş naziri Nikol Paşinyana məktub ünvanlayaraq dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə hörmət etməklə, qayıdış mövzusunda dialoqa başlamaq təklifi ilə çıxış edib. Bununla yanaşı, xarici dövlətlərə və beynəlxalq təşkilatlara müraciətlər ünvanlanaraq, icmanın sülhsevər və beynəlxalq hüquqa əsaslanan missiyası barədə məlumat verilib və qayıdış hüququnun təmin olunmasında onların dəstəyi xahiş edilib. İcmanın 8 sənədi BMT-nin rəsmi sənədi kimi yayılıb. İcma qayıdış məsələsinə dair beynəlxalq təşkilatlarla dialoqa başlayıb və bu təşkilatlar çərçivəsində rəsmi tədbirlərdə iştirak edib. Həmçinin xaricdə yaşayan qərbi azərbaycanlıların təşkilatlanması və onlar arasında koordinasiyanın gücləndirilməsi istiqamətində əməli addımlar atılıb.

O bildirib ki, dekabrın 5-də "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda 30 xarici ölkədən nümayəndələrin iştirakı ilə baş tutmuş beynəlxalq konfrans Qərbi Azərbaycan mövzusunun beynəlxalq ictimaiyyətin gündəliyinə gətirilməsi baxımından böyük rol oynayıb. İcma il ərzində öz fəaliyyəti barədə ictimaiyyəti aktiv şəkildə məlumatlandırıb və xarici dairələrin icma üçün maraq doğuran məsələlərə dair ifadə etdikləri mövqelərə operativ qaydada müvafiq bəyanatlarla reaksiya verib.

Ardınca Nəzarət-Təftiş Komissiyasının sədri, professor Vahid Novruzov, Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov, Ziyalılar Şurasının sədri, professor Elxan Hüseynov, Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı, Gənclər Birliyinin sədri, Milli Məclisin deputatı Ramin Məmmədov, Qəyyumlar Şurasının sədri Mürvət Həsənli təmsil etdikləri şuralar və birliyin illik hesabatını təqdim ediblər.

Toplantı iştirakçıları Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüququ məsələsində göstərdiyi prinsipial və ardıcıl yanaşmaya və Qərbi Azərbaycan İcmasının fəaliyyətinə verdiyi qiymətli dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib və qarşıdan gələn doğum günü münasibətilə səmimi təbriklərini çatdırıblar.

Sonda Qərbi Azərbaycan İcmasının saytının - **"www.westaz.org"**un təqdimatı olub.

**Soyuq qışın bayram ərəfəsində hər il paytaxt sakinlərinin və Bakı qonaqlarının görüşünə gələn, qəlbləri isidən "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası bu il də dekabrın 1-dən fəaliyyətə başlayıb.**

**Həmin gündən "Bakının qış nağılı" da başlayır deyə bilərik. Kiçikdən böyüyə hər kəsin asudə vaxtını keçirdiyi, əyləndiyi məkana çevrilən, 10 ildir bayram günlərində "Fəvvarələr meydanı"nın bəzəyinə çevrilən xeyriyyə yarmarkası yalnız bura gələnləri sevindirmir, həm də yarmarkadan yığılan vəsait hesabına yardıma ehtiyacı olan uşaqların sağlamlıqlarına qovuşması ilə onların xoşbəxtliyinə səbəb olur.**



# Qəlblərin qızındığı məkan

## "Soyuq əllər, isti ürək" hər kəsi öz sehrinə alaraq nağıllar aləminə aparır

Hava ki qaraldı, mərkəzi küçədə al-əlvan işıqlarla bəzədilmiş məkan ailəliklə şəhərə gəzintiyə çıxanları cəlb etməyə bilməz. Bu məkan Yeni ilin gəlişi ilə sevinci yerə-göyə sığmayan balacaları sehrli qüvvə kimi özünə çəkir. Çünki yarmarka ərazisində quraşdırılmış 64 böyük və 20 balaca ev, 3 ikimərtəbəli restoran, oyun zonası, fotozona, 4D kinoteatr, qorxu otağı, labirint otağı, Qrinç evi, kiçik köşklər, müxtəlif tematik guşələr, Santa evi və böyük Yeni il şam ağacı onların ürəklərindən xəbər verir.

Bura gələn balacalar həm istədikləri təamlardan dada, həm də əylənə bilirlər. Ən əsası Santa evinin sehrinə düşürlər ki, bu da onları kiçik qəlblərindəki arzularının gerçəkləşməsinə inandırır. Elə yarmarkaya daxil olan kimi uşaq səsindən də bilmək olur ki, bu məkan daha çox onların sevimli ünvanıdır.

Təbii ki, yarmarkanın ən maraqlı köşəsi və balacaların arzularını gerçəkləşdirən Santanın evidir. Elə ən çox növbə də bu evin qarşısındadır. Uşaqların gözlərindən, üzlərindəki təbəssümdən Santa ilə şəkil çəkdirməyi necə səbirsizliklə gözlədikləri hiss olunur.

Elə bu məqamda uzun hörüklü qızın təbəssümü diqqətimizi cəlb edir. Ən çox uşağın ora toplaşdığını görüb evə yaxınlaşırıq. Anasının əlindən tutub növbə gözləyən balaca adının Nərgiz olduğunu deyir. 6 yaşlı müsahibimiz ötən ili də xatırlayır: "Neçənci dəfədir bura gəlirəm. Ən çox Santa Klausu görmək üçün gəlmək istəyirəm".

Yarmarkaya gələndə nələr etdiyini soruşanda isə Nərgiz belə cavab verir: "Anamla yemək yedik. İndi Santa ilə şəkil çəkdirəcəyəm. Çoxlu oyunlar var burada. Oynadım, amma kuklanı qazana bilmədim".

Nərgizin anası Nuray xanım deyir ki, artıq neçə ildir "Soyuq əllər, isti ürək" yarmarkasına gəlir: " Əvvəllər də gəlirdim. Amma son illər yarmarka həm də əyləncəli xarakter alıb deyə uşaqlar üçün də maraqlı olur. Ən çox Nərgizin təkidi ilə gəlirik. Santa Klausu görmək onu çox sevindirir. Neçə aydır soruşur ki, Santa nə vaxt gəlir?"









Paytaxt sakini düşünür ki, bayram ərəfəsində belə yarmarkanın təşkili həm böyüklər, həm də uşaqlar üçün xoş olur.

Qış nağılının personajlarından olan Qrinçin evi də uşaqların diqqətini çəkən yerlərdəndir. Doğrudur, Miladı oğurlayan Qrinç uşaqların sevincini, bayramlarını əllərindən almaq istəsə də, yarmarkanın balaca qonaqları bu personajın, əslində, kimliyini unudaraq isti ürəklərini ona da açırlar. Axı onlar nağılları sevir və bu personajları özləri üçün qəhrəman olaraq seçirlər.

Qrinç evinin yanında dayanan bir xanıma yaxınlaşırıq. Könül xanım Qrinç evində şəkil çəkdirən övladlarına baxaraq deyir ki, Səma və Seymurun ən çox sevdiyi yer olduğu üçün hər il yarmarkaya gəlirlər: "Yeni ili səbirsizliklə gözləyirlər, xüsusən də bu yarmarkanın açılmasını. Restoranda da buradakı yeməklərdən yeyə bildikləri halda bura üstünlük verirlər. Deyirlər ki, burdakılar dadlı olur (gülür). Səma buranı ən çox axşamlar sevir. Çünki yarmarkadakı işıqlanma ona baxdığı filmlər, nağıllardakı kimi gəlir".

Müəllim olduğunu deyən K.Quliyeva bildirir ki, uşaqlar bura daha çox əylənmək üçün gəlsələr də, biz həm də yarmarkanın xeyriyyə məqsədilə keçirildiyini unutmamalıyıq. "Bu baxımdan özüm də yarmarkanı sevirəm. Düşünürəm ki, sayəmizdə başqa körpələr də sevinərlər. Həm də uşaqlara hər zaman bu haqda danışıram ki, məlumatlı olsunlar", - deyə o qeyd edir.

Biz isə Səma ilə Seymura mane olmadan oradan uzaqlaşırıq.

Əslində, uşaqları anlamaq olur. Nizami küçəsinin mərkəzi hissəsində kiçik, işıqlı, bəzəkli evlər böyükləri belə öz sehrinə alaraq nağıllar aləminə aparır. Açıq havada soyuq qış günündə əllərimiz üşüsə də, amma məqsəd və uşaqların çöhrələrindəki təbəssüm qəlbimizi isidərək bir neçə saatın necə keçdiyini bizə unutdurdu.

*Əsmər QARDAŞXANOVA,*
*İlham BABAYEV(foto),*
*"Azərbaycan"*






# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**



**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# GDU-da tələbələrlə görüş keçirilmişdir

**Gəncə Dövlət Universitetində (GDU) 2023-2024-cü tədris ilinin payız semestr imtahanlarına hazırlıqla bağlı tələbələrlə görüş keçirilmişdir.**

Görüşü giriş sözü ilə universitetin rektoru Yusif Yusibov açaraq diqqətə çatdırmışdır ki, görüşün keçirilməsində əsas məqsəd tələbələrin imtahanlara hazırlıq səviyyəsini öyrənmək, imtahanlarla bağlı çətinlik və problemlərini dinləmək, suallarını cavablandırmaq, həmçinin imtahanlara hazırlıq prosesində qarşıya çıxa biləcək çətinliklərin operativ həllinə nail olmaqdır.



Sonra universitetin tədris işləri üzrə prorektoru Şahin Xurşudov çıxış edərək imtahanların keçirilmə qaydaları barədə ətraflı məlumat vermişdir. Prorektor qeyd etmişdir ki, universitetdə imtahan sessiyasının mövcud əsasnaməyə uyğun keçirilməsi üçün lazımi şərait yaradılmış, imtahanlarla əlaqədar təlimat hazırlanmış və universitetin saytında yerləşdirilmişdir. Bundan başqa, imtahanların gedişinə operativ nəzarət etmək və tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədi ilə imtahan qərargahı və apelyasiya komissiyası da yaradılmışdır.

Görüşdə diqqətə çatdırılmışdır ki, imtahanlar yazılı və test üsulu ilə pilot layihə olaraq kimya müəllimliyi ixtisasında şifahi, yaradıcılıq tələb edən ixtisaslarda isə qabiliyyət formasında keçiriləcək. Sessiya zamanı üzrlü səbəbdən imtahanda iştirak etməyən və akademik borcu yaranmış tələbələrə təkrar imtahan vermək üçün şərait yaradılması nəzərdə tutulmuşdur.

Görüşün sonunda tələbələri maraqlandıran suallara aydınlıq gətirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan-Qırğızıstan İnkişaf Fondu 2024-cü ildən fəaliyyətə başlayacaq

**Azərbaycan-Qırğızıstan İnkişaf Fondu gələn ildən Qırğızıstanda layihələri maliyyələşdirməyə başlayacaq.**

AZƏRTAC Qırğızıstanın "Kabar" milli informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə Qırğızıstan Respublikasının iqtisadiyyat və ticarət naziri Daniyar Amangeldiyev agentlikdə keçirilən mətbuat konfransında məlumat verib.



Onun sözlərinə görə, 2023-cü il ərzində layihələrin həyata keçirilməsi üçün vəsait Qırğızıstan Milli Bankının hesablarına köçürülüb. Eyni zamanda İqtisadiyyat və Ticarət Nazirliyinin rəhbəri qeyd edib ki, bu il inkişaf fondları vasitəsilə Qırğızıstana cəlb edilən investisiyaların həcmi 50 faiz artıb.

Xatırladaq ki, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun yaradılması haqqında saziş Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il oktyabrın 11-12-də Qırğızıstana dövlət səfəri zamanı imzalanıb. Bu fond Qırğızıstan ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın təşviqi, sənayenin müasirləşdirilməsi və inkişafı, ikitərəfli iqtisadi əməkdaşlığın səmərəliliyi və genişləndirilməsi məqsədi ilə yaradılıb.

Fondun nizamnamə kapitalı 25 milyon ABŞ dollarıdır. Maliyyələşdirmə tamamilə Azərbaycan tərəfindən həyata keçirilir.

# Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir

**Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə nazirinin tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin bir qrup zabit heyəti işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrdə olub.



Çətin relyefli ərazilərdə xidmət edən hərbi qulluqçularla görüşlərdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, xidməti-məişət şəraiti öyrənilib, onları maraqlandıran suallar cavablandırılıb.

Həmçinin hərbi qulluqçularla milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda maarifləndirici söhbətlər aparılıb, onlara hərbi xidmətlə bağlı lazımi tövsiyələr verilib.

Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq qərar və əmrlərinin tələbləri, o cümlədən sayıqlığın artırılmasına dair təlimatları və təhlükəsizlik qaydaları şəxsi heyətə çatdırılıb. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı yüksək qiymətləndirilib.

Hərbi qulluqçular isə öz növbələrində göstərilən etimadı nümunəvi xidmətləri ilə doğrultmağa çalışdıqlarını bildiriblər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3334**

**Qiyməti 40 qəpik**